www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 20-21 iyun 2015-ci il Şənbə № 133 (6161) Qiyməti 40 qəpik

**Xəbər**

## Səbayeldə 9 mərtəbəli binanın sakinləri şüalanmaya məruz qalır

yazısı səh.14-də

**Gündəm**

### Rus generalı ermənilərin kefinə niyə soğan doğradı?



Mixolay Bordyujaya

Qarabağ münaqişəsi ilə bağlı hərəkətliliyin artdığı dönəmdə Bordyujanın İrəvana vurduğu tərs sillənin sirri

yazısı səh.13-də

### Bölgələrdə insanların problemləri bitib-tükənmir

yazısı səh.4-də

### Kürdlər ABŞ-ın dəstəyi ilə Suriya-Türkiyə sərhədlərini nəzarətə alır

yazısı səh.8-də

### Azərbaycanın Rusiyadan T-90 tankları alması düzgün addımdırmı?

yazısı səh.9-də

### Bakıdakı dəhşətli yanğından 1 ay ötdü

yazısı səh.11-də

### Gədəbəydə öldürüldüyü iddia olunan hərbçi ilə bağlı şok təfərrüatlar

yazısı səh.12-də

### Cəmiyyətin sağalmaz yarası - yaltaqlıq...

yazısı səh.15-də

### Politoloq Xəqani Hüseynov vəfat etdi

yazısı səh.2-də

### Binəqədidə şəhid ailəsinə hörmətsizlik

yazısı səh.12-də

### Manat dolları ötə bilər

yazısı səh.2-də

**Ramazan ayının 3-cü günü**

İftar 21.30. İmsaq (azan) 4.40 (QMİ)

3-cü günün duası: "İlahi, bu gün mənə yaxşı düşünmək və ayıq fikir əta et! Məni ağılsız və səfeh işlərdən uzaq et! Bu gün Öz səxavətinlə nazil etdiyin hər bir xeyirdən mənə pay ayır! Ey səxavətlilərin ən Səxavətlisi!"

İftar duası: "Allahım, Sənin rizan üçün oruc tutdum, Sənə inandım, Sənə güvəndim. Sənin ruzinlə iftar açır və Sənə təvəkkül edirəm. Ey bağışlayan Allah, günahlarımı bağışla".

ALLAH ORUCUNUZU QƏBUL ELƏSİN!

## Qaz müharibəsi daha sərt mərhələyə adlayır

# TANAP VƏ TAP-A YENİ TƏHLÜKƏ - PUTİNİN ŞOK GEDİŞİ

Rusiya yunanları ələ ala bildi - "Türk axını" memorandumu imzalandı; Qərbin reaksiyası necə olacaq, Vaşinqton və Brüssel "Transxəzər" qaz kəməri üçün həlledici həmləyə qərar verəcəkmi?




yazısı səh.6-də

## "Dostluq" parkındakı villaları tikən şəxsin həbsinin pərdəarxası

Abutalıbovun sökdürdüyü mülklərin sahibləri hələ də şübhəli şəkildə susurlar; Tərlan Hüseynovun tutulması günahkar məmurları qorumağa xidmət edə bilər

yazısı səh.11-də



Ramiz Əmirli

### Macarıstan-Azərbaycan cəmiyyətinin sədri İlham Əliyevə müraciət etdi

yazısı səh.5-də



*İqbal Ağazadə:*

### "2016-cı ilin sonuna qədər proseslər belə davam edəcək"

yazısı səh.3-də



### Sabiq deputat Nazim Məmmədov İranda şirkət açır

yazısı səh.2-də

20-21 iyun 2015

# Şəxsiyyət vəsiqəsi ilə xaricə getmək olacaq - prezident sərəncam verdi



**Prezident İlham Əliyev "Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 may tarixli 1295-IVQD nömrəli Qanununun tətbiqi barədə sərəncam imzalayıb.**

"Qafqazinfo" xəbər verir ki, dəyişikliklərə əsasən, Məcəllənin 10.1-ci maddəsinə aşağıdakı məzmunda üçüncü cümlə əlavə edilir: "Xarici dövlətlərlə müvafiq beynəlxalq müqavilə bağlanmış olduğu halda, Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsindən də vətəndaşın ölkədən getmək və ölkəyə gəlmək hüququnun həyata keçirilməsi üçün nəzərdə tutulan sənəd kimi istifadə oluna bilər".

# QHT Şurasi "İçərişəhər"də erməni təcavüzünə dair elektron lövhə yerləşdirib



**Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğunda Ermənistanın Azərbaycana hərbi təcavüzü haqqında elektron məlumat lövhəsi və monitor yerləşdirib. Lövhənin hazırlanmasında məqsəd I Avropa Oyunları ilə əlaqədar ölkəmizə səfər edən çoxsaylı xarici vətəndaşların Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında obyektiv məlumatlarla təmin edilməsidir.**

Monitorda Şuranın Şuşa və Ağdam haqqında çəkdiyi sənədli filmlər nümayiş etdirilir, eyni zamanda qaçan sətirlərlə işğal altında olan rayonlara dair informasiyalar verilir.

Məlumat lövhəsinə işğal altında olan ərazilərimizin fərqləndirildiyi xəritə və Ermənistanın Azərbaycana təcavüzünün nəticələrinə dair geniş statistik məlumatların əks olunduğu ingilis və rus dillərində bukletlər də yerləşdirilib.

# SOCAR "Qazprom"dan yarım milyard dollar kredit aldı

**İyunun 19-da Sankt-Peterburqda beynəlxalq iqtisadi forum çərçivəsində Qazprombank və Azərbaycanın Dövlət Neft Şirkəti - SOCAR Azərbaycanda yüksək sıxlıqlı polipropilen və polietilen qurğularının tikintisinin maliyyələşdirilməsi haqqında saziş imzalayıb.**

Qazprombank-ın saytında yer alan məlumata görə, sazişi Qazprom bank rəhbəri Andrey Akimov və SOCAR prezidenti Rövnəq Abdullayev imzalayıblar. Kreditin məbləği 489 mln. dollar, müddəti 10 il təşkil edəcək.

"Biz SOCAR qrupu ilə uzunmüddətli strateji tərəfdaşlıq niyyətindəyik və SOCAR Polymer layihəsinin maliyyələşdirilməsinə əməkdaşlığın növbəti mərhələsi kimi baxırıq", deyən Akimov sövdələşmənin Qazprombank-ın SOCAR-ın digər investisiya layihələrində də iştirakına imkan verəcəyinə ümid etdiyini deyib.

Xatırladaq ki, SOCAR Polymer SOCAR, Pasha Holding, Gilan Holding və Azərsun Holding tərəfindən təsis edilmiş birgə şirkətdir.

Polipropilen istehsal edən müəssisə Sumqayıtda İtaliya şirkətləri ilə birgə tikiləcək.

350 milyon avro dəyəri olan layihə aprelin 15-də Bakıda təsdiq edilib. Müəssisə ildə 180 min ton polipropilen istehsal edəcək. Müəssisə 2018-ci ildə tam gücü ilə fəaliyyət göstərməlidir və ölkənin plastmass tələbatının 30%-ni təmin edəcək.

## Başsağlığı

**Milli Strateji və Düşüncə Mərkəzinin sədri İsa Qəmbər politoloq, hərbi ekspert**
**Xəqani bəy Hüseynlinin**
**vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başğlığı verir.**

***

**Müsavat Partiyasının başqanı Arif Hacılı və partiyanın Divanı Milli Azadlıq Hərəkatı Öncüllərindən olan politoloq**
**Xəqani bəy Hüseynlinin**
**vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başğlığı verir.**

"Elm" tədris mərkəzi
MAGIC LANGUAGES
➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)
**Ünvan:** 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
**Ünvan:** 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05

# "AŞPA Komitəsinin namizədlərə münasibəti qərəzlidir"

## Əli Hüseynli: "Həmin iclas qapalı qaydada keçirilsə də, bizdə olan məlumatlar onu deməyə əsas verir ki..."

**Azərbaycanın AŞPA-da nümayəndə heyətinin üzvü, Milli Məclisinin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynlinin APA-ya müsahibə verib.**



- Bu günlərdə Avropa Şurası Parlament Assambleyasının Avropa Məhkəməsi hakimlərinin seçilməsi üzrə Komitəsinin iclasında Azərbaycandan təqdim edilmiş namizədlər üçün müsahibə keçirilib. Amma nəticə qənaətbəxş olmayıb. Bu məsələyə münasibətinizi bilmək istəyərdik.

**- İlk növbədə bildirmək istəyirəm ki, Azərbaycan Respublikası tərəfindən irəli sürülmüş namizədlər ədalətli, açıq və şəffaf prosedur nəticəsində seçilib. Müvafiq elan Məhkəmə-Hüquq Şurası tərəfindən kütləvi informasiya vasitələrində dərc edilib və iki mərhələdə, yəni yazılı test və müsahibə çərçivəsində namizədlərin siyahısı müəyyən edilib.**

Bildirməliyəm ki, Azərbaycandan başqa həmçinin digər 4 dövlət tərəfindən təqdim edilmiş namizədlər üçün də müsahibə keçirilib. Həmin iclas qapalı qaydada keçirilsə də, bizdə olan məlumatlar onu deməyə əsas verir ki, Azərbaycana qarşı yenə də qərəzli mövqe tutulub. Misal üçün, Lüksemburqdan irəli sürülmüş namizəd Komitə üzvlərinə bildirib ki, bu ölkədə seçmə prosedurları şəffaf olmayıb və o, ümumiyyətlə necə bu siyahıya daxil olduğunu bilmirdi. Buna baxmayaraq, Komitə bu ölkənin siyahısını AŞPA sessiyasına təqdim edib.

**- Amma ekspertlər bildirirlər ki, Azərbaycandan təqdim edilmiş siyahıda hökumətin nümayəndəsi, yəni onların fikrincə, Avropa Məhkəməsində baxılan işlərdə maraqlı tərəfin olmasına görə həmin siyahı AŞPA sessiyasına təqdim edilmədi.**

- Elə bu yanaşmanın özü subyektiv və qərəzlidir. Ermənistanın siyahısında Ermənistan vətəndaşları adından Avropa Məhkəməsinə 160-dan artıq şikayət göndərmiş şəxs bura daxil edilib. Yəni, Komitə üzvlərinin fikrincə, bu hal namizədin obyektivliyinə xələl gətirmir, amma Azərbaycan səlahiyyətli nümayəndəsinə münasibətdə tam əks mövqe tutulur.

**- Bəs Azərbaycan tərəfi yenidən təkrarən namizədləri təqdim edə bilərmi?**

- Azərbaycan dövləti öz suveren hüququndan istifadə edərək, istədiyi namizədləri AŞPA-ya yenidən təqdim edə bilər.

# Manat dolları ötə bilər

**Neftin dünya bazarında qiyməti Azərbaycan üçün valyuta və maliyyə stabilliyi baxımından olduqca vacibdir. Bunu anspress-ə açıqlamasında İqtisadi və Sosial İnkişaf Mərkəzinin (İSİM) rəhbəri, iqtisadçı-alim Vüqar Bayramov söyləyib. Mütəxəssis neftin bahalaşmasının ölkəmizə nə vəd edəcəyi haqqında fikirlərini açıqlayıb: "Bildiyimiz kimi, Azərbaycan da neft ixrac edən ölkədir. Bunun üçün də ölkənin formalaşmasında neft sektorunun payı kifayət qədər yüksəkdir. Neftin bahalaşması Azərbaycan iqtisadiyyatı üçün birmənalı şəkildə müsbət təsirlərə malikdir. Nəzərə alsaq ki, bu bahalaşma dövlət gəlirlərində artıma nail olmaq üçün Azərbaycana imkan verir, bu, birmənalı şəkildə dövlət gəlirlərinin artmasına müsbət təsir göstərir.**

Neftin dünya bazarında qiyməti Azərbaycan üçün valyuta və maliyyə stabilliyi baxımından olduqca vacibdir. Nəzərə alaq ki, manatın stabilliyi üçün ölkəyə daxil olan xarici valyutanın həcmi üçün də bu, çox vacibdi. Manatın stabilliyi üçün əsas faktorlardan biridir".

İqtisadçı hesab edir ki, dünya bazarında neftin qiymətinin yüksəlməsi Azərbaycanda milli valyutanın və maliyyə stabilliyinin qorunması baxımından müsbətdir: "Bu, həm də manatın dollara nisbətdə olan məzənnəsinin yüksəlməsini müşahidə etməyə imkan verəcək. Bütün faktorları nəzərə alsaq, neftin dünya bazarında qiymətinin yüksəlməsi Azərbaycan iqtisadiyyatı üçün müsbət təsirlərə malikdir".



# Nazim Məmmədov İranda şirkət açır

**Keçmiş deputat və iş adamı Nazim Məmmədov İranda şirkət açır. Bu barədə musavat.com-a N.Məmmədov özü bildirib. O, qeyd edib ki, İran, Azərbaycan, Rusiyadan iş adamları niyyət protokolu imzalayıblar. Bu, İranın Bonab şəhərində "Javid Steel Bonab" dəmir istehsal zavodu ilə bağlıdır.**

Tədbirdə Rusiyanın ən məşhur biznes adamlarından Zaxarov Vyaçeslav İvanoviç də iştirak edib. "Voronejselmaş" zavodunun sahiblərindən olan Zaxarov İrana istehsal sahəsi yaratmaq üçün gedib.

"Bir istehsalımız işə salınıb, 2 ildən çoxdur. Rusiya-İran əlaqələrini möhkəmləndiririk. Çox təəssüf olsun ki, Azərbaycanda monopoliya olduğundan, həm biz, həm də xaricilər investisiya yatırmağa risk etmirik. Çünkü günlərin bir günü "Baku Steel Company"nin rəhbəri Rasim Məmmədov və ya ona oxşar birisi "qoçu dəstəsi" vasitəsi ilə istehsalımızı dayandıra bilər və dövlət onlara heç nə edə bilməz",- deyə o, vurğulayıb.

N.Məmmədov qeyd edib ki, İranda qurduqları işin normal olacağına əmindir: "2012-ci ilin iyul ayında misli görünməmiş reyder hücumları ölkəni sarsıtsa da, hələ ki məhkəmə və hüquq-mühafizə orqanları Rasim Məmmədovun arxasında duran adamların qorxusundan heç nə etmək istəmirlər. Ümid edirəm bu hadisələrin 3 illiyinə qədər sahibkarlığa siyasi, maddi, mənəvi dəstək olan cənab prezident İlham Əliyev bu işin arxasında durub Azərbaycanın biznes mühitinə ciddi zərbə vuranları cəzalandıracaq".

Qeyd edək ki, bir neçə il əvvəl N.Məmmədovun rəhbərlik etdiyi "Atahan Dəmir Sənaye" metallurgiya müəssisəsinin fəaliyyəti iflic olub. Belə ki, müəssisəyə gələn üç nəfər hədə yolu ilə işi dayandırmağa məcbur ediblər. N.Məmmədovun sözlərinə görə, hücumçular Rasim Məmmədovun- "Baku Steel Company" MMC Müşahidə Şurası sədrinin "reketçilər qrupunun" üzvləri olublar. Bu əməllər mətbuatda geniş əksini tapsa da, faktlar üzrə cinayət işləri açılmayıb. Bununla da "Baku Steel Company" inşaat armaturu və digər metal məhsulların istehsalında tam inhisar yaradıb.

❑ **RÖYA**

# Xaqani Hüseynov vəfat edib

**Azərbaycan Xalq Cəbhəsinin hakimiyyəti illərində Bakı şəhər Nizami rayon İcra Hakimiyyətinin başçısı olan Xaqani Hüseynov Kiyevdə vəfat edib. Yaxınları Xaqani bəyin ürək tutmasından vəfat etdiyini bildirir. Xaqani Hüseynov 10 ildən çoxdur Ukrayna paytaxtında yaşayırdı. Beynəlxalq institutlarla birgə layihələr həyata keçirən X.Hüseynov postsovet məkanı üzrə siyasi analitik kimi tanınırdı. O, Viktor Yuşşenkonun prezidentliyi dönəmində Ukrayna prezidentinin müşaviri vəzifəsində çalışıb.**

X.Hüseynov 2013-cü ildə başlayan Avromaydan hərəkatının dəstəkçilərindən olub.

Milli Strateji Düşüncə Mərkəzinin rəhbəri İsa Qəmbər Xəqani Hüseynovun vəfatı ilə bağlı Facebook sosial şəbəkəsi üzərindən başsağlığı verib:"Azərbaycanımızın ən dərin analitiklərindən biri Xaqani Hüseynov vəfat edib. Mənim üçün də böyük itkidir. Bakıda və Kiyevdə bir çox önəmli məqamlarda birlikdə olmuşuq. Tanrı ruhunu şad eləsin". Ukraynada hüquqi prosedurlar bitəndən sonra Xaqani Hüseynovun nəşi Azərbaycan gətiriləcək. Dəfn mərasiminin yaxın 2 gündə olacağı gözlənilir.

❑ **Aygün MURADXANLI**

# Mövsüm Səmədov cəza kamerasına salınıb

**Hazırda Qobustan qapalı həbsxanasında cəza çəkən Azərbaycan Islam Partiyasının lideri Mövsüm Səmədov cəza kamerasına (kars er) salınıb. Ailə üzvləri M.Səmədovun artıq 6 gündür ki, cəza kamerasına salındığını bildirirlər.**

Vəkil Anar Qasımlı Turan-a bildirib ki, bu gün Qobustan həbsxanasına gedərək Səmədovla görüşməyə cəhd edib.

"Məni görüşə buraxmadılar. Həbsxanada dedilər ki, Səmədov iyunun 25-dək cəza kamerasında olacaq, yalnız iyunun 25-dən sonra görüşə gəlmək olar. Onun cəza kamerasına nə vaxt salınması və hansı səbəbdən salınması barədə mənə məlumat vermədilər", - vəkil qeyd edib.

AIP sədri Mövsüm Səmədov 2011-ci ilin yanvarında hökuməti kəskin tənqidindən sonra həbs edilib. O, hakiimiyyəti zorla ələ keçirməyə cəhd, qanunsu silah saxlama və başqa ağır ittihamlarla 12 il müddətinə azadlıqdan məhrum edilib. 2014-ci ilin payızında M.Səmədov Qobustanda qapalı tipli həbsxanaya köçürülüb.

Vəkil M.Səmədovla görüşünə icazə verilməməsini qanun pozuntusu sayır.

"Bu, tam qanunsuzluqdur. İnsanın cəza kamerasına salınması onun müdafiə hüququnu məhdudlaşdıra bilməz. Əksinə Səmədovun indi müdafiəyə daha çox ehtiyacı var. O, müdafiəçi vasitəsi ilə şikayət verə bilər", - vəkil qeyd edib.

A.Qasımlı M.Səmədovun cəza kamerasına salınması barədə qərarı aldıqdan sonra şikayət verəcəyini bildirib: "Bu gün qərarın surətini almaq üçün yazılı müraciət edəcəm. Qərarı alan kimi şikayət edəcəm. Əslində Səmədov cəza kamerasından çıxandan sonra şikayət vermək də əhəmiyyətini itirir. Bu səbəbdən də qərarın surətini verməyi yubadırlar".

YENİ MÜSAVAT
N 133 (6161) 20 iyun 2015



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# Qərb Azərbaycan hakimiyyətinə niyə uduzur...

**Son illərdə Qərbin Azərbaycan hakimiyyətinə etdiyi təzyiqlər nəticə vermir. Zaman keçdikcə, Qərb dövlətlərinin ölkəmizə olan təsir imkanları da daralır. Xüsusilə bu hal son aylarda siyasi məhbuslar məsələsində daha qabarıq şəkildə özünü büruzə verdi. Qərb siyasilərin azadlığa buraxılmasını tələb etdi, iqtidar direniş göstərdi. Nəticə göz qabağındadır...**

Bu kontekstdən çıxış edərək, Qərbin hazırda siyasətində Azərbaycan hakimiyyətinə uduzduğunu söyləmək mümkündür. Bəlkə də bağlı qapılar arxasında bilmədiyimiz proseslər gedir. Amma insanları nəticə maraqlandırır...

**Politoloq Qabil Hüseynli bildirdi ki, Qərb Azərbaycan hakimiyyətinin dilini tapa bilmir:** "Qərb Azərbaycanla diktə dili, əmredici formada danışır, böyük dövlətçilik ədası ilə davranır. Azərbaycan kiçik dövlət olsa da, hər bir dövlətin özünün qüruru, başçısının şəxsiyyəti var. Belə şeylər şərq xalqlarında çox ehtiyatla qarşılanır. Pis qarşılandığını desək, daha doğru olar. Qərb Azərbaycanla bu kimi məsələlərdə, strategiya və taktikanı düzgün qura bilmədi. Bəyanatlar, nümayəndələrin məsələləri amiranə şəkildə qoymaları siyasi rəhbərliyi qəzəbləndirdi. Belə bir şəraitdə münasibətlərdə gərginlik yarandı. Azərbaycan tərəfi Qərbin siyasi məhbuslarla bağlı mövqeyini qəbul etmədi. Bu məsələnin bir tərəfidir. İkincisi isə Azərbaycan Qərbin Dağlıq Qarabağ münaqişəsi ilə bağlı mövqeyinə uzun müddətdir ki, qəzəblidir. Azərbaycanın ərazi bütövlüyü məsələsi uzun zamandır müdafiə edilmir. Doğrudur, G7-nin son yığıncağında İkinci Dünya müharibəsindən sonra formalaşmış dövlətlərin ərazi bütövlüyü məsələsi vurğulandı. Bu məsələ ön plana çəkildi. Amma bu son zamanlar olub. 10 gün bundan əvvəl baş verib. Azərbaycan Qərbin Qarabağa qarşı olan ikilistandartlı münasibətindən çox qəzəblidir. Xüsusilə bir milyon qaçqının taleyinə biganəlik, bu qaçqınlarla bağlı məsələlərdə humanitar yardımın dayandırılması, onların Avropa Məhkəməsində qaldırdıqları məsələlərə olan münasibət, kəlbəcərli girovlarımızın qondarma məhkəmə ilə birinə ömürlük, digərinə 22 il cəza verilməsi Azərbaycanın əlində Qərbə qarşı çevrilmiş faktlar oldu. Kəlbəcərli girovlarla bağlı məsələ qaldırılanda, Qərbin bu məsələdən xəbərdar olmaması kimi fikirlər səsləndirməsi insanı hövsələdən çıxartmaya bilməz. Belə-belə münasibətlər gərginləşdi".



**Qabil Hüseynli: "Onlar strategiya və taktikanı düzgün qura bilmədilər"**



**İqbal Ağazadə: "2016-cı ilin sonuna qədər bu proseslər belə davam edəcək"**

**Politoloq gərginləşən münasibətlərin həll yollarından da söz açdı:** "Qərb həll yolunu tapmaq üçün ikili standartlardan imtina etməli, Azərbaycanın ərazi bütövlüyü məsələsinə ciddi təminat verməlidir. G7-nin yığıncağında bu məsələ vurğulanır, 22 ildir ölkəmizin ərazi bütövlüyü pozulub, 20% torpağımız işğal altındadır, amma Qərb hələ də Ermənistana bizdən çox humanitar yardım edir. Qərb hələ də qondarma respublikaya yardım göstərir. Xüsusilə Amerika Birləşmiş Ştatları. Çoxlu faktlar çəkmək mümkündür. Qərb ikiüzlü və riyakar formada hərəkət edir".

**Ümid Partiyasının sədri, millət vəkili İqbal Ağazadə hesab edir ki, Qərbin təzyiqlərinin səbəbi Azərbaycanın kimin yanında olmasının müəyyənləşdirilməsi ilə bağlıdır:** "Rusiyanmı, Qərbinmi yanında olacaq? Bu məsələlərdə Qərbin, Rusiyanın və Azərbaycanın maraqları toqquşur. Ortaq məxrəc tapmaq, tərəflərin hər birinin maraqlarını uzlaşdırmaq çətin olur. Nəticədə bu cür problemlər yaranır. Dəyərlər var. Qərb bütün dünya üzərində siyasətini dəyərlər üzərindən yürüdür. Rusiyanın dəyərləri üzərindən yox, sırf öz dəyərləri üzərindən siyasət aparır. Ona görə uzlaşdırmaq çox çətindir. Azərbaycan hakimiyyəti bu dəyərləri uzlaşdıra bilmir. Problemlərin çıxması bu şəraitdə təbiidir. Bu Azərbaycan məsələsi deyil. Ukraynada, Gürcüstanda, postsovet ölkələrində, Yaxın Şərqdə yaşanan hadisələri gördük. Bunların hamısı uzlaşmaların tapılmamasının nəticəsidir. Güman edirəm ki, 2016-cı ilin sonuna qədər bu proseslər belə davam edəcək. Bu müddətdə siyasətin iqtisadiyyatdan asılılığının minimuma endirilməsi prosesi gedəcək. Azərbaycan gedəcək prosesləri nəzərə almalıdır".

**Hüquq müdafiəçisi Mirvari Qəhrəmanlı Qərbin Azərbaycana olan münasibətinin birmənalı qarşılanmadığını bildirdi:** "Azərbaycan müstəqil bir ölkədir. Amma hansısa bir ölkədə insan hüquqları pozulursa, bu yalnız həmin ölkənin problemi deyil. Ölkəmizdə iri neft layihələri həyata keçirilir, beynəlxalq maliyyə institutlarından kreditlər götürülür, ölkəyə sərmayə yatırılır. O cümlədən ARDNŞ başqa ölkələrə sərmayə yatırır. Bütün bunların reallaşmasında insan hüquqları böyük rol oynayır. O ölkəyə maraq daha çox olur ki, orada insan hüquqlarına, qanunlara hörmət olunsun. Ancaq indi bununla əlaqədar beynəlxalq təşkilatların ölkəmizə qarşı apardığı kampanıya birmənalı qarşılanmır. Onu da qeyd etmək istərdim ki, bu təzyiqləri Qərbin təzyiqi və siyasəti adlandırmazdım. Bütün bu aksiyalar ölkəmizdəki Vətəndaş Cəmiyyətinin ağır durumu, onların həbsi və s. ilə əlaqədardır. Onlar öz həmkarlarını müdafiə edirlər. İnsan hüquqlarını müdafiə edərkən, hazırlanan strategiya öz nəticəsini tapmadıqda, zamana, mühitə uyğun yeni siyasət formalaşmalıdır".

❑ Cavanşir ABBASLI

# Emin Hüseynov ailəsi ilə əlaqə saxlayıb

## Hüquq müdafiəçisi müalicə olunmalıdır, yaxınları ona baş çəkmək üçün İsveçrəyə getmək istəyir



Emin Hüseynov

**Vətəndaşlıqdan çıxarılaraq İsveçrəyə yola salınan RATİ sədri Emin Hüseynovun qardaşı, blogger Mehman Hüseynov artıq onunla danışa bilib. Bu barədə M.Hüseynov "Yeni Müsavat"a açıqlamasında məlumat verdi. İsveçrə xarici işlər nazirinin müşayiəti ilə Azərbaycanı tərk edən hüquq müdafiəçisi qardaşı ilə qısamüddətli danışıb: "Cəmi 30 saniyə danışa bildik. Ondan vəziyyətini soruşdum, o da bizimlə maraqlandı və danışıq bitdi".**

Müsahibimiz dedi ki, qardaşından bu gedişi ilə bağlı açıqlama verib-verməyəcəyini soruşub: "10 aylıq fasilədən sonra ilk dəfə idi ki, qardaşımla danışırdım. Amma dedi, hələ açıqlama barədə düşünmür. Bizə gizli nömrədən zəng eləmişdi".

Həmsöhbətimiz ailə olaraq E.Hüseynovu görmək, onun yanına getmək istədiklərini dedi. Amma 4 ildir ki, ölkədən çıxışına qeyri-rəsmi qadağa qoyulduğunu deyən blogger bütün sənədlərinin əlindən alındığını xatırlatdı: "Bunun üçün rəsmi qurumlara müraciət edəcəyəm. Əks halda, mənim onunla görüşüm mümkün olmayacaq. Emin də orda öz tərəfindən müraciət edəcək ki, ailəsi ilə onun görüşünə şərait yaradılsın".

**M.Hüseynov qardaşının səhhətinə görə də nigaran olduqlarını dedi. Onun sözlərinə görə, 2003-cü il hadisələri zamanı jurnalist fəaliyyətini yerinə yetirərkən E.Hüseynov beynindən və bel hissəsindən zədə alıb:** "Həmin ildən etibarən o, hər il mütəmadi olaraq müalicəyə gedirdi. Amma son hadisələrdən sonra bu, mümkün olmadı. Xüsusən də 10 ay səfirlikdə saxlanması onun müalicə imkanlarını minimuma endirdi. Ümid edək ki, bundan sonra müalicəsini aparacaq və hər şey yaxşı olacaq. Daxili işlər nazirinə də müraciət edəcəm ki, sənədlərimin bərpası üçün mənə yardım etsinlər. Onu qısamüddətli də olsa görüb geri qayıtmaq istəyirəm".

**Bu arada hakimiyyət E.Hüseynov məsələsində fərqli və sərt mövqe sərgiləyir. Daha çox deputatlar səviyyəsində hüquq müdafiəçisinin ölkədən getməsi tənqid olunur. Son olaraq Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli APA-ya müsahibəsində E.Hüseynovun gedişinə münasibət bildirib:** "Bu, əslində təsadüf deyildi. Amma burada yadda qalan heç bir hadisə baş verməyib. Bu günlərin yeganə yadda qalan hadisələri və qəhrəmanları Rafael Ağayev, Rəsul Çunayev, Toğrul Əsgərov və digər Azərbaycan idmançılarıdır. Onlar Avropa ictimaiyyətinə həm də azərbaycanlıların əzmkar, cəsur, dövlətinə və vətəninə sədaqət kimi xarakterini nümayiş etdirirlər. Yuxarıda adıçəkilən və Avropa ölkələrindən siyasi sığınacaq istəyən riyakar və xəyanətkarlara isə müqəddəs Azərbaycan torpağında doğrudan da yer yoxdur".

❑ Sevinc TELMANQIZI

# "Müsavatla Milli Şura arasında bərabərlik işarəsini qoymaq insafsızlıq olardı"

## Zahid Oruc: "Müsavatın zəifləməsi AXCP qaragüruhunu, siyasi ekstremizmi gücləndirər"

**"Avropanın bir sıra dövlətlərinin başçılarının Bakı 2015 birinci Avropa Oyunlarının açılış mərasiminə gəlməməsində Müsavat Partiyasının və Milli Şuradan edilən çağırışların rol oynaması barədə iddialar əsassızdır". Bu barədə Milli Məclisin üzvü Zahid Oruc "Yeni Müsavat"a açıqlamasında bildirib. Z.Orucun sözlərinə görə, bunun belə olmasını daxildə istəyən qüvvələr var.**

Xüsusilə də Milli Şura çevrəsindən arzulayırlar ki, Qərb dövlətləri Azərbaycanda istənilən tədbirə qatılıb-qatılmamalarını onların mövqeləri vasitəsilə müəyyənləşdirsinlər. Onları saysınlar, çağırışlarına ciddi önəm versinlər. Lakin reallıq bu arzulardan tamamilə kənaradır: "Hazırkı dövrdə Qərb dövlətlərinin bir qismi ilə Azərbaycan arasında müxtəlif məsələlərə baxışlarda narahatlıqların və ya ittihamedici mövqelərin olmasının səbəbi sırf müxalifət məsələsi ilə bağlı deyil. Avropa Oyunlarına münasibət bizim üçün həm də beynəlxalq əlaqələr, xarici siyasətlər, maraqlar məsələsini müəyyənləşdirməyin yaxşı bir testinə çevrildi. Həm də Qarabağ üçün bu, çox önəmli idi. Azərbaycan insanının qarşısında növbəti dövr üçün yeni bir mənzərə təqdim olundu. Sabah Füzulidə bir kəndi azad etsək ölkəmizə yönəlik siyasi sanksiyalar, təbliğatlar, ittihamedici informasiya kanallarından gələn axınlar nə olacaq? Artıq bu məsələnin diaqnoz nəticələri ortadadır. Yəni əslində bu məsələnin mahiyyəti, kökü Azərbaycanın uğur qazanacağı istənilən məsələyə münasibətdir. Hətta hər hansı bir müxalif məktub gedib ünvanına çatsa da - çünki o məktubların ünvanına gedib çatmasına bizim şübhəmiz var - rol oynasa da doğrudanmı, məsələn, Müsavat və AXCP rəhbərliyi çox məmnundur ki, bu yarışlara Devid Kemeron gəlməyib? Həqiqətənmi bu, onları qane edir və ürəkdən sevindirir? Həqiqətənmi bu, hakimiyyətin vəziyyətinə çox öldürücü zərbə vurur və hakimiyyət uğrunda mübarizədə həmin qüvvələrin yolunu açır? Qətiyyən".



Zahid Oruc

**Deputat vurğuladı ki, bir tərəfdən Azərbaycanda mübarizəyə çıxan idmançıların uğurlarını görüb onların mövqeyindən kiçik də olsa mesajlar verməklə, guya onların tərəfində olduğunu göstərmək, o biri yandan isə bu yarışların üzərinə səlib yürüşləri müşahidə edilir:** "Müsavat Partiyasının bu məsələdə mövqeyi yalnız Avropa Oyunlarına bir neçə gün qalmış kəskinliyə çevrildi. Milli Şura isə hər şeyi qara görməkdə əvvəldən davam edir. Odur ki, Müsavatla Milli Şura arasında bərabərlik işarəsini qoymaq insafsızlıq olardı. Mən bu gün də o mövqedəyəm ki, Müsavat Partiyasının sıradan çıxması AXCP qaragüruhunu, siyasi ekstremizmi gücləndirər.

Düşünürəm ki, Avropa Oyunlarına müxalif münasibət göstərmək çox yanlış idi. Bu hadisə üzərindən daxildə belə cəbhə açılmamalı idi. Qərb dövlətləri sabah yenə də Azərbaycanla münasibətlərini davam edəcək, çünki bu ölkədən bp şirkəti getməyib, digər kampaniyalar çox geniş miqyasda fəaliyyətlərini davam edirlər, Almaniya ilə də iqtisadi münasibətlərin üzərindən xətt çəkilməyib. Daxildəki həmin müxalif qüvvələr də görəcəklər ki, onların müraciətləri, məktubları poçt qutusunda qalıb və sona qədər getməyib"

❑ Etibar SEYİDAĞA

YENİ MÜSAVAT
N 133 (6161) 20 iyun 2015



# Sükutun pozulmasına az qaldı

**Azər RƏŞİDOĞLU**

**Bir azdan sükut pozulacaq. Hələ ki, hamı idman yarışlarını izləyir. Lakin yarımçıq qalmış suallar var. Bunlardan biri də 6 milyard manatın mənimsənilməsidir.**

**Avropa Oyunları "6 milyardlıq kredit" qalmaqalını arxa plana keçirtdi. Lakin hər kəsə bəllidir ki, beynəlxalq yarışmadan sonra "kölgə iqtisadiyyatı"nın başının üstünü "qara buludlar" alacaq. Hakimiyyətin öz şinelindən çıxan sabiq səfir Arif Məmmədov da kəskin bəyanatlar verir və elə bu amil də onu göstərir ki, "kompromat savaşı" daha dərinə gedə bilər. Odur ki, iri məmurlardan kimlərinsə qurban veriləbiləcəyi ehtimalı yaranır.**

**Lakin qarşıdan parlament seçkiləri gəlir və bu amil "qurbanlıq keçi" tapmaq şərtlərini daha da ağırlaşdırır. Vurğulamaq lazım gəlir ki, Qərb mətbuatı konkret simaları hədəf seçir. Nəzərə alsaq ki hər bir ciddi ifşaedici məqamın arxasında siyasi güc mərkəzləri dayanır, onda kimlərinsə "edam kötüyü"nə çıxarıla biləcəyini də ehtimal edə bilərik. Lakin Qərbin hədəfə aldığı siyahılarda elə simaların adı açıqlanır ki, onlardan hesab tələb etmək hazırkı reallıqda möcüzə olardı. Bütün ifşa kampaniyası da bəlkə elə buna hesablanıb. Artıq istər ölkə daxilində, istərsə də beynəlxalq aləmdə belə rəy formalaşıb ki, Azərbaycanda korrupsiyaya qarşı mübarizə barədə deyilənlər imitasiyadan başqa bir şey deyil. Nə qədər ki, ölkədə korrupsiyaya qarşı mübarizədə nəzarət şəffaf deyil və nəzarəti hakimiyyət özü həyata keçirir, bu sahədə nəyəsə nail olmaq inandırıcı görünmür.**

**Korrupsiyaya qarşı mübarizənin qanuni müstəvidə aparılması beynəlxalq təşkilatların rəsmi Bakıdan tələb etdiyi əsas məsələdir. Çıxış yolu sayılan addım - məmurların gəlir deklarasiyalarının göstərilməsinə nail olmaq problemin həllinə yardım edərdi. Bu məsələ ilə bağlı 10 ildən artıqdır qanun olsa da məmurlar deklarasiyalarını hələ də doldurmur. Beynəlxalq təşkilatların təmsilçiləri hesab edir ki, Azərbaycanda korrupsiyanın ifşa edilməsi qanunvericilik səviyyəsində məhdudlaşdırılıb. "Dövlət sirri haqqında" qanuna görə, jurnalistlərə təsərrüfat subyektlərinin sahibləri barədə məlumat toplamaq qadağandır. Yəni korrupsiyanı ifşa etmək jurnalistlərə yasaq edilib. Buna baxmayaraq mətbuat öz araşdırmalarını davam etdirir. Milyonlarla dəyəri olan villalara, otellərə, şirkətlərə sahib olmaq sadə məsələ deyil və korrupsiyanın göstəricisidir.**

**Orta statistik azərbaycanlını düşündürən sual da elə budur. Alınan milyonlarla rüşvətin sonrakı taleyinin və "neft bumunun" gətirdiyi sərvətlərin harada cəmləşdiyi müzakirə mövzusu kimi qalmaqdadır. Əlbəttə, burada cəmiyyətin göstərəcəyi təpkidən də çox şey asılıdır. Cəmiyyət uzun illərdən bəri öz postunda möhkəm oturan məmurlardan hesabat istəmək cəsarətində olacaqsa, korrupsiya piramidasını dağıtmağa vadar etmək mümkün olacaq. İstənilən halda, bizi qızmar yay gözləyir...**

# AXP qurultay keçirəcək

## Pənah Hüseyn: "Növbəti parlament seçkiləri barədə də qurultayın qərarı olacaq"

**Azərbaycan Xalq Partiyası üçüncü qurultayına hazırlaşır. Bu barədə partiyanın sədri Pənah Hüseyn bildirib. Onun sözlərinə görə, nizamnaməyə uyğun olaraq Mərkəzi Şuranın qurultay çağırmaq haqqında qərarı olub. Nizamnaməyə uyğun olaraq seçkili orqanlar yenidən formalaşmalıdır:**

"Bundan əlavə, hələ ötən qurultayda təkliflər verilib ki, nizamnaməyə də əlavə və dəyişikliklər edilsin. Bu, seçkili orqanların səlahiyyət müddəti ilə bağlıdır. Təbii ki, indiki ictimai-siyasi vəziyyət və növbəti parlament seçkiləri barədə də qurultayın qərarı olacaq. Qurultayda iştirakla bağlı qərar veriləcəyi gözlənilir. Konkret olaraq hüquqi addımlar isə seçki kampaniyası başlayandan sonra atılır. Ona görə də böyük ehtimalla yeni seçiləcək Mərkəzi Şuraya və Siyasi Şuraya səlahiyyətlər veriləcək".



**Partiyaya sədrliyə namizədlər məsələsinə gəlincə, P.Hüseyn dedi ki, namizədliyini vermək istəyənlər olacaqsa, alternativli seçkilər keçiriləcək:** "Mənim də sədrliyə namizədliyimin irəli sürülməsi ehtimalı böyükdür".

**AXP sədri qurultayı müxalifət partiyalarından birinin qərargahında keçirməyi düşündüyünü dedi:** "İkinci qurultayı Müsavat Partiyasının qərargahındakı zalda keçirmişdik. Yenə də orada keçirə bilərik. Ola da bilər ki, KXCP-nin və ya ADP-nin qərargahında keçirilsin. Xüsusi olaraq böyük zal nəzərdə tutulmur. Bizim ilkin məlumat belədir ki, müəyyən olunmuş normaya uyğun 100 nəfər qurultay nümayəndəsi seçiləcək. Ona görə də həmin partiyalardan istənilən birinin zalı qurultayı orada keçirməyimizə imkan verir. Qurultayın iyulun sonu, avqustun əvvəli keçirilməsi nəzərdə tutulub".

P.Hüseyn müxalifət partiyalarının qərargahlarında qurultay keçirilməsinə görə həmin partiyaların kirayə haqqı almadıqlarını da söylədi.

❑ **E.SEYİDAĞA**

# Bölgələrdə insanların problemləri bitib-tükənmir

## Nazirlərin rayonlara səfərləri zamanı yerli məmurlar şikayətçilərin problemlərini çatdırmasına imkan vermir

**Son illər nazirlərin bölgələrə səfər etmələri və sakinlərlə görüşmələri ənənə halını alıb. Xüsusilə 2011-ci il Quba və 2013-cü ildə İsmayıllıda baş verən məlum hadisələrdən sonra belə səfərlər daha da intensivləşdi. Bir növ belə səfərləri əyalətlərdə baş qaldıran narazılıqların qarşısını almaq kimi də başa düşmək olar.**

Bütün bunlara baxmayaraq, bölgələrdə insanların problemləri, narazılıqları bitib-tükənmir. Yüksək vəzifəli məmurların səfərləri də problemlərin həllinə kömək etmir. Nazirlərin səfərləri zamanı sakinlərə problemlərini çatdırmağa imkan verilmir. Əvvəlcədən görüşün gedişatı müəyyənləşdirilir. Yerli orqanlar bu işdə daha maraqlı görünür. Çünki problemlərinin qabardılmasını istəmirlər. Sonda əzab çəkən xalq olur.

**Politoloq Natiq Miri hesab edir ki, problem idarəetmədə olan dəyərlər sistemindədir:** "Kadrların təyinatında tamam başqa dəyərlər sistemi ortaya qoyulur. Hakimiyyətə yaxın olan davranışlar sistemi gözə gəlir. Bunlar olduqca, problemlər daim qalacaq. İcra başçılarının əksəriyyəti qeyri-formal dəyərlər sistemi ilə təyinat alıblar. Prezident tərəfindən xəbərdarlıq olunmasına baxmayaraq, heç bir icra başçısı öz şəxsi maraqlarından kənarda fəaliyyət göstərmir. Xalq, dövlət maraqları öndə deyil. Belə kadrların seçilməsində institutlaşmış dəyərlər sistemi əsas götürülsə, layiqli şəxslər bu postlara təyin olunsa, qarşılarında qanunlar olsa, problemlər azalar. İcra başçıları bir-birilərini əvəz edirlər, amma problemlər tükənmir. Mahiyyət dəyişmir. Çünki yerdəyişmələrdə iştirak edən məmurlar korrupsiya sisteminin məhsullarıdır. Bütün rayonlarda idarəetmə sistemi eynidir. Fərqli sistem mövcud deyil. Heç bir sivil ölkədə belə sistem yoxdur. Strukturlar nazirlərə həvalə edilir. Heç bir ədalət yoxdur. Seçimlərin özündə ciddi yanlışlıqlar var".



**Nurəddin Rüstəmli:**
"Şikayəti olan vətəndaş nazirə yaxınlaşa bilmir"



**Xasay Səfəroğlu:**
"Əvvəlcədən razılaşdırılmış şəxslərin görüşü təşkil olunur"

**Politoloq problemlərin həlli yollarından da danışdı:** "Problemlərin həlli dəyərlər sisteminin dəyişməsindən keçir. Təyinatlar sadiqlik prinsipi ilə deyil, peşəkarlıq, əxlaqla götürülməlidir. Həmin şəxsin keçmişini unutmaq olmaz. Fəaliyyətinə dövlət tərəfindən ciddi nəzarət olmalıdır. Bizdə isə əksidir. İcra başçıları hakimiyyətin içərisində olan şəbəkələrə aiddir. Nəticədə icra başçıları aid olduqları şəbəkələrin maraqlarını güdməyə məcbur olurlar. İcra başçıları rayonlarda villalar, biznes strukturları yaratmaqla məşğul olurlar. Bunun müqabilində ciblərini doldururlar. Nazirlər guya şikayətçiləri qəbul edirlər. Amma göründüyü kimi, günü-gündən şikayətlər artır. Prezident Aparatına regionlardan gələn şikayət əriзələri bombardumanı var. Xalq narazı qalmaqda davam edəcək. Demokratiya və insan haqları ölkədə bərqərar olmalı, demokratik institutlar yaradılmalı, ictimai nəzarət gücləndirilməlidir. Bu barədə prezident son çıxışlarında da bildirdi. Amma sıxışdırmalarla ictimai nəzarəti gücləndirmək mümkün deyil. Yerlərdə idarəetmə güclü olduqda, bunlar mümkün olur. İndiki şəraitdə bu mümkünsüzdür".

**Müsavatın Mingəçevir təşkilatının sədri Nurəddin Rüstəmli nazirlərin dəfələrlə yaşadığı bölgəyə etdikləri səfərlərin nəticəsiz qaldığını bildirdi:** "Əvvəlcədən elan edirlər ki, nazir vətəndaşlarla görüşəcək. Xüsusi seçilmiş şəxslər nazirlə görüşə buraxılır. Problemi olanlar kənarda qalırlar. Hətta çıxış edəcək insanlar da əvvəldən müəyyən edilir. Görüş keçirilən ərazi isə xüsusi mühafizə olunur. Şikayəti olan vətəndaş nazirə yaxınlaşa bilmir. Bunlar görüntü xarakteri daşıyır. Qapalı zalda görüş keçirilməsi çox şeyi sübut edir. Çalışırlar ki, icra başçılarına tənqid olmasın".

**Müsavatın Masallı təşkilatının sədri Xasay Səfəroğlu da nazirlərin səfərinin görüntü xarakteri daşıdığını söylədi:** "Dünyanın heç bir normal ölkəsində belə idarəçilik sistemi olmur. Hansısa nazir düşüb əyalətlərdə guya vətəndaşların problemləri ilə maraqlanır. O zaman sual olunur ki, həmin nazirliyin yerli strukturları nədən ötrüdür? Necə olub ki, bu struktur adi problemləri həll etmək iqtidarında deyil. Anlaşılan odur ki, yerli struktur problemi həll edə bilmir, nazir müdaxilə edir. Əlbəttə, bunlar gözdən pərdə asmaq üçündür. Yalnız xüsusi vəziyyətlər istisna olmaqla, nazirlərin , komitə sədrlərinin, baş prokurorun rayonlarda vətəndaşlara xidmət göstərirmiş kimi nümayiş etdirilməsində məqsəd sadəcə görüntü yaratmaqdır. Bu mənzərə zaman-zaman Masallıda da baş verir. Lakin elan etdikləri kimi, vətəndaş heç razı da qalmır. Çünki bir çox hallarda əvvəlcədən razılaşdırılmış şəxslərin görüşü təşkil olunur, ictimai rəyə görüntü xətrinə kadrlar göstərilir. Dəfələrlə bu tip görüşlərdə şikayətə gəlmiş vətəndaşa qarşı basqı, təzyiq, hətta polis tərəfindən döyülmə halları baş verib. Fikrimcə, nazirlərin gedib rayonlarda vətəndaşa kömək göstərməsi problemlərin həlli deyil və effektli üsul ola bilməz. Problemlər yalnız qanunun aliliyi və normal vətəndaş-dövlət münasibətləri müstəvisində həll oluna bilər".

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 133 (6161) 20 iyun 2015

**Macarıstanda fəaliyyət göstərən "Qardaşlıq" Macar-Azəri Birgə Cəmiyyətinin sədri Ramiz Əmirli qardaşının qarşılaşdığı mülkiyyət problemi ilə bağlı prezident İlham Əliyevə müraciət edib.**





# Macarıstan-Azərbaycan cəmiyyətinin sədri Azərbaycan prezidentinə müraciət etdi

## Ramiz Əmirli Ali Məhkəmədən şikayətçidir: "Haqq-ədalət mənim qardaşım tərəfdə olmasa, heç zaman mən bu iş üçün Sizə müraciət etməzdim"

Müraciətini qəzetimizə də yollayan müəllif yazır ki, qardaşı 2500-dən çox şəxsin inamından istifadə edərək mülkiyyətini əlindən alan Şölə Gülmalıyevanın qanunsuz əməllərinin qurbanı olub. Şölə Gülmalıyeva 9 il azadlıqdan məhrum edilsə də, qardaşı Ramiz Əmirov mülkiyyət hüquqlarını bərpa edə bilmir. Aşağı məhkəmə instansiyalarının iddiaçıların xeyrinə çıxardığı qərarlar hansısa "sehrli əl"in köməyi ilə Ali Məhkəmədə ləğv edilib. Müraciəti qısa ixtisarla təqdim edirik:

**Cənab Prezident!**

Mən, Əmirli Ramiz 30 ildir ki, Macarıstan Respublikasında yaşayıram. Bu illər ərzində bütün qüvvəmlə xalqıma, vətənimə təmənnasiz xidmət etmişəm. 1994-cü ildə keçirilən "Budapeşt sammiti" zamanı və 1996-cı ildə "Buxarest sammiti" zamani Buxarest şəhərində macar dostlarımla bərabər mərhum prezident Heydər Əliyevlə çoxsaylı görüşlərim olub. Aramızda çox səmimi münasibət yaranıb. Bu haqda Sizə 2014- cü ilin may ayında Bakı şəhərində görüşümüz zamanı qısaca məlumat vermək imkanım olmuşdu. Eləcə də Macarıstanda Azərbaycan lobbimizin fəaliyyəti və gələcəkdə görüləsi işlərimiz haqda Sizinlə danışmışdıq.

**Cənab Prezident!**

Mənim doğma qardaşım Əmirov Rəhman və onun şəriki Quliyev Malik Azərbaycanda məhkəmə haqsızlığı ilə üzləşiblər. Belə ki, 2500 nəfərdən çox insanların inamından sui-istifadə edərək, onları aldadıb şəxsi mülklərini ələ keçirən Şölə Gülmalıyeva və Canbulat Topçuyev qardaşımın şəxsi mülkiyyətində olan obyekti ələ keçirib. Bu haqda Korrupsiyaya Qarşı Mübarizə İdarəsində uzun müddət istintaq aparıldıqdan sonra işə baxılması üçün Bakı Ağır Cinayətlər Məhkəməsinə göndərilib. Orada hakim Azər Orucovun sədrliyi ilə məhkəmə kollegiyası işə baxıb və qardaşımın, onun şərikinin xeyrinə qərar çıxarıb, mülklərini özlərinə qaytarıb. Şölə Gülmalıyeva isə 9 il azadlıqdan məhrum edilib. Amma Şölə Gülmalıyevanın saxta yolla qardaşımın mülkünü satdığı Campulat Topçuyev hələ də azadlıqdadır və qarşı tərəf kimi bu işdən Apelyasiya Məhkəməsinə kasasiya şikayəti də verib. Bakı Apelyasiya Məhkəməsi yenidən qardaşımın xeyrinə qərar çıxararaq Bakı Ağır Cinayətlər Məhkəməsinin qərarını qüvvədə saxlayıb. Haqq yenidən bərpa olunub.

**Cənab Prezident!**

Qarşı tərəf olan Canbulat Topçuyev hansı müəmmalı yollasa imkan tapıb Ali Məhkəmənin kollegiya iclasında qərar qəbul etdirməyi bacarıb və işi yenidən baxılmaq üçün Bakı Apelyasiya Məhkəməsinə göndərtməyə nail olub. İyun ayının 22-də Bakı Apelyasiya Məhkəməsində işə yenidən baxılacaq. Bakıya gələrək işə yenidən baxan Bakı Apelyasiya Məhkəməsinin hakimi Vaqif Mursaqulovla görüşdüm. O, məni çox səmimi qəbul etdi və bildirdi ki, qərarın qüvvədə saxlanılması üçün mütləq Ali Məhkəməyə müraciət etməliyəm, başqa cür həlli mümkün deyil. Çünki işi onlar geri göndəriblər. Çox təəccübləndim. Amma buna baxmayaraq, mən mayın 27-də Ali Məhkəmənin sədri Ramiz Rzayevə yazılı müraciət etdim. Tez bir zamanda da Ali Məhkəmədən müraciətin qəbul olunması, işə baxılacağı haqqında məktub aldım. Bu, mənim üçün çox sevindirici oldu. Fikirləşdim ki, Ali Məhkəməyə yazdığım müraciət və vətən yolunda etdiyim bütün xidmətlərim yəqin ki nəzərə alınacaq, haqq-ədalət yerini tapacaq. Amma Bakı Apelyasiya Məhkəməsinin hakimi Vaqif Mursaqulov məndən ikinci xahişini etdi, dedi ki, indi mütləq Bakı Apelyasiya Məhkəməsinin sədri İman Nağıyevdən xahiş etməlisən ki, mən bu işdə öncəki məhkəmələrin verdiyi qərarları yenidən qüvvədə saxlaya bilim. Başqa cür imkanım yoxdur. Dedi ki, məni anlayın, bilirəm ki, haqq-ədalət sizin qardaşınız tərəfindədir, amma iş mənim imkanım çərçivəsində deyil.



**"Ramiz Əmirli Azərbaycanın Milli Qəhrəmanı Ramil Səfərovun Macarıstanda həbsxanada olduğu və oradan azadolunma sürəcində yaxından iştirak etmiş, bir sıra fraqmentlərdə mühüm rol oynamış adsız qəhrəmanlardandır. Belə bir soydaşımızın ölkəsinə, buradakı ədalətə küsməsini heç istəməzdik. Ümid edirik ki, hörmətli prezident İlham Əliyev bu məsələni araşdırıb, ədalətin bərpasını təmin edəcəkdir"**

Düz 2500 nəfərdən çox insanı aldadıb onların ailələrini çıxılmaz hala salan, hədsiz maddi-mənəvi ziyan vuran Şölə Gülmalıyeva kimi onun əlbir olduğu Canpulad Topçuyev də dələduzluqda suçlanmalıdır. Amma bu adam heç məhkəməni, hakimi saya salıb məhkəməyə gəlmir. Belə dələduzluqla məşğul olan birisinin hansı yollasa Ali Məhkəmədə kollegiya iclası təşkil etdirə bilməsi, işin yenidən baxılması üçün geri qaytarılmasına nail olması xeyli müəmmalı suallar yaradır.

**Cənab Prezident!**

Çox acınacaqlı bir vəziyyət alınır! Deməyə və yazmağa söz tapa bilmirəm. Mənim Bakıya gəlib indi də Apelyasiya Məhkəməsi sədrinin qəbuluna düşməyə nə zamanım, nə də imkanım var. Axı necə ola bilər ki, qardaşımın inamından sui-istifadə edilərək, əlindən alınan mülkü məhkəmə qərarı ilə geri qaytarılır, ancaq yuxarı instansiya bu ədalətli qərarı ləğv edir? Bunu anlamaq çox çətindir.

Mən inanmaq istərdim ki, Bakı Apelyasiya Məhkəməsinin hakimi Vaqif Mursaqulov, sədr İman Nağıyev işə baxarkən ədalət prinsipinə əsaslanacaqlar. Mən buna ümidimi itirməmişəm. Axı başqa cür necə ola bilər? Azərbaycan dövləti adından necə ədalətsiz qərar verilə bilər? Elə bu yaxınlarda Ali Məhkəmənin sədri Ramiz Rzayev cənabları vətəndaşların şəxsi mülkiyyətlərinin qorunması haqqında kollegiya iclası keçirib bu haqda ətraflı danışaraq, özünün lazımi göstərişlərini verib.

Mən vətənimi və xalqımı sevən insanam. Tanıyanlar bunu bilir. Bu sevgini belə hadisələr heç zaman nə azalda, nə də məni vətəndən incik sala bilər".

**Ramiz Əmirlinin müraciəti aşağıdakı sözlərlə bitir:**

**Cənab Prezidentim!**

Mən Sizin apardığınız xarici və daxili siyasətinizi həmişə dəstəkləmişəm. Həmişə də dəstəkləyəcəm. Tam səmimi deyirəm, haqq-ədalət mənim qardaşım tərəfdə olmasa, heç zaman mən bu iş üçün Sizə müraciət etməzdim. Haqsızlığa dözmək olmur. Çox inanıram ki, müraciətim haqqın bərpa olunmasında böyük rol oynayacaq! Avropada vətənimiz və xalqımız üçün qulluq etməkdən qürur duymuşam və duyacağam da!

Tanri Sizi və bütün millətimizi qorusun!

Dərin hörmət və ehtiramla,
"Qardaşlıq" Macar- Azəri Birgə Cəmiyyətinin sədri
Ramiz Əmirli.
18 İyun 2015-ci il, Macarıstan, Budapeşt səhəri".

Qeyd edək ki, Ramiz Əmirli may ayında Bakıda olarkən qəzetimizə gəlmiş və bu məsələyə dair müraciətini qəzetimizdə dərc etdirmişdi . Aşağıdakı sılkada mövzunu daha dərindən öyrənmək üçün xeyli vəsait vardır:

http://musavat.com/news/musahibe/macaristan-diaspor-sedri-ali-mehkemenin-sedri-ramiz-rzayeve-muraciet-etdi_265681.html?welcome=1

**Redaksiyanın qeydi:** Bizim ölkə məhkəmələrindən şikayətçi olan bir soydaşımızın problemini iki dəfə və bu cür həssaslıqla işıqlandırmamızın bir mühüm səbəbi daha var. Ramiz Əmirli Azərbaycanın Milli Qəhrəmanı Ramil Səfərovun Macarıstanda həbsxanada olduğu və oradan azadolunma sürəcində yaxından iştirak etmiş, bir sıra fraqmentlərdə mühüm rol oynamış adsız qəhrəmanlardandır. Belə bir soydaşımızın ölkəsinə, buradakı ədalətə küsməsini heç istəməzdik. Ümid edirik ki, hörmətli prezident İlham Əliyev bu məsələni araşdırıb, ədalətin bərpasını təmin edəcəkdir.

❑ **Xəbər xidməti**

# Keçmişinizi unutmayın, yadınıza salarıq!



**Zahid SƏFƏROĞLU**
zsafaroglu@gmail.com

## Çağdaş siyasi buqələmunlar haqda bir daha...

**Qarğa-quzğun kimi üstümüzə gəlməkdə davam edirlər. Adama ən çox yer edən isə dünənədək hakimiyyətin qucağında olanların, onu mədh edənlərin, ölkədə siyasi satqınçılığın parlaq örnəklərini yaradanların haray-həşiridir. Belələrinin ən böyük qüsuru öz yaxın keçmişlərindəki ayıblara kor olmaq, susmaq əvəzinə bizə əxlaq dərsi keçmək istəyidir, şüşəli otaqdan "Yeni Müsavat"a daş atmalarıdır.**

Birini dünən təbərrük üçün ifşa elədik. Hazırda MŞ-nin brendlərindən sayılan, cəmi 5-6 il öncəyədək isə ən bərkgedən iqtidar qırğılarından olmuş xanım şurəvinin çıxışı haqda kiçicik video virtual məkanda bomba kimi partladı... "Yeni Müsavat"ı hakimiyyətə işləməkdə suçlayan bu qadın həmin videoda iqtidar başçısına elə təriflər yağdırır, müxalifəti elə aşağılayır ki, sanarsan hakim qüvvə ilə əbədiyyən ət-dırnaq kimidir və dünyada heç bir güc onları ayıra bilməz.

Amma ayırdı. Di gəl, belə əttökən çıxışlarına görə zərrəcə tövbə etməyən, utanc hissi keçirməyən "siyasətçi" xanım da bizim üçün indi əxlaq etalonu olub, "ana müxalifət" libası geyib, ağıl öyrədir. Halbuki adam, sadəcə olaraq, hakimiyyətdən növbəti dəfə deputat mandatı ala bilmədiyi üçün dönüb olub radikal müxalifətçi və dərhal da "arayış üçün", "krışa" qazanmaq üçün Əli Kərimlinin yanına qaçıb.

Doğrudan da su-çuxur məsələsi. Çünki AXCP sədrinin də, elə şurəvilərin hazırkı layiqli rəhbəri Cəmil Həsənlinin də yaxın keçmişi onunkunun bənzəridir. Sonuncunun deputat ikən keçmiş təhsil naziri Misir Mərdanovu, daha dəqiqi, korrupsiyanı necə müdafiə eləməsi haqda videonu da yəqin ki, ziyarətçilər izləyib. Biz hələ onun vəzifə, maddi maraq naminə iqtidara yarınmaq üçün yazdığı kitabları demirik. Durub indi o kitabları da dərcmi edək, yoxsa onlardan imtina olunub?!

Əlahəzrət fakt pis şeydi, nə edəsən... Fəqət, baxırsan və şoka düşürsən, mübarək Ramazan ayında tövbə eləməmək azmış kimi, yalanın, böhtanın, iftiranın dozasını daha da çoxaldıblar. Görəsən, bizi "hakimiyyətə gizli və açıq şəkildə işləyən media" adlandıranlar bu rəzalətə necə dözür, siyasi buqələmunlarla necə bir yerdə ola bilirlər? Ən əsası, onlar əmindirlərmi ki, dünən dediyini bu gün 180 dərəcə dəyişənlər sabah da bu gün söylədiyinin əksini izhar etməyəcək, yedikləri təzə qazana da tüpürməyəcəklər?!

Ən qorxulusu da öz əqidəsini paltar kimi mövsümə uyğun əvəzləyənlərdir. Amma öz aramızdır, siz İsa Qəmbərin, Pənah Hüseynin, Arif Hacılının, Rauf Arifoğlunun siyasi keçmişində belə əcaib buqələmunluq nümunələrini tapıb ortaya qoya bilməzsiniz. Çünki yoxdur. Çünki bu insanlar 20-25 il öncə hansı əqidənin daşıyıcısı idilərsə, hansı yolda idilərsə, indi də o yoldadırlar. Bir azca taktika dəyişə bilər, - zira yalnız ölülər mövqeyini dəyişmir - strateji hədəflər isə yerində qalır.

Bəs siz özünüz hansı yoldasınız və xalqa nə vəd edirsiniz? Hər halda, "Yeni Müsavat"ın, onun fədakar kollektivinin xalqa xidməti, illərdir verdiyi keyfiyyətli məhsul ortada. Bu gün ictimai rəyə ən güclü təsiri MŞ, AXCP deyil, məhz 30-40 nəfərlik bir qəzet göstərirsə, yüz minlərlə oxucu sanballı, etibarlı və ciddi sözü, həqiqəti ən əvvəl "Yeni Müsavat"da, onun elektron versiyalarında axtarırsa, günahı ayrı yerdə arayın.

Və arada güzgüdə də özünüzə bir baxın, evinə halal çörək aparanlara şər atıb da, mübarək ayda ikiqat günah yiyəsi olmayın...

***

Söz yox, bizə o ittihamlar da gəlir ki, zamanında bunları bilə-bilə nədən gerçəyi yazmamışıq. Haqlı iradlardır. Ancaq insanın xislətini nə biləsən. Biz rentgen aparatı deyilik axı. Nə biləsən ki, sənə dost-müttəfiq, qardaş deyən şəxs, "siyasətçi" əlində "Yeni Müsavat" qəzetinə bükülü lom gəzdirir və fürsət tapan kimi səni namərdcəsinə, arxadan vurmaq haqda düşünür.

Etiraf edim ki, sonuncu prezident seçkilərində Cəmil Həsənliyə mən də dəstək köşələri yazmışam - bəzi dostlar o vaxt bunu təqdir etməsə də. Məşhədi İbadın sözü olmasın, bizim tək günahımız varsa, o da əslində elə budur - sadəlövhlüyümüz, səmimiliyimiz, təmənnasız yaxşılıqlar eləmək xüsusiyyətimiz.

İstənilən halda, gərək bundan belə daha diqqətli olaq, aldanmayaq. Çünki qaranlıqda işıq kimi görünənlər canavar gözləri də ola bilər. Odur ki, müqəddəs ayda bir tövbə də bizə düşür, başa düşürük...

O ki qaldı MŞ-dəki "əxlaq" metrlərinə, onlara hələlik bunu deyirik: keçmişinizi unutmayın, yoxsa yadınıza salarıq!

YENİ MÜSAVAT
N 133 (6161) 20 iyun 2015



# Sərt sualların tərs cavabları

Xalid KAZIMLI

**"Azadlıq" qəzetinin dünənki sayında Akif adlı müəllif mənə bir neçə ittiham və 5-6 sual ünvanlayıb. Belə görünür ki, müəllif öz yazdıqlarına dərindən inanır və öz suallarını çox sərt və tutarlı hesab edir. Elə bilir ki, bunlara cavab vermək mümkün deyil. Yanlış düşüncədir.**

Yazının içindən arıtlayıb çıxardığım suallar aşağıdakı kimidir:

1. Xalid Kazımlı İlham Əliyev haqqında nə öyrənib?

2. Bu illər ərzində nə baş verdi ki, İlham Əliyevə qarşı da mövqeyiniz dəyişdi? .... Cəmil Həsənli və İlham Əliyevə qarşı münasibətin 360 dərəcə dəyişməsi olduqca maraqlı mənzərədi.

3. "Bizim Cəmil müəllim" yazısına görə peşman olan müəllif, "Bizim İlham müəllim"ə keçidin ağlabatan izahını verə bilərmi?

4. Maraqlıdır, Cəmil Həsənlinin dəyişdiyini müşahidə edən yazar, çalışdığı qəzetin 360 dərəcə dəyişdiyini niyə müşahidə edə bilmir?

5. Görəsən, dostları Xalid Kazımlıya Cəmil Həsənli haqqında nə deyib?

Yuxarıdakı suallara verdiyim lakonik və tərs cavablar aşağıdakı kimidir:

Xalid Kazımlı bu ölkənin vətəndaşı olaraq ölkəyə rəhbərlik edən İlham Əliyev barədə bu məmləkət əhlinin bildiyi çox şeyi bilir - ölkəni necə idarə etdiyini də, idarəetmədə hansı prinsiplərə üstünlük verdiyini də, hətta artıq şəxsi xarakter cizgilərini də.

Bu illər ərzində çox şey baş verdi və İlham Əliyevə qarşı mövqeyimizdə çox da fundamental dəyişiklik baş vermədi. Bu saat da müəllif hesab edir ki, İlham Əliyevin yerində İsa Qəmbər prezident olsaydı, daha yaxşı olardı. Ancaq 2014-cü ildə və bu ilin 6 ayı ərzində baş verənlər göstərdi ki, Cəmil Həsənlinin prezident olması ölkədə haqq-ədalətin bərqərarına yardımçı olmayacaqmış. Bircə səbəbdən. Adam özü ədalətli deyil, üstəlik, intriqandır. İsa Qəmbər kimi xalq hərəkatının üç liderindən biri, vaxtilə prezidentin səlahiyyətlərini icra etmiş, parlament sədri olmuş ağır bir adam durub bunların rəyasətdə olduğu mitinqə gedir, aşağıda, ön sırada dayanır, dəstək verir, mitinqin sanbalını artırır, prezident olmaq istəyən adam küsəyən yeniyetmə kimi kənara baxır, tribunadan onu salamlamağı bir yana dursun, özünü görməzliyə vurur. Belə adam prezident ola bilərmi? Olsa da, faydalı olarmı? 2002-ci ilin 14 iyulunda Heydər Əliyev kimi bir əjdaha Fransa səfirliyində özü İsa Qəmbər və Etibar Məmmədova yaxınlaşmış, aradakı inciklikləre baxmayaraq, bir neçə kəlmə mükalimə etmişdi və tərəflərdən heç birinin xəncərinin qaşı düşməmişdi.

"Bizim Cəmil müəllim" başlıqlı yazısına görə yox, yazıda Cəmil Həsənlini nahaq yerə müdafiə və təbliğ edən müəllif "Bizim İlham müəllim" yazısını nə vaxt yazdı ki? Nə belə bir yazı var, nə də belə bir sətir. Nə mənim İlham Əliyev barədə mədhiyyə yazmağa ehtiyacım var, nə də İlham Əliyev mənim imzamla yazılan difirambalara ehtiyac duyur. Onun o cür şeyləri yazanı çoxdur.

Söhbət Cəmil Həsənlinin dəyişməsindən getmir, olduğu kimi tanınmasından, xarakterinin tam bəlli olmasından gedir. Əksinə, bu illər ərzində o xaraktercə dəyişməyib, necə vardısa, elə qalıb, sadəcə, komanda, düşərgə dəyişib. Mən isə fəal siyasi arenada olduğum müddətdə cəmi bir partiyanın üzvü olmuşam, artıq 23-cü ildir. Özümə siyasi lider olaraq lap əvvəldən Elçibəyi, İsa Qəmbəri və Tofiq Qasımovu bilmişəm, onlara görə də heç vaxt peşmanlıq duymamışam.

Çalışdığım qəzetin kursunun 360 dərəcə yox, təxminən 90 dərəcə dəyişməsinin fərqindəyəm. Bunu alqışlayıram, bu dəyişmənin təşəbbüskarlarından biriyəm və hesab edirəm ki, bir media qurumu partiya qəzeti (ruporu) olmaqdan imtina edərək, öz missiyasını daşımalıdır, öz üzərinə həyata keçirə bilməyəcəyi funksiyalar götürməməlidir, mərkəzdə durmalıdır, obyektiv, operativ olmalıdır, öz başını saxlamalıdır, bacardığı qədər insanlara yardımçı olmalıdır, bacarmayanda özünü yandırmamalıdır, batacağını bilə-bilə gedib aysberqə çırpılmamalıdır.

Dostları Xalid Kazımlıya deyiblər ki, Cəmil Həsənli sənin düşündüyün qədər də kristal, saf, dürüst, obyektiv siyasətçi deyil. Deyiblər, yaxşı alimdir, savadlıdır, müəllimliyinə söz yoxdur, amma o da pul saymağı, hesablamağı, vurub, bölüb, çıxmağı sevir və bu kimi əməliyyatları çox edib. Bax, bu, prinsipial məsələdir. Burada onun personası Elçibəy və İsa Qəmbərdən fərqlənir. Prezident olmaq istəyən şəxslərin əlindən seçki kampaniyalarında milyonlar gəlib-keçə bilər, amma əgər onlar oturub pul saysalar, üstündən götürüb ciblərinə qoysalar, ən yaxşı halda korrupsioner və avtoritar lider olacaqlar.

Bir də yazıda belə bir xatırlatma var:

"Fürsətdən istifadə edib biz də Xalid Kazımlıya Əliyevin Londondakı villasını, hakim ailənin nəzarətində olan bankları, Vircin adasındakı 48 milyardı xatırlatmaq istəyirik".

Bu da anlaşılmaz mülahizədir. İlham Əliyevin varidatına görə mən niyə cavab verməliyəm? Vəkiliyəm, müşaviriyəm, ya sözçüsüyəm? Belə bir mandat başqalarındadır, qoy o iddialara da cavabı YAP funksionerləri versinlər.

Son 20 ildə bu ölkədə tüğyan edən korrupsiyadan yazdığım yazıları, hər halda, heç bir müəllif və heç bir qəzet yazmayıb. Eyni şeyləri tutuquşu kimi təkrarlamağın da heç bir faydası yoxdur. Hamı hər şeyi bilir.

Son sözüm budur ki, heç kəs nə bizi zorla İlham Əliyevin vəkilinə, tərəfdarına çevirməsin, nə də şantajla ona qarşı "radikal müxalif" olmağa yönəltməsin. Loru dildə desək, tırkaya gedən vaxtımız deyil.

Hamı bilməlidir ki, aşa bilməyəcəyi 5 metrlik divara təkrar-təkrar kəllə vurmasının xeyri yoxdur, ya bir az kənardan dolanıb gəlməlidir, ya da uzun bir nərdivan düzəltməlidir. Siyasət deyilən andırın qaydası budur.

Qoy hər kəs öz düzgün bildiyi yolda irəliləsin. Görək kim qanqallığa çıxacaq, kim gülüstana.

# Qaz müharibəsi daha sərt mərhələyə adlayır




**Türkiyədə 7 iyun parlament seçkilərindən sonra yeni hökumətin qurulması ilə bağlı ortaya çıxan qeyri-müəyyənliyin "Türk axını" layihəsinə əngəl yaratdığı haqda yazmışdıq. Qeyd eləmişdik ki, yeni və dayanıqlı hökumətin formalaşması ləngidikcə bu yöndə qətilik və müəyyənliyin yaranması da uzanır. Məhz o üzdən də Türkiyənin energetika naziri Taner Yıldızın Rusiyaya srağagün nəzərdə tutulan səfərini qəfil ləğv etməsinə diqqət yönəldilmişdi.**

Yada salaq ki, Yıldız BOTAŞ-ın icraçı direktorunun səlahiyyətlərini icra edən Mehmet Konukun müşayiəti ilə Rusiyaya səfər edərək, Sankt-Peterburqda işə başlamış Beynəlxalq İqtisadi Forum çərçivəsində bu ölkənin energetika naziri Aleksandr Novak və "Qazprom" rəhbəri Aleksey Millerlə danışıqlar aparmalı, "Türk axını" qaz kəməri layihəsinə (əvvəlki adı "Cənub axını") dair konkret ikitərəfli yazılı anlaşmanın detallarını müzakirə etməli idilər.

Çünki Rusiya TANAP və TAP-ın bu kəmərə rəqib olduğunu ciddiyə alır və ona görə də tələsir. Eyni zamanda Moskva ABŞ və Avropa Birliyinin bu kəmərə neqativ münasibətdə olduğun və hər iki kəmər üçün ortaq tranzit rolunda olan ölkələrə *(Yunanıstan, Makedoniya)* güclü təzyiq etdiyinin də fərqindədir. Məlumdur ki, Vaşinqton və Brüssel Yunanıstan və Balkan ölkələrini Cənub Qaz Dəhlizinin bir hissəsi olan TAP-a dəstək verməyə çağırır.

Bütün bunlardan dolayı rusiyalı nazir srağagünkü açıqlamasında bir daha bəyan etmişdi ki, Rusiya və Türkiyə tikinti ilə bağlı hüquqi sənədləri iyunun sonunadək hazırlamalıdır. Sitat: **"İyunun sonunadək biz qaz kəmərinin Qara dəniz hissəsində tikinti üçün icazə almalıyıq. Bu, əvvəllər "Cənub axını"na verilən razılıq üzərində qurulmalıdır. Bundan başqa, Türkiyənin ərazi sularında axtarış işləri üçün də razılığın alınması önəmlidir".**

*****

# TANAP və TAP-a yeni təhlükə - Putinin şok gedişi

## Rusiya yunanları ələ ala bildi - "Türk axını" memorandumu imzalandı; Qərbin reaksiyası necə olacaq, Vaşinqton və Brüssel "Transxəzər" qaz kəməri üçün həlledici həmləyə qərar verəcəkmi?

Dünən isə bəlli olub ki, Sankt-Peterburqda keçirilən Beynəlxalq iqtisadi forum çərçivəsində Rusiya ilə Yunanıstan arasında "Türk axını" qaz kəməri layihəsinə dair anlaşma memorandumu imzalanıb *(virtialaz.org).* Rusiya KİV-ləri xəbər verir ki, sənədi Rusiya tərəfdən Aleksandr Novak və onun yunan həmkarı Panayiotis Lafazanis imzalayıblar. Bu, "Türk axını" layihəsinə dair imzalanan ilk rəsmi sənəd hesab olunur.

Novak bildirib ki, Yunanıstana qədər uzanacaq kəmərin illik gücü 47 milyard kub metr olacaq. Onun sözlərinə görə, layihənin inşası üzrə Yunanıstana lazım olacaq vəsaitin hamısını Rusiya kredit şəklində ona ayıracaq. Yunanıstanın energetika naziri Lafazanis isə bəyan edib ki, müqavilə Avropa İttifaqına qarşı yönəlməyib.

Rusiyanın energetika naziri bir gün əvvəl demişdi ki, baza variantı kimi kəmərin Yunanıstan, Makedoniya, Serbiya və Macarıstandan keçməsi planlaşdırılır. Daha sonra kəmərlə nəql olunacaq Rusiya qazı Avstriyanın Baumqarten regionunda paylanma məntəqəsinə daxil olacaq. Bununla belə Novak kəmərin tikintisinin Avropa İttifaqının mövqeyindən asılı olacağını da vurğulayıb.

*****

Xatırladaq ki, "Türk axını" marşrutunun bir hissəsi Azərbaycan qazının Avropaya nəqli üçün nəzərdə tutulan Cənub Qaz Dəhlizini təkrarlayır. Kəmər Türkiyənin Yunanıstanla sərhədinə TANAP kəməri ilə eyni məntəqədə çıxmalıdır. Azərbaycan qazının nəqli üçün seçilən TAP kəməri layihəsinin əsas tranzit ölkəsi olan Yunanıstan son zamanlar bu layihəyə əngəllər yaratmağa, Azərbaycanla əldə edilmiş energetika razılaşmalarına yenidən baxmaq barədə xəbərdarlıqlar etməyə başlayıb. Eyni vaxtda yunan solçu hökuməti Rusiya prezidenti Vladimir Putinlə sıx təmasa keçib.

Putin Yunanıstanı "Türk axını" layihəsinə qoşmaq üçün Afinaya maliyyə yardımı, habelə kəmərin tikintisi üçün kredit vəd edib. Avropa İttifaqı ilə borc danışıqlarının dalana girdiyi bir vaxtda Yunanıstan baş naziri Aleksis Tsipras Rusiyaya səfər edərək Putinlə anlaşıb.

*****

Göründüyü kimi, TANAP-TAP *("Transxəzər")* qaz kəməri ilə rəqabətdə "Türk axını" layihəsi bir az daha uğurlu mövqe qazanmış kimi görünür. Belə çıxır, Rusiya ilə Qərb arasında qaz müharibəsi daha sərt mərhələyə adlayıb. Odur ki, bu yeniliyə ABŞ və Avropa Birliyinin reaksiyasının necə olacağı maraq doğurur.

Nəzərə alanda ki, Avropanın qaz təchizatında Rusiyanın əhəmiyyətli payını saxlamasını təmin edəcək, üstəlik, münaqişəli Ukraynadan yan keçəcək "Türk axını" Kreml üçün, Putinin sonrakı geosiyasi planları, hətta onun özünün siyasi taleyi üçün, habelə postsovet məkanına Moskvanın təsir rıçaqlarını saxlamaq üçün mühüm önəm daşıyır, bir az da siyasi özünütəsdiq anlamı kəsb edir, o zaman Vaşinqton və Brüsselin reaksiyasını və konkret kontur-addımlarını yəqin ki, çox gözləmək lazım gəlməyəcək.

❑ Analitik xidmət

# Asim Mollazadə Amerika qəzetinə Azərbaycan haqqında məqalə yazdı

**"Totalitarizmdən çıxmış, Qərblə ittifaqda olan və azad bazar demokratik ictimaiyyətinə daxil olmağa çalışan ölkə təsəvvür edin". Bunu Azərbaycan Demokratik İslahatlar Partiyasının sədri, Milli Məclisin deputatı Asim Mollazadə Amerikanın "The Daily Caller" qəzetində dərc olunan məqaləsində yazıb.**



Asim Mollazadə

A.Mollazadə daha sonra əlavə edib: "Birləşmiş Ştatlar insan hüquqlarının müdafiəsinə ən yaxşı hansı yolla kömək edə bilər - tərəfdaş kimi ölkəyə kömək etməklə, yoxsa izqoy kimi onu hücumlara məruz qoymaqla?" O bildirib ki, bu gün bu, ABŞ və müttəfiqləri üçün mühüm sualdır: "Tənqidçilər yaddan çıxarmamalıdır ki, Azərbaycan 70 il sovet hakimiyyəti altında yaşayıb və artıq 20 ildir ki, ərazisinin 20 faizi işğal altındadır".

A.Mollazadə məqalədə qeyd edir ki, Azərbaycanın Mərkəzi Asiya, Şərqi Avropa və Yaxın Şərqin kəsişməsində yerləşməsi onu əhəmiyyətli ticarət və nəqliyyat qovşağına çevirir: **"Qonşu Ermənistan 1990-cı illərdə ölkəmizə soxulub, Dağlıq Qarabağ ərazisi və ətrafında yerləşən 7 inzibati rayonu işğal edib. Azərbaycanlılar üçün insan hüquqlarının pozulmasının ən pis nümunəsi Ermənistanın işğalı nəticəsində 1 milyon qaçqının doğma torpaqlarını məcburi tərk etməsidir".**

Məqalədə qeyd edilir ki, insan hüquq müdafiəçiləri Azərbaycanın tolerantlıq ənənələrini də qiymətləndirməlidirlər: **"Belə ki, əsrlər boyu müsəlman, xristian və yəhudilər ölkədə sülh şəraitində yaşayıblar. Bizi tənqid edənlər etiraf etməlidirlər ki, digər ölkələrdə acınacaqlı halda olduğu təqdirdə, Azərbaycanda təhlükəsizlikdə olan dini azadlıq əsas insan hüququdur"**

❑ Vuqar MURAD

YENİ MÜSAVAT
N 133 (6161) 20 iyun 2015

**Bəşər tarixində gənc nəsillə yaşlı nəsil arasında fikir ayrılığı zaman-zaman mövcud olub. Eralar dəyişdi, cəmiyyət inkişaf etsə də konfliktlər bitmədi. Yenə də gənc nəsil "müasirliyə"getmək yolunda, yaşlı nəsil isə təəssüflər olsun ki, "bizim vaxtımızda filan iş belə idi, biz öz dədələrimizdən belə görmüşük" ideologiyasından əl çəkmək bilmir bəzən. Buna baxmayaraq, onlar da yaxşı bilir ki, cəmiyyətin inkişafında gənc nəslin rolu əvəzsizdir. Cəmiyyət hər zaman inkişaf etməlidir. Çünki bu işdə enerjisi və yaşama həvəsi maksimum dərəcədə olan gənclər daha böyük nailiyyətlər əldə edə bilir.**



**Aysel ƏLƏKBƏRLİ**
**Ümid Partiyasının Seçki və təbliğat şöbəsinin müdir müavini**

# Gənclərin uğur yolu - siyasət

## Bir ölkəni idarə etmək üçün savadlı və siyasi düşüncəsi sağlam olan gənclər lazımdır; yoxsa həmin ölkə tarixin tozlu səhifələrinə qərq olacaq

Bəli, cəmiyyət hər cəhətdən inkişaf etməlidir: sosial, iqtisadi, siyasi... Cəmiyyətlər isə müxtəlif xalqları əks etdirir, belə ki, həmin xalqlar da bu və ya digər dövlətin vətəndaşlarıdır.

Bəs bizim Azərbaycan cəmiyyətinin inkişafında gənclər yetərincə iştirak edirlərmi? Həqiqətən, bu, düşündürücü sualdır. Belə baxanda hər kəs harasa tələsir, xüsusən də gənclər. Günlərinin təxminən 8-9 saatını işdə, tələbələri isə dərsdə keçirdikləri üçün demək olar ki, "asudə vaxt fəaliyyətləri" yoxdur. Əslində bu da normaldır. Çünki onların asudə vaxtları yoxdur ki, fəaliyyətləri də olsun. Sanki sistem elə qurulub ki, heç kəs öz "qabığını" sındırıb əlavə iş görə bilmir.

Gənclik yaşına yeni qədəm basmış insanları fikirləşdirən iki əsas məsələ olur: Ya evə "çörək pulu" aparmaq, ya da ki, oxuyub "vətəndən getmək". Gününün 8-9 saatını yorucu iş rejimində keçirən və ya bütün gününü elmə həsr edən gəncin ölkədə gedən siyasi proseslərə ayıracaq vaxtı qalmır. Ölkəmizdə bu gün siyasətlə məşğul olmaq üçün asudə vaxt lazımdır. İş saatları azaldılmalıdır. Bu bir gerçəkdir.

Azərbaycan gəncliyi siyasətlə niyə maraqlanmaq istəmirlər və ya istəyirlərsə onlara nə mane olur? Çox təəssüf ki, bu gün gəncliyimiz siyasətə birmənalı yanaşmır. Hər kəs öz "kiçik dünyası"nda yaşayır və nə o "dünya"dan çıxmaq, nə də ora başqa birini əlavə etmək istəyir.

Ətrafımdakı gənclərə tez-tez bu sualı verirəm: "Niyə ölkədə baş verən siyasi proseslərə öz münasibətini bildirmirsən?"

Hər zaman da bu suallara görə yekdil cavab alıram: "Mən siyasətə qarışmıram, siyasət təhlükədir!" Gənclər sanki manqurtlaşır. Bu sözü boş yerə demədim. Onlar öz qəhrəman ulularını, Azərbaycan adlı Respublika yaradan dahiləri nə tez unutdular axı?! Onlar da bacara bilər, onlar da siyasətə qoşula bilərlər!

... Və şükür ki, ölkədə siyasətlə maraqlanmaq üçün nə kimsə vergi ödəyir, nə də öldürülmür. Yaxşı gənclər bir tərəfə dursun, bəs valideynlər nə üçün istəmir ki, onların övladları siyasətə maraq göstərsin?

Valideynlərdə belə bir fikir formalaşıb: **"Bax haa, siyasətə qoşulma, səni tutarlar, həyatın məhv olar"...**

Axı kim və nə əsasda onları "tuta" bilər? Öz hüquqlarını bilib, heç kimi təhqir etmədən, dinc şəkildə ölkədə baş verən siyasi proseslərə öz münasibətini bildirən, cəmiyyətin xeyrinə nəsə etmək istəyən birini kim və nə əsasla mühakimə edə bilər? Bu ölkədə siyasət və siyasi partiya deyəndə niyə hamı sadəcə mitinq düşünür? Siyasi partiyalar əslində "elm ocaqları"dır. Onlar bizlərə siyasət elmini öyrədir. Hər bir insan bunu bacarmalıdır. Gənclər uğur yolunu məhz siyasət sayəsində tapa bilirlər. Siyasət bizim həyatımızın bir parçasıdır. Bir deyim var, "sən siyasətlə məşğul olmasan, o səninlə məşğul olacaq". Həqiqətən bu həyatda yaşayırıqsa, ətrafda baş verən proseslər bizi maraqlandırmalıdır. Çünki bizlər cəmiyyətin bir parçasıyıq. Türk milləti olaraq bizim ən böyük "boşluğumuz" məhz siyasətdir. Boş yerə Hüseyn Cavid: **"Türklər qol gücüylə çox ölkələr almış, ən sonda siyasətdə basılmış da bunalmış!"** deməyib. Bir ölkəni idarə etmək üçün savadlı və siyasi düşüncəsi sağlam olan gənclər lazımdır. Yoxsa həmin ölkə tarixin tozlu səhifələrinə qərq olmağa möhtacdır.

# Ümidçi gənclər "Öz dilində danış" kampaniyası keçirəcək

**Ədəbi dilin birinci keyfiyyəti onun müəyyən normalara malik olmasıdır. Müasir Azərbaycan ədəbi dili dünyanın inkişaf etmiş dillərindən biri kimi mükəmməl, sabit normalara malikdir. Həmin normalar müəyyən tarixi təkamülün məhsuludur. Amma son illər Azərbaycan ədəbi dilindən istifadə qaydaları cəmiyyətin ictimai baxımdan əhəmiyyətli olan seqmentlərində (KİV, şəhər reklamları və s.) mütəmadi olaraq pozulur.**

Dilimizə xas olmayan sözlər sürətlə daxil olur və həmin sözlər dilimizin təmizliyini pozur. Bunun qarşısını almaq, Azərbaycan dilindən varvarizm sözləri təmizləmək üçün Ümid Partiyasının fəal gəncləri yaxın günlərdə müxtəlif tədbirlər keçirməyi planlaşdırır.

Tədbirlər Bakı və Sumqayıt ərazisində keçiriləcək. Tanınmış mütəxəssislərin iştirakı ilə müxtəlif qruplar arasında dilimizlə bağlı təlimlər keçiriləcək, dilimizi təbliğ edən bukletlər paylanacaq, kiçik süjetli filmlər hazırlanaraq nümayiş etdiriləcək.

**Siz Dəli Aydını tanıyırsınız? Tanımırsınızsa, mən sizinlə tanış edərəm. Tətbiqi riyaziyyat üzrə elmi dərəcəsi olan bir adam idi. Beton zavodunda, Baş mühəndis vəzifəsində çalışırdı. SSRİ dağılandan sonra Dəli Aydın da işini itirdi. Sonra ailəsini itirdi, daha sonra ağlını... Riyaziyyatdan nəsə çətin bir məsələ olan kimi, qaçırdım onun yanına. Cəmi bircə dəfə nəzər salardı riyazi məsələyə. Danışmaqla arası yox idi, amma dodaqlarının altında sayıqladığı sözlər indi də yadımdadır: "Daş at! Biz balaca, daş balaca. Gözyaşlarımız sulara daş atsa, o daş qədər ola bilmərik günahsız. Hamı günahkardır...**



**Elçin ASLANGİL**

# "Qara qatır kimi damğalıyıq"

Atamızın külqabısından oğurladığımız siqaret kötükləri qədər balaca idi ağlımız, düşüncələrimiz. Dərk eləmirdik. Eşidəndə ki, səyyar kinoteatr gəlib kəndə, anamızın bükülü cib yaylığından bir neçə qəpik çırpışdırıb, qaçardıq kinoya baxmağa. Sonralar bildim. Universitet oxuyanda bir müəllimimdən eşitdim ki, ölkəmizə yenicə ayaq açan həmin döyüş filmləri subliminal mesajlarla doluymuş. Gözümüz baxa - baxa, beynimizin alt qatına yeridirdilər 25-ci kadrları. Elə indi də yeridirlər. Hansı cizgi filminə baxırsan, geydirmə bir qəhrəman, əlinə alıb silahı qırıb, tökür. Sonra da bütün dünyaya bar - bar bağırırlar ki, "Şok, Şok, Şok!!! Fələstinli uşaqlar İsrail tanklarına daş atır!" Hə, nə edək?"

Bir neçə ay bundan əvvəl baş vermiş Fransadakı məlum olaylardan dolayı, dəli Aydın gəlib durdu gözümün önündə. Fikirləşdim. - Düz deyir? Düz deyir...

Əgər bir cizgi filminin alt qatında, uşaqlar üçün sex (*Bondage sex. "Əsarət"*) aşılanırsa o uşaq "Sehirli xalat" filmində deyildiyi kimi "böyüməyəcək". Böyüsə də, daş atacaq; İsrail tanklarına, Fransa redaksiyalarına.. Axı əsarətdən qurtulmağın tək yolu budur... (?!)

Ola bilər ki daş bizim "uşaqların" əli ilə atılır. Amma o daşı o əllərə kimlər verib? - Porno filmləri ən çox da müsəlman ölkələrinə yayan qərblilər.

Mən qəti əlehinəyəm. Daş atmağın da, etirazların da. İslamı Qərb ölkələrində tədqiq edəcək institutlar açılmalı, elmi mərkəzlər mövcud olmalıdır. Elə onların öz elm adamlarıyla birlikdə görmək lazımdır bu işləri. Ərəb şeyxlərinin puluna minnət...

Qərbli cənablar bizləri öyrənir. Hisslərimizi ölçürlər, hirsimizi ölçürlər, təcrübə aparırlar. Bəli, vaxt başında buna görə davranacaqlar, bizi idarə etmək üçün. Necə reaksiya verəcəyimizə baxıb, başa düşürlər ki, mənəvi dəyər tanımayan onlardan fərqliyik. Bir az da paxıllıq edirlər, düzü. Axı onlar belə deyillər. Məhəllədən keçən qızların namusuna sahib çıxan müsəlman kişiləri, məhşurluq naminə öz arvadı ilə porno görüntülərini yayımlayan avropalı kişilərdən tamam fərqlidir.

Yaxşı yadıma düşdü. Qəddafi BMT-nin iclasında belə bir söz demişdi:

**"Afrikada kütləvi şəkildə ucuz torpaqlar almağı durdurun!"**

Fransada, Afrikadakı evlərini dəyər - dəyməzə satıb yaşayan yüzminlərlə mühacir var. Bəs onların aqibəti necə olacaq? *(Və ya necə oldu?)* İşsizlik, ev - eşiksiz, yurd - yuvasız qalmaq, daha sonra yaxınlardan imtina etmək, sonra dəli olmaq.

Biz nə desək də, nə etsək də, "qara qatır kimi damğalıyıq" - "İslamçı terroristlər"

"Dəli" Aydın düz deyirdi, "Gözyaşlarımız sulara daş atsa, o daş qədər ola bilmərik günahsız".

**Bu səhifə Ümid Partiyası tərəfindən təqdim edilmişdir**



# Özünü məmnun edən sistem

Zamin HACI
zaminhaci@gmail.com

**"Bu adamlar - Hersoq sözünə davam elədi, - həmişə bədbəxt olmalıdır, həmişə əsə-əsə, qorxa-qorxa yaşamalıdır. Onlar həzz alanda titrəyirlər, beləcə, xeyirxahlıq onları korlayır. Mənim xasiyyətim başqadır. Mən öz seçimimdə heç vaxt tərəddüd eləmirəm. Elədiklərimdən həmişə həzz alıram, heç vaxt tövbə mənim çəkdiyim keflərin təsirini azaltmır"**

***(Markiz de Sad, "Sodomun yüz iyirmi günü")***

Prezidentin xarici işlər müşaviri, "Fransız" filminin aktyorlarından olan Novruz Məmmədov deyib ki, bu saat hamı Azərbaycanı tənqid edir, pisləyir, demək Azərbaycan düzgün yoldadır. Novruz müəllimin dəmir məntiqinə görə, ölkəmizdə aparılan siyasəti tərifləsələr bu da pisimizə olarmış.

Bu mövzuda çox baş ağrıtmağa ehtiyac yoxdur, çünki bunun lətifəsini çoxdan qayırıblar. Bir nəfər maşında gedir, arvadı zəng vurur: "Əzizim, sən Azadlıq prospekti ilə getmirsən ki? İndicə televizorda yol polisinin məlumatını açıqladılar, deyirlər o yolda bir nəfər axmaq tərsinə gedir. Ehtiyatlı ol, əzizim, sənin maşınını vurmasın!" Kişi deyir: "Hə, o küçədəyəm, özü də nə bir nəfər, yüzlərlə axmaq tərs sürür. Güclə salamat qalmışam!"

Keçək şeyx mövzusuna, çünki Ramazan ayıdır, vaxtaşırı Qafqaz Müsəlmanları İstehsalat Fabrikindən məhsullar olacaqdır. Elə dünən Allahşükür müəllim təzə fətva veribdir, deyir, hədislərə görə Avropa Oyunları müddətində idmançılar oruc tutmaya bilər. Bir dənə də fətva qadınların çimərlik voleybolu haqda gözləyirik. Şeyx ərz eləsin görək naməhrəmlər çimərlik voleybolu üzrə italiyalı qızlara baxa bilər, ya yox. Bu zaman oruc şəxsin ağzının suyu axsa, günaha yazılırmı?

Ta söz düşüb, oyunlar haqda da bəzi fikirlərimizi yazaq. Hakimiyyət tərəfdarları deyir ki, bu Avropa Oyunları ölkəmizdən ötrü çox vacibdir, maaşından kəsilən, kredit verə bilməyən bəzi zəhmətkeşlər isə yandığından oyunları tərifləyir. Şəxsən mənim mövqeyim belədir ki, bu oyunlardan ancaq ziyan çəkmişəm. Gedəcəyim marşrutlar ləğv olunub, iqtisadiyyata zərbə dəyib, bahalaşma, mənasız xərclər və sairə artıb. Bəs qarşı tərəfin arqumenti nədir? Gəlin onu incələyək.

Deyirlər turistlər gəlir, iqtisadiyyatımıza maya qoyur. Birincisi, çox az xarici gəlib, bunu yarışlar üçün stadiona gedən idman jurnalistləri də təsdiqləyir. İkincisi, onların demək olar hamısını yapistlər Atletlər kəndi, öz hotelləri kimi yerlərdə, dövlət büdcəsi hesabına yerləşdiriblər. Hətta AZAL-da onlar üçün bileti 50 faiz ucuz eləmişdi. Deməli, iqtisadi gəlir boş söhbətdir. Ancaq böyük ziyan var.

Dördüncüsü, "respublikanın tanınması" arqumentidir, bu da gördük necə baş verdi. Demək olar bütün dünya Azərbaycandakı repressiv rejimi tənqid elədi. Tərifləyən yalnız Lukaşenko oldu. Dünyanın özünə hörmət qoyan bircə informasiya agentliyi, bircə qəzet-jurnalı belə hətta oyunların açılış mərasimindən cupbulu cümlə də yazmadılar. Bir cümləyə dəyməyən yüz milyon dollarlıq açılış - siz bundan həzz alırsınız?

Nəhayət, yaltaqların əsas arqumentlərindən biri budur ki, idman yarışlarında respublikamızın bayrağı qalxır, himnimiz səslənir, çox şad oluruq və sairə. Bu, lap gülünc, karikatur söhbətdir, çünki elə çıxır Azərbaycan ərazisində Azərbaycanın himnini səsləndirmək, bayrağını qaldırmaq qadağan imiş. Ölkə sizin, bayraq sizin, arena sizin, himn sizin - qaldırın, kefiniz istəyən qədər oxuyun da bə! Kim sizə mane olurdu ki? Onsuz indiki halda himnin səslənməyini, bayrağın qalxmağını elə özümüz görürük, heç kim xaricdə bu yarışa baxmır. Daha bu arqumentciyin anlamı nədir? Özü çalıb, özü oynayır - el məsəlində deyilən kimi. Yeri gəlmişkən, oyunların ən çox medalını da elə deyəsən Azərbaycan qazanıb, bu özü başqa lətifədir.

Əlbəttə, özü özünü məmnun edən respublikamızla qürur duyuruq. Bu, siyasi sabitliyin, xətaliklərdən uzaq olmağın da qarantıdır. Respublikamız xarici respublikalarla təhlükəli, təsadüfi əlaqələrdən uzaq durur, özündən zövq alır.

# Azərbaycanlılar nə üçün PKK və İŞİD-ə qoşulurlar?

## Terror hörgütünə qoşulan tələbələrlə bağlı araşdırmalar başlayıb; **Arzu Nağıyev:** "Bu tipli şəxslər öz torlarına sala bilirlər"

**Bu ilin aprel ayında Ankarada təhsil alan üç azərbaycanlı tələbənin PKK-ya qoşulması barədə yayılan xəbərlər öz təsdiqini tapıb. Azərbaycanın Xarici İşlər və Daxili İşlər, eləcə də Milli Təhlükəsizlik nazirlikləri araşdırmalara başlayıb.**

Bu barədə BBC-nin Azərbaycan xidmətinə Təhsil Nazirliyinin Türkiyədəki təmsilçisi Nəcibə Nəsibova məlumat verib. Onun sözlərindən aydın olub ki, PKK-ya qoşulan tələbələrin heç biri dövlət xətti ilə təhsil almayıb. Təhsil müşaviri onlardan dərs davamiyyəti və qiymətləri zəif olan "savadsız tələbə" kimi bəhs edib. Hətta həmin tələbələrin kürdlərə yaxın olduqlarını da təsdiqləyib.

Son vaxtlar Azərbaycanda bu kimi halların artdığının şahidi oluruq. Suriyada döyüşmək üçün ölkəni tərk edənlərin də sayı az deyil. Son olaraq da PKK-ya qoşulan bu üç tələbə problemi yenidən göz önünə gətirdi. Müharibə şəraitində olan Azərbaycandan vətəndaşların digər ölkələrə döyüşmək üçün getmələri, həyatlarını təhlükə altına atmaları sual doğurmaya bilməz.

**MTN-in sabiq əməkdaşı, ekspert Arzu Nağıyev** PKK-ya qoşulan tələbələrlə bağlı araşdırmalar aparıldığını söylədi: "Bu şəxslərin hər biri haqqında çoxdan məlumatlar olub. Axtarışlar aparılır. Çox güman ki, onların hamısı barəsində axtarış elan olunub. Sadəcə, araşdırmanı sona çatdırandan sonra məlumat verəcəklər. Bəlkə heç həmin tələbələr deyil? Hər şey ola bilər. Bu gənclər solçuluğu təbliğ edən uşaqlar olublar. Hətta mitinq keçirməyə, qanunsuz təbliğatla məşğul olmağa cəhd ediblər. Bunların üzərində ciddi iş aparılıb. Kiminsə birdən-birə silahlanıb, terror təşkilatına qoşulması inandırıcı deyil. Çox güman ki, hüquq-mühafizə orqanları gec xəbər tutublar. Türkiyədə tələbə adı ilə bu proseslərə qoşulublar".



Arzu Nağıyev

**Ekspert azərbaycanlıların digər ölkələrdə döyüşə can atmaları məsələsinə də aydınlıq gətirdi:** "Hazırda ölkəmizdə döyüşlər getmir. Hərbidə müddətdən artıq qalanlar var. Bu şəxslərdə ideya başqadır. Suriyaya nə üçün döyüşməyə gedirlər? Soruşanda cavab verirlər ki, Şam müqəddəs şəhərdir. Məgər ana yurd müqəddəs deyil? Sadəcə, səbəb və məqsəd tamam başqadır. Əsas məsələ budur. Təbii ki, vətənpərvər ruhda olanlar da ölkəmizdə az deyil. Bu dəqiqə nə qədər istəsəniz, döyüşmək üçün könüllülər var. Sadəcə, təəssüflər olsun ki, bu tipli şəxslər öz torlarına sala bilirlər. Hər şey maarifçilikdən asılıdır. Maarifçilik yüksək olmalıdır. Bu məsələyə böyük önəm verilməlidir".

**Arzu Nağıyev belə şəxslərin ölkəmizdə qalmaları üçün görülməli olan işlərdən də söz açdı:** "Bununla bağlı hüquq-mühafizə orqanları və Cinayət Məcəlləmiz var. Belə şəxslər barəsində cinayət işi açılır. Konkret maddə var. Ölkəyə qayıdanda bu şəxslərin başını sığallaya bilməzlər. Hüquqi yollar var. Belə yollarla yalnız bu kimi halların qarşısını almaq mümkündür. Xarici ölkədə adam öldürmə, qanunsuz qruplaşmaya daxil olma, sərhədi keçmə və s. kimi hallar qanunla cinayət yaradır. Bunlar ciddi surətdə araşdırılmalıdır".

❑ **Cavanşir ABBASLI**

# Ankara kuluarlarında Suriya həyəcanı

## Kürdlər ABŞ-ın dəstəyi ilə Suriya-Türkiyə sərhədlərini nəzarətə alır, Türkiyə hökuməti Qərbin yeni planından narahatdır...

**Suriyanın şimalında son bir həftədə baş verənlər Ankaranı ayağa qaldırıb. Türkiyə hökuməti bu nahiyədə baş verənləri böyük narahatlıqla izləyir, artıq mövzuya həsr olunmuş yüksək səviyyəli rəsmi toplantılar keçirilib.**

Məsələ burasındadır ki, ötən həftə fəallaşan kürd silahlıları Suriyanın Türkiyə ilə sərhəddə daha bir mühüm bölgələrdən olan Tel Abyad qəsəbəsini və ətraf kəndləri İŞİD-dən təmizləyib. Artıq kürd qüvvələri İŞİD-in fakti ki paytaxtı Raqqa şəhərinə 50 kilometr məsafəyə çatıblar və belə görünür, tezliklə Rəqqaya hücum edəcəklər.

Ancaq hazırda Türkiyəni daha çox narahat edən vəziyyət Suriya-Türkiyə sərhədlərində baş verənlərdir. Çünki bölgə koalisiya və ABŞ aviasiyasının da ardıcıl dəstəyi ilə İŞİD-dən təmizlənərək kürdlərin nəzarətinə keçir.

Ötən il Kobani şəhəri uğrunda bir neçə ay davam edən gərgin döyüşlərdən sonra İŞİD-in faktiki olaraq kürdlərə məğlub olması bölgədəki hərbi vəziyyəti kürdlərin xeyrinə dəyişib. İndi isə kürd qüvvələri hücuma keçib və ABŞ Dövlət Departamentinin sözçüsünün açıqlamasına görə, bölgənin təmizlənməsinin daha bir məqsədi uzun müddət nəzarətsiz qalan Suriya-Türkiyə sərhədinin mühafizəyə alınması və əcnəbi terrorçuların Türkiyədən Suriyaya keçidinin qarşısını almaqdır. Bu isə açıq-aşkar kürdlərə etimad göstərilməsi və Türkiyəyə qarşı plandır.

Ankaranı narahat edən daha bir məqam isə Suriyanın şimalında zolaq ərazinin Aralıq dənizinə qədər olan hissədə kürdlərin əlinə keçməsi və bununla da bölgədə dənizə çıxışı olan ikinci bir kürd muxtariyyətinin yaranması təhlükəsidir. Ankarada son günlərdə həm prezident Ərdoğan, həm də baş nazir Davudoğlu MİT (kəşfiyyat) və Baş Qərargah rəisi ilə Suriyadakı son durumu müzakirə edib.

İki gün əvvəl Ankarada Prezident Sarayında ən yüksək səviyyədə siyasi və hərbi rəhbərliyin iştirakı ilə Suriya mövzusu müzakirə olunub. Türkiyə mətbuatının yazdığına görə, Ankaranı indi daha çox narahat edən kürdlərin irəliləməsinin "Yeni Orta Şərq" layihəsi ilə bağlı olması, yəni dolayısı ilə bölgədə etnik vəziyyətin dəyişməsi, kürdlərin çoxluğa çevrilməsi, eləcə də Aralıq Dənizinə qədər bölgəni ələ keçirməsi, ilkin olaraq Kobani və Afrin rayonlarının birləşdirilməsidir.

Daha bir narahatlıq doğuran bölgə Əziz bölgəsidir. Məsələ ondadır ki, Tel Abyaddan çıxarılan İŞİD yaraqlıları Əziz türkmən rayonuna hücum edib. Əziz isə Türkiyə ilə sərhədlərin yaxınlığında, Kilis rayonu ilə üzbəüz 15 kilometr məsafədə yerləşir. Hazırda Azad Suriya Ordusunun nəzarətində olan Əziz rayonunun İŞİD-in əlinə keçməsi nəticəsində ilkin olaraq 70 min suriyalı Türkiyəyə köç edəcək. Amma bundan daha təhlükəli olanı isə savaşın davam edəcəyi təqdirdə Əzizin də İŞİD-dən boşaldılması və rayonun kürdlərin nəzarətinə keçməsidir.

Türkiyə baş naziri bəyan edib ki, bütün bunlar hazırkı Suriya hakimiyyətinin kürdlərlə anlaşması nəticəsində baş verib. Ancaq o da məlumdur ki, indi Suriyanın şimalında bəzi məntəqələrdə Suriya ordusu ilə kürdlər arasında da lokal toqquşmalar baş verir. Üstəlik, kürdləri açıq şəkildə ABŞ-ın rəhbərlik etdiyi koalisiya qüvvələri dəstəkləyir və əslində İŞİD-in geri çəkilməsində ABŞ qırıcılarının bombardmanlarının böyük rolu var.



Bundan başqa, ABŞ rəsmilərinin açıqlaması göstərir ki, Vaşinqton ərazidə daha çox kürdlərə güvənir, nəinki Türkiyə hakimiyyətinə. Əlbəttə, Türkiyə-Suriya sərhədləri boyunca ərazilərdə nəzarətin kürdlərin əlinə keçməsi Ankaranın planlarına uyğun deyil. Artıq Türkiyə hökuməti Suriyada savaşan qruplara dəstək verə bilməyəcək və ya verəcəyi dəstəyi PYD *(Suriya kürdlərinin əsas siyasi təşkilatı)* və ya ABŞ-la razılaşdırmalı olacaq. Bu isə Ankaranın maraqlarına uyğun deyil.

PYD həmsədri Saleh Müslim isə Türkiyəyə müraciət edərək "kürdfobiya"dan xilas olmağa çağırıb. Bölgədə hər hansı təhlükəli vəziyyətin olmadığını qeyd edən Müslim "Türkiyədəki narahatçılıq yersizdir. Kürdfobiyadan qurtulmaları lazımdır. Tel Abyadda sadəcə kürdlər deyil, ərəblər və türkmənlər də var. Türkiyə nə qədər rahat olarsa biz, biz nə qədər rahat olarsaq türklər rahat olar. Türkiyənin də öz sərhədlərində İŞİD-in olmasını istəmədiyini düşünürük" - deyə əlavə edib.

Hazırda ötən həftə Tel Abyadın ələ keçməsi ilə evlərini tərk edərək Türkiyəyə qaçan suriyalıların bir hissəsinin geri qayıtması müşahidə olunur. Eyni zamanda kürdlərin hücumundan sonra pərən-pərən düşən İŞİD yaraqlılarının sərhədi keçərək Türkiyə ordusuna təslim olduğu və həbs edildiyi haqda məlumatlar yayılır. Onların Türkiyədə mühakimə olunacaqları, yaxud da ölkələrinə geri göndəriləcəyi məlum deyil.

❑ **KƏNAN**

YENİ MÜSAVAT
N 133 (6161) 20 iyun 2015

# Azərbaycanın Rusiyadan T-90 tankları alması düzgün addımdırmı?

## Hərbi ekspert Tərlan Eyvazovun fikrincə, T-90 tankları döyüş, manevr imkanları və eləcə də qiymətlərinə görə Azərbaycan üçün uyğundur

**Azərbaycanın Rusiyadan aldığı 100 ədəd T-90 tanklarının hamısı artıq təhvil verilib. Bu barədə yerli hərbi mənbələr məlumat yayıb. Qeyd edək ki, Azərbaycanın Rusiyadan T-90 tanklarının alınması ilə bağlı müqavilə 2011-ci ildə imzalanıb. 2013-cü ildən isə tankların Azərbaycana göndərilməsinə başlanıb. İlk bu tip tanklar həmin il hərbi paradda nümayiş olunub.**

2013-cü ildə milkavkaz.net internet resursu Rusiyadan Azərbaycana göndərilən T-90-C tanklarının və digər hərbi texnikanın Bakı limanında gəmidən boşaldıldığını əks etdirən kadrlar yaymışdı. Həmin vaxt Rusiya mənbələri Azərbaycanla Rusiya arasında imzalanmış razılaşmaya əsasən 94 ədəd T-90S tankının Bakıya veriləcəyini qeyd edirdilər. Bundan başqa, həmin vaxt mənbələr tanklarla yanaşı 100-ə yaxın BMP-3 hərbi piyada maşını, 18 ədəd "Mcta-C" özüyeriyən artilleriya qurğusu, 18 ədəd "Smerç" yaylım atəşli reaktiv sistemi, 18 ədəd "Vena" özüyeriyən artilleriya silahı, 6 ədəd TOC-1A "Solnsepek" ("Buratino" sisteminin yeni modifikasiyası) ağır odsaçan sistemin də satıldığını qeyd edirlər.

T-90 hazırda bir neçə yeni modifikasiyası ilə birlikdə dünyada ən məşhur tank markalarından biri hesab olunur. T-72 B tanklarının modernləşdirilmiş variantı kimi 1980-ci illərin sonlarında yaradılıb. Sonradan dünyada ən güclü döyüş tankı statusunu alıb və zirehli texnika bazarında ən çox satılan tank olub. Azərbaycanın aldığı T-90 tanklarının ixrac üçün nəzərdə tutulmuş ən son variantlarından biridir. Tankın atəşi idarəetmə sistemi avtomatlaşdırılıb, hərəkət edən hədəflərə dəqiq zərbə endirmək üçün elektron tank ballistik ayırdedicisi ilə təchiz olunub, kondisioneri var. Tank komandiri həm zenit-pulemyot qurğusundan, həm də tankın əsas silahından atəşi izləmək üçün elektron qurğuya malikdir. T-90S tankları istənilən hava şəraitində və sutkanın istənilən vaxtında hədəfi dəqiq vurmağa imkan verən elektron sistemlərlə təchiz olunub. Tankın əsas silahı 125 millimetrlik topdur, onun qülləsində 48 millimetrlik zenit pulemyotu və yüngül pulemyot quraşdırılıb. Tank dörd tip mərmidən atəş aça bilir, bura "asılı vəziyyətdə" dayanan vertolyota atəş açmaq imkanı verən mərmi də daxildir. T-90C tankları eyni zamanda tank əleyhinə idarəolunan raketlərlə də atəş açmaq qabiliyyətindədir. Tankın göstəricilərinə saatda 70 kilometrlə hərəkət edən zaman hədəfi 5 min metrdən, dayanmış, yaxud 30 km/saat sürətlə hərəkət edərkən vurmaq da daxildir. Zirehinin qoruma qabiliyyətinə görə bu tanklar dünyada ən öndə gedir. Əgər düşmən tankın yerini lazer şüalanması ilə aşkar etsə, erkən xəbərdarlıq sistemi işə düşür və ekipaja bu barədə siqnal verir. Eyni zamanda da avtomatik olaraq qoruyucu sistem işə düşür, tankın ətrafında tüstü buludu yaratmaq üçün aerozol qumbaraları atılır. Tankların Azərbaycana 240 milyon dollara *(bir ədədi 2,5 milyon dollar)* başa gəldiyi bildirilir.

Bəs olası Qarabağ savaşı zamanı bu tankların hansı faydası ola bilər? Çünki məlum olduğu kimi, Dağlıq Qarabağ və Azərbaycanın işğal olunmuş bölgələri, ümumiyyətlə isə cəbhə xəttinin *(Ermənistan-Azərbaycan sərhədləri və Naxçıvan)* böyük bir hissəsi dağlıq ərazilərə düşür. Bu cür bölgələrdə isə tankların savaşması o qədər asan olmur. O zaman bu tanklar gözlənilən savaşda Azərbaycan ordusu üçün böyük üstünlük sayıla bilərmi?

**Hərbi ekspert, istefada olan döyüşçü-zabit Tərlan Eyvazov deyir ki, Rusiyadan tankların alınması ilk növbədə siyasi tərəfləri olan kommersiya aktı idi:** "Düşünürəm ki, lazımlı bir akt idi. Bildiyiniz kimi, Rusiya silah sənayesi həmişə güclü nüfuza malik olub. Bizim onlardan tank və ya silah almağımız bu mənada yaxşıdır. Digər tərəfdən, onsuz da Azərbaycana inkişaf etmiş silah istehsalçıları olan Qərb dövlətləri Qarabağ münaqişəsini bəhanə edib silah satmır. İkinci tərəfdən, bu tanklar bizim üçün çox uyğundur. İndi bəzi hərbi ekspertlər də deyir ki, Azərbaycan o qiymətə daha yaxşı, müasir tanklar ala bilərdi. Amma düşünürəm ki, bizim hazırkı vəziyyətimizdə ən uyğun seçim məhz T-90 tanklarıdır. Həm qiymət baxımından, həm kadr, servis baxımından Qərb ölkələrinin istehsalı olan tankları almaq bizə sərf etmir. Gözümüzün qarşısında Polşa nümunəsi var. Polşa bu gün Avropa ölkəsi sayılır. Polşa ordusu bir müddət əvvəl "Leopard" tankları aldı, ancaq indi Polşa ordusu bu tanklardan imtina edir. Çünki onların bu tankların servisini təşkil etmək, ehtiyat hissələrini almaq üçün pulları çatmır, bu tanklar çox bahalıdır".



> **"Həm siyasi, həm kommersiya, həm də hərbi-texniki üstünlükləri, döyüş imkanları baxımından bu tankların alınması yaxşıdır"**

**T.Eyvazov deyir ki, T-90 tanklarının servis və ehtiyat hissələri baha başa gəlmədi, eyni zamanda yerli mütəxəssislərin olması səbəbindən Azərbaycan üçün daha uyğundur. Ən mühüm özəlliyi isə bu tankların döyüş əraziləri üçün uyğun imkanlara sahib olmasıdır:** "T-90 tankları üçün bizdə sovet dövründən qalma baza mövcuddur, servis imkanları var. Kadrlar da varımızdır. Ona görə də o tankları alıb orduda istifadə etmək bizim üçün heç bir əlavə çətinlik yaratmır. T-90 tankları müasir döyüş şəraiti üçün çox əlverişlidir, xüsusən də bizim münaqişə zonasında istifadəyə yararlıdır. Həm siyasi, həm kommersiya, həm də hərbi-texniki üstünlükləri, döyüş imkanları baxımından bu tankların alınması yaxşıdır. T-90 tankları müxtəlif relyeflərdə döyüş gücü, manevr imkanlarına görə T-72, T-55 kimi tanklardan daha üstündür. Manevr imkanlarına görə T-90 dünyada birinci yeri tutur. Bu mənada Azərbaycan üçün bu tankların alınması ən ideal variantdır".

❑ **KƏNAN**

# NATO-dan Ukrayna ordusuna "təmizlik" tələbi



**NATO Ukrayna ordusunun tərkibi ilə bağlı narahatdır. Avropa.info xəbər verir ki, narahatçılığın əsas səbəbi Ukrayna ordusunun sıralarında millətçi və neonasistlərin olmasıdır. Şimal alyansı tələb edir ki, Ukrayna ordusu öz sıralarını ekstremistlərdən təmizləsin. Bu açıqlama ilə NATO Baş Katibliyinin xüsusi nümayəndəsi Ceyms Appaturay çıxış edib.**

Ceyms Appaturay NATO-nun Cənubi Qafqaz və Orta Asiya üzrə xüsusi nümayəndəsidir. "Alyansın bütün üzvləri arzu edir ki, ekstremistlər Ukrayna SQ-nin sıralarından olduqca tez və qısa müddətə təmizlənməlidir".

Qeyd edək ki, ABŞ könüllü "Azov" batalyonuna təlim keçməkdən imtina etmişdi. Konqres "Azov"u neonasist batalyonu adlandırmışdı.

# Bu millətin ulduz saatı...



Hüseynbala SƏLİMOV

**Bu millət i illər boyu özünə şübhə, inamsızlıq, tərəddüd, bəzən də özünə ikrah ruhunda böyütdülər... Cürbəcür qəliblər fikirlərə, ona özünə yad olan mədəni-mənəvi kodlar aşılamağa çalışdılar...**

Gah "Sən hələ azadlığa layiq deyilsən!", gah da "Hələ bir millət kimi yetişməmisən!" dedilər. Amma elə ilk fürsət düşəndə bu millət nəyə qadir olduğunu göstərdi...

Mən millətlərin aşağılanmasının, birinin digərindən fərqləndirilməsinin tərəfdarı deyiləm - bütün millətlər bərabərdir və istedadlıdır. Amma yenə də bir fikri deməyə bilmirəm: qardaş, vallah, bu millət ən azı müsəlman Şərqinin digər millətlərindən bir boy yuxarıdır...

Yeni nə varsa, birinci bu millət ona müraciət edib. Mütərəqqi nə varsa, birinci, hamıdan əvvəl ona yiyələnib...

Mən fikrimi əsaslandırmaq üçün konkret misallara əl atmayacam. Onsuz da hamısı bəlli... Sadəcə, bu Avropa oyunları dönəmində bir də öz dediklərimin dürüst olduğuna əminlik hasil edirəm...

Qələbə qələbənin ardınca gəlir, bizim cəmiyyət əvvəllər belə bir böyük idman tədbirinə ev sahibliyi etməsə də, böyük təşkilatçılıq hiss olunur...

Mən bunu, millətimizin və ayrı-ayrı insanlarımızın təşkilatçılıq qabiliyyətini hələ 80-90-cı illərin mitinqləri zamanı görmüşdüm...

Bəli, o vaxt hələ heç kim heç nəyi təşkil etməmişdi, amma hər şey elə rəvan gedirdi ki...

İndi bizə nə deyirlər? Guya ki, insanlar başqalarının təhlükəsizliyi və rahatlığı üçün problem yaradırlar...

Deyirlər ki, guya sən hələ cəmiyyət olmağın ən birinci pilləsinə-özünü təşkilə hazır deyilsən... Sonra da ardınca qayıdırlar ki, bəs filan qədər medal qazandıq!..

Əgər bu millət hələ heç nəyə qadir deyilsə, küçəyə çıxıb sakitcə öz etirazını bildirməyi də bacarmırsa, özünü azad cəmiyyət kimi apara bilmirsə, onda bu boyda tədbirə kim sahiblik edir, kim bu medalları qazanır? Qardaşlar, nədir? Yoxsa dünyanın bu düz vaxtında qladiator döyüşdürürsünüz?..

Qladiatorları da yedizdirirdilər, alqışlayırdılar, bəzən hətta mükafatlandırırdılar! Amma onlar qul idi! Yoxsa bizi də qul hesab edirsiniz?

İndi idman azad insanların yarışıdır. Ona görə ki, bu yarışların finalı milli himni səsləndirmək, fəxrlə öz milli bayrağını seyr etməkdir! Bunu ürəkdən və cani-dildən yalnız azad insanlar bacarar...

Biz çox şeyə qadirik. Bunu qısa müddət göstərdi. Həm də bu millət qələbənin təşnəsindədir, ona qələbə lazımdır, ona öz iradəsini təsdiq etmək lazımdır. Hər dəfə deyiləndə ki, bu ölkənin 20 faizi Ermənistanın işğalı altındadır, heç bilirsinizmi biz nələr çəkirik və neçə dəfə ölüb-dirilirik? Bunu təsəvvür edirsinizmi? İllər boyu bu millətə "Sən acizsən, sən bacarmazsan!" dedilər, di gəl, o, çox şeyə qadir idi, o cümlədən də öz torpağını qorumağa...

İllər boyu bu millətdən çox şeyi oğurladılar. Onun gücünü-qüdrətini oğurladılar, onun azadlığını oğurladılar, onun hətta səslərini oğurladılar! İndi bunları bircə-bircə qaytarmağın vaxtıdır...

Elə bir gün gələcək bəlli olacaq ki, bu millət təkcə əyləndirməyi bacarmır və o daha böyük işlər üçün yaranıb...

Elə bir gün gələcək bəlli olacaq ki, o, azadlığa da layiqdir, demokratiyaya da və onda bütün bu sirk, bütün bu teatr bitəcək-bir daha bəlli olacaq ki, biz sirk artistləri, sirkdə oynayan akrobatlar deyilik, əgər idmanda qalib ola biliriksə, deməli başqa işlərdə də qalib olmağı bacararıq...

Bu millət əslində heç nə istəmir. Yetər ki, ona inanasan. Yetər ki, ona etibar edəsən. Yetər ki, ona hörmət edəsən...

Bir az bu yazının konteksindən kənara çıxsa da, Stefan Sveyqin "Bəşəriyyətin ulduz saatı" adlı yazıları var...

Mən də, ümumiyyətlə, biz hamımız da bu millətin ulduz saatına inanmışıq. Bəli, inanmasaydıq, ona güvənməsəydik bu yolun yolçularına çevrilməzdik və bu yola üz tutmazdıq...

80-90-cı illərdə mitinqlərə işarə edərək "Əşi, qara kütlə toplaşıb ora!" deyənlər də az deyildi. Amma hələ o vaxt biz deyirdik ki, o qara kütlə dediyin sənin millətindir, o sənsən, mənəm və bizik...

O vaxt biz inandıq. Düşünürəm ki, səhv də etmədik. Ona görə ki, valideynini seçmədiyi kimi insan millətini də seçmir. Ona görə ki, millət abstrakt anlayış deyil, o, sənsən, mənəm və bizik...

YENİ MÜSAVAT
N 133 (6161) 20 iyun 2015







# Göyçayda görülən işlər narazılığı aradan qaldıracaqmı?

## Əməkdaşımız icra başçısı Mübariz Ağayevlə tikinti meydançasında görüşdü: "Görülən işlər göz qabağındadır, görüləcək işlər isə çoxdur"

**Bu ilin əvvəllərinə qədər fəaliyyəti ən çox tənqid edilən icra hakimiyyətlərindən biri də Göyçay rayon İcra Hakimiyyəti idi. Bakıdan 3 saat yarımlıq məsafədə yerləşən bu aran rayonunda yolsuzluq, susuzluq, qazsızlıq həlli tapılmayan problemə çevrilmişdi.**

Rayonla bağlı yazılan, deyilən tənqidlərdə əsas səslənən məsələlər Göyçaya rəhbərlik edən icra başçılarının sahibkarlara neqativ münasibəti, bələdiyyələrin icra hakimiyyətindən asılı vəziyyətə salınmaları, büdcə vəsaitlərinin abadlıq-quruculuq adı ilə mənimsəməsi və s.

Göyçaya səfərimiz çərçivəsində rayona təzəlikcə icra başçısı təyin olunan Mübariz Ağayevin gördüyü işlərlə maraqlandıq. Bilmək istədik ki, yeni başçı sələflərindən hansı işlərinə görə fərqlənir? Ümumiyyətlə fərqlənirmi?

Xatırladaq ki, M.Ağayev prezident İ.Əliyevin sərəncamı ilə bu ilin fevralında Quba rayon İcra Hakimiyyətinin başçısı postundan hazırda tutduğu vəzifəyə təyin olunub.

Rayonda olarkən sakinlərlə söhbət etdik. Onlardan yeni İH başçısından razı qalıb-qalmadıqlarını soruşduq. Sakinlər suallarımıza cavab verməyə ehtiyat edirdilər. Göyçaylılar rayonun rəhbəri haqda nəsə söyləməyə çəkinirdilər. Bu hal təəssüf ki, Azərbaycan gerçəkliyidir. Sıravi insanlar mətbuata rəhbər şəxslər haqda hətta müsbət fikir bildirməyə də ehtiyat edirlər. Amma bizə danışan sakinlər də oldu. Onlar adlarının adlarının yazılmaması şərti ilə bir-iki cümlə söylədilər. Bildirdilər ki. M.Ağayev rayona icra başçısı təyin olunduqdan sonra bəzi müsbət işlər görür. Sakinlər deyirlər ki, başçını tez-tez rayon mərkəzində abadlıq işləri ilə maraqlanan yerdə görüblər.







Elə sakinlərdən öyrəndik ki, hazırda başçı tikilməkdə olan Gənclər evi və Bayraq Meydanı ərazisindədir. Üz tutduq deyilən ünvana. Məqsədimiz İH başçısı M.Ağayevlə danışmaq, söhbət etmək idi. Əraziyə çatanda gördük ki, icra başçısı fəhlələrə göstəriş verir. Bayraq meydanı kompleksinin ərazisi torpaqla doldurularaq hamarlanır, yaxınlıqdakı fontan qurğusunun tikintisi də sona çatmaq üzrədir. Qeyd etdiyimiz kimi Göyçay aran rayonu olduğundan orada temperatur Bakıdan kəskin fərqlənir - hərarət yüksəkdir. Toz-torpağın, qan-tərin içində, əllərində bel ərazidə torpaq hamarlayan fəhlələrdən M.Ağayevi fərqləndirən ağ köynəkdə olması idi. Qalstuksuz, pencəksiz icra başçısının fəhlələrdən ayrılıb onun üçün yaxınlıqda qoyulmuş masanın arxasına keçməsini gözləyirik. Çinar altında kölgələnən M.Ağayevə yaxınlaşıb görülən işlərlə maraqlanırıq. Deyir ki, görülən işlər göz qabağındadır, görüləcək işlər isə çoxdur. Ondan müsahibə almaq istəyimiz baş tutmadı. Başçı bildirdi ki, iş qrafiki sız olduğundan suallarımıza cavab verə bilməyəcək. O, bizi köməkçiləri ilə tanış edib ərazini tərk etdi.

Başçının köməkçiləri rayonda görülən işlər haqda onun kimi təvazökarlıqla danışmadılar.

Dedilər ki, rayonda aparılan abadlıq, quruculuq işləri daha da canlandırılıb. Heydər Əliyev prospekti, şəhərin Natavan, Nizami, M.Hüseynzadə, Ə.Kərim küçələri əsaslı şəkildə yenidən qurulub, yeni işıqlandırma sistemi çəkilib. Rayon mərkəzində Gənclər evinin, Bayraq meydanının tikintisinə, qarşısında abadlıq və yaşıllaşdırma işlərinə başlanılıb. Şəhərin küçələrinə 100 min kv.m-dən artıq yeni asfalt örtüyü salınıb, fərdi yaşayış evləri və divarları, yaşıllıqlar qaydaya salınıb. Kənd əhalisinin içməli su ilə təminatının yaxşılaşdırılması məqsədi ilə rayonun Bığır, Mırtı, Alıkənd, Yeniarx və Türkmən kəndlərində modul tipli su təmizləyici qurğuların tikintisinə başlanılıb. Kənd əhalisini daha çox narahat edən təbii qaz verilişinin bərpası istiqamətində əməli tədbirlər görülməkdədir. Hazırda rayonun Şıxbəy, Məlikkənd, Şahsoltanlı, Yekəxana, Qaraman, Xəlitli, Şıxəmir, Aşağı Qaraməryəm və Hüngütlü kəndlərinə təbii qaz çəkilişinə başlanılıb. Göyçay-Ucar avtomagistralından rayonun Müskürlü və Qəbələ-Müskürlü kəndlərinə, Mallı-Şıxlı kəndinə yeni asfalt yolu çəkilərək istifadəyə verilib. Elektrik enerjisi ilə təminatın yaxşılaşdırılması məqsədi ilə əsaslı yenidən qurulma işlərinə başlanıb. Belə ki, şəhər ərazisində 8 ədəd yeni transformator məntəqəsi quraşdırılıb. İstismar müddətini başa vurmuş elektrik xətləri yeni tipli kabellərlə əvəz olunur.





Onu da öyrənirik ki, şəhər, qəsəbə və kənd bələdiyyələrinin Milli Assosiasiyalarının xətti ilə bu ilin yanvar-may ayları ərzində rayonun 1 şəhər və 25 kənd bələdiyyəsi ərazisində bələdiyyə vəsaiti hesabına aşağıdakı istiqamətdə işlər aparılıb. 35,6 km. kənddaxili yollar təmir olunub, 46,6 km. arx və bərə qazılaraq lil və çöküntülərdən təmizlənib, 30 min ədəd ağac və gül kolları əkilib, 1580 metr içməli su xətti üzərində təmir işləri aparılıb, 8 kənddə müxtəlif lahiyələr həyata keçirilib.

Ötən dövr ərzində şəhər bələdiyyəsi tərəfindən bələdiyyənin inzibati binasının 300 kv metr fasad hissəsində təmir işləri aparılıb, şəhər və kənd yaşayış məntəqələrində yol kənarı ərazilərdə 200 km məsafədə abadlıq, təmizlik, budama və ağartma işləri aparılıb.

Köməkçilər bildirdilər ki, rayondakı problemlərin həlli istiqamətində işlər görürlər. Son 4 ay ərzində rayonda təxirəsalınmaz tədbirlər həyata keçirilir, əhalinin sosial vəziyyəti yaxşılaşdırılır. Hər kəs ötən günlərlə müqayisədə fərqi hiss edə bilər. Artıq rayonda yolsuzluq problem yoxdur, içməli su problem də həllini tapıb. Belə görünür ki, digər problemlərin də həll ediləcəyi gün uzaqda deyil...

❑ **"Yeni Müsavat"ın Reportyor Qrupu Göyçay-Bakı**

YENİ MÜSAVAT
N 133 (6161) 20 iyun 2015

# "Dostluq" parkındakı villaları tikən şəxsin həbsinin pərdəarxası

**Dövlət başçısı İlham Əliyevin bir müddət əvvəl Bakıda "Dostluq" parkı ilə bağlı dedikləri məmurlar tərəfindən diqqət mərkəzində saxlanılır. Dövlət başçısının villalarla bağlı çıxışından dərhal sonra tikililərin sökülməsi, söküntüyə Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbovun şəxsən başçılıq etməsi, parkda mahnı sədaları altında ağacəkmə kampaniyasının keçirilməsi birmənalı qarşılanmır. Çünki dövlət başçısı sənədsiz evlərlə bağlı bir neçə dəfə sərəncam və tapşırıq versə də, aidiyyəti qurumlar və məmurlar bu tapşırığın icrasını hələ də ləngidirlər. Sənədsiz evlərin məsələsi bu günədək həllini tapmayıb. Paytaxtda isə 500 minə yaxın sənədsiz evin olduğu bildirilir.**

## Abutalıbovun sökdürdüyü mülklərin sahibləri hələ də şübhəli şəkildə susurlar; Tərlan Hüseynovun tutulması günahkar məmurları qorumağa xidmət edə bilər

H.Abutalıbovun söküntü zamanı dedikləri isə narahatlıqla qarşılanıb. BŞİH başçısı bildirmişdi ki, parkın yaxınlığındakı villalar söküldüksən sonra bu işlər digər ərazilərdə də davam etdiriləcək. Ekspertlər isə bildirirlər ki, bu açıqlama paytaxtda növbəti söküntünün anonsu kimi də yozula bilər. Paytaxtda həyət evində yaşayan keçmiş deputat **Nazim Məmmədovun sözlərinə görə, H.Abutalıbovun açıqlamasını müsbət qarşılayıb:** "Hacıbala müəllim belə əraziləri, qanunsuz tikililəri sökməklə çox böyük iş görmüş olar. 8-ci kilometr ərazisində, bizim yaşadığımız yerdə, metro stansiyasının çıxışında, yaxınlığında onun özünün göz yumduğu kifayət qədər tikililər, kommersiya obyektləri var. Arzu edərdik ki, Hacıbala Abutalıbov onları söksün. Təkcə Nizami rayonu ərazisində deyil, paytaxtın başqa rayonlarında da bu problem var və ciddidir. Bakı Şəhər İcra Hakimiyyəti onları söksün, ətrafı şəhər səviyyəsinə salsınlar. Dövlət başçısının bu kimi məsələlərlə bağlı çox sərt davranışları olub, göstərişlər verib. Amma heç biri yerinə yetirilməyib. Yaşadığım evə gəldikdə isə şəxsi evdə yaşayıram: tam qanuni, icazəsi alınmış, sərəncamı qaydasında olan və mülkiyyət hüququ alınmış mülkdür. Heç bir problem görmürəm. Ancaq Hacıbala Abutalıbov etdiklərini kampaniyaya çevirməsin. Arxasında məmur durmayan iş adamlarının dükanlarını, sadə vətəndaşın evini sökməklə özlərini reklam etməsinlər, işlərini bitmiş hesab etməsinlər. Konkret adlar açıqlasınlar ki, qanunsuz tikililəri həyata keçirən hansı məmurlardır, iş adamlarıdır, kimin harada obyektləri var. Bizim bir müddət əvvəl apardığımız araşdırmaya görə, paytaxtda 450 min sənədsiz ev var. Mən həmin evləri qanunsuz hesab etmirəm. Onlar müvafiq sənədlərlə, korrupsiya mexanizmlərinin qurbanı olaraq tikilib. Prezident sənədsiz evlərlə bağlı göstəriş, sərəncam verib. Yenə də buna əməl olunmur. Camaatın gözünə məmurlar kül üfürməsinlər, kampaniya aparmasınlar, işlərini rüşvət almaqla bitmiş hesab etməsinlər".



**Bakıda həyət evində yaşayan daha bir tanınmış, "Xural" qəzetinin baş redaktoru Əvəz Zeynallı da Hacıbala Abutalıbovun həmin çıxışına qulaq asıb:** "Mən ona qulaq asmamışdan da hər zaman hər şey üçün təhlükə gözləyən adamam. Məsələn, indi avtomobili belə park etməyə yer yoxdur. Saatı 50 qəpiyə, fantastik qiymətə park pulu qoyublar. Hər zaman hər yerə girə, oranı dağıda, sökə, insanları - o cümlədən hamımızı küçələrə ata bilərlər. Bizə bir söz deməyiblər, bizim yerimizin sağlam olduğunu söyləyirlər, əksinə, buraları dövlət proqramına salıb düzəltmək, "Təmiz Binəqədi"nin bir hissəsi etmək istədiklərini deyirlər. Amma bunlara inanmaq olarmı?! Qoca "Sovetski"nin aqibətini görəndən sonra hər zaman, hər an o təhlükəni hamı yaşamalıdır, məncə. Təkcə həyət evlərinin yox, elə çoxmərtəbəli binaların da sakinləri... Allah göstərməsin, birdən kiminsə xoşuna gəldi yer - vəssalam, sökəcəklər. Əlim Allahdadır ki, yaşadığımız, doldurub-abadlaşdırdığımız yer heç kimin xoşuna gəlməsin... O zaman təhlükə də olmaz".

Qeyd edək ki, 19 mayda Binəqədi rayonu ərazisində baş vermiş faciəli yanğın hadisəsinin araşdırılması ilə bağlı yaradılan Dövlət Komissiyasının iclası zamanı prezident İlham Əliyev çox sərt çıxış edərək, açıq şəkildə ölkədəki bir sıra qanunsuzluqların və özbaşınalıqların başında vəzifəli şəxslərin, məmur korpusunun durduğunu bildirib. O, hətta buna misal kimi, Səbayel rayonu ərazisində yerləşən "Dostluq" parkının ərazisinin qanunsuz zəbt olunması və orada villalar tikilməsini göstərib. İki gün əvvəl sözügedən parkdakı villalarla bağlı bir nəfər həbs edilib. Həbs edilən şəxsin ad-soyadı Tərlan Hüseynovdur. Hazırda T.Hüseynovun istintaq altında olduğu deyilir. O da bildirilir ki, Tərlan Hüseynovun həbsi qanunsuz torpaq satışında əli olan şəxsləri bərk təşvişə salıb. Ekspertlərə görə, həbslərin davam edəcəyi də istisna deyil.

Maraqlısı odur ki, zəbt olunmuş ərazidə milyonlarla qiymətə başa gələn villalar tikilib. Aparılan araşdırmalar zamanı həmin villaların kimə məxsus olduğu üzə çıxmayıb. Dövlət başçısının məlum çıxışından sonra villaların sahibləri yoxa çıxdılar. Maraqlıdır ki, həmin villaların kimə məxsus olmasından nə Bakı merinin, nə də Səbayel Rayon İcra Hakimiyyətinin xəbəri olub. Hazırda Azərbaycanda bu tipli yerlərin çox olduğu danılmaz faktdır. Bəzi ekspertlər hesab edirlər ki, məhz bu parkın diqqət mərkəzinə gətirilməsi ilə yüksək rütbəli məmurların bəzilərinə xəbərdarlıq edilir.

Məsələnin ən qəribə tərəfi odur ki, "Dostluq" parkındakı villaların sahiblərinin ad-soyadları hələ də ictimaiyyətə açıqlanmır. Onlarla ev söküldü, amma buna 5 nəfərin etiraz bildirməsinin şahidi olmadıq. Bu mübhəmlik istər-istəməz işin içində iş olduğuna dair şübhələrin yaranmasına səbəb olur. Sanki "Dosqluq" parkındakı yaşayış massivini yad planetdən gələn məxluqlar salıb. Milyonlarla manat qiyməti olan villaları paralel dünyalardakı canlılar inşa edib. Görünür, "Dostluq" parkındakı villalarla, onların sahibləri ilə düşmənçiliyin ciddi səbəbi var. Ona qalsa Bakıda o qədər qanunsuz yaşayış massivləri var ki... 40-50 illik yaşıllıqları məhv edib ərazisini satan icra başçıları, bələdiyyə sədrləri cəzalandırılmayıb. Görünür, Tərlan Hüseynovun həbsi məsələnin çox da ictimailəşməsinin qarşısını almaq üçün nəzərdə tutulub.

**Mövzunu davam etdirəcəyik.**

**❑ Röya RƏFİYEVA**

# Binəqədidəki yanğından 1 ay ötdü

## Faciə ilə bağlı həbs edilən icra başçısının keçmiş müavininin həbsdən buraxıldığı iddiası var

**Binəqədidə 15 nəfərin ölümünə, 56 nəfərin xəsarət almasına gətirib çıxaran yanğından 1 ay ötdü. Bu faciənin günahkarlarının cəzalandırılması məsələsində ictimaiyyətdə narazılıq var. Hətta belə bir iddia da var ki, yanğından dərhal sonra tutulan icra başçısı Xaləddin İsgəndərovun keçmiş müavini Qəzənfər Novruzov bugünlərdə ev dustaqlığına buraxılıb. Onu həbsdən dərhal sonra yanğınla əlaqədar binanın poliuretan materialla üzlənməsi işlərinə nəzarət funksiyalarını həyata keçirərkən yol verdiyi nöqsanlara görə tutmuşdular. 2012-2013-cü illərdə Xaləddin İsgəndərovun 1-ci müavini işləmiş Qəzənfər Novruzovun barəsində 4 ay müddətinə həbs-qətimkan tədbiri seçilmişdi. Məlum olmuşdu ki, Q.Novruzov sıradan biri deyil. O, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbovun yeznəsi, muxtar respublikanın daxili işlər nazirinin müavini Səbuhi Novruzovun qardaşıdır.**

Onun hakim partiyanın icra katibinin müavini Siyavuş Novruzovla da qohumluq əlaqələri var. Q.Novruzovun qardaşı Vaqif Novruzov da Bakı Yaşıllaşdırma Departamentinin müdiridir. Q.Novruzovun daha bir qardaşı Məhərrəm Novruzov isə Abşeronun sosial müdafiə fondunun rəhbəri vəzifəsində çalışıb.

Hələ iyunun əvvəllərində belə məlumat var idi ki, Q.Novruzovun vəzifəli qohum-qardaşları Vasif Talıbov başda olmaqla, onun azad olunması üçün çaba göstərirlər. Vəzifədən çıxarılmış Q.Novruzovun əvəzinə görülən işlərə birbaşa başçılıq edən şəxslərin həbs olunmasına da çalışırlar.

Q.Novruzovun həbsdən əvvəl Almaniyaya müalicəyə getməyə hazırlaşması haqda sənədlər toplanırdı. Belə mülahizələr da var idi ki, həqiqətən də onun səhhətində ciddi problem olub və daim müalicə olunub. Belə görünür ki, bunu əsas gətirməklə istintaqın qarşısında həbsdən azad edilməsi üçün qaldırılan məsələ öz həllini tapıb...



Beləliklə də Binəqədidəki binada baş verən dəhşətli yanğına görə həbs olunan yeganə və keçmişdə də olsa vəzifə daşımış şəxs də azad olundu.

Qalır əsl günahkarın tutularaq istintaqa cəlb olunması. Baş Prokurorluğun mətbuat xidmətinin rəhbəri Eldar Sultanov "Yeni Müsavat"ın sorğusuna cavab olaraq bildirmişdi ki, hazırda bu istiqamətdə işlər davam etdirilir.

Binəqədidə binadakı yanğından sonra əcaib mənzərə də ortaya çıxıb. Binanı üzləyən şirkətə müvafiq qurumların bu fəaliyyətlə məşğul olmasına icazə vermədiyi aydınlaşıb. Necə ola bilər, bina üzlənir, amma icra başçısının bundan xəbəri yoxdur? Azərbaycanda bu mümkündürmü? Bəs binanın üzlənməsinə dövlət büdcəsindən vəsait ayrılıbmı?

**"Yeni Müsavat" bu və digər suallara aydınlıq gətirilməsi üçün mayın 23-də Maliyyə Nazirliyinə informasiya sorğusu yollayıb.**

**Həmin sorğuda aşağıdakı suallara aydınlıq gətirilməsi istənilib:**

*1. Binəqədi rayonunda binaların üzlənməsinə dövlət büdcəsindən 2015-ci ilə qədər hər il nə qədər vəsait ayrılıb?*

*2. Vəsaitin təyinatı üzrə xərclənib-xərclənməməsinin auditi hansı nəticələr verib?*

*3. Ayrılmış vəsaitdən bilavasitə yanmış binanın üzlənməsinə nə qədər vəsait xərclənib?*

*4. Həmin binaya ayrılan vəsaitin təyinatı üzrə xərclənib-xərclənməməsinin auditi həyata keçirilibmi?*

*5. Keçirilibsə, nəticəsi necə olub?*

Maliyyə Nazirliyinin mətbuat katibi, informasiya azadlığı üzrə məsul şəxs Mais Piriyev müvafiq araşdırmalardan sonra sorğumuza mayın 29-da cavab verəcəklərini bildirmişdi. Lakin naməlum səbəbdən sorğumuz cavabsız qalıb. Maliyyə Nazirliyinin sorğumuzu cavabsız buraxması qanunlara sayğısızlıqdır. Bununla yanaşı, binanın üzlənməsinə ümumiyyətlə vəsait ayrılmaması haqda iddiaların doğru olmasına da ciddi əsaslar verir. Belə çıxır ki, binanın üzlənməsinə büdcədən pul ayırmayıblar. Bəs pul haradandır...?

Nəzərə çatdıraq ki, daha əvvəl Xətai rayonunda baş verən yanğınla əlaqəli "TNH" şirkətinin səlahiyyətliləri Fərid Sadıqov, şirkətin direktoru Zaur Əşrəfov, şirkət direktorunun tikinti işləri üzrə müavini Nüsrət Muxtarov həbsdədirlər. Həbsdən azad edilən X.İsgəndərovun keçmiş müavinindən fərqli olaraq onlar barələrində seçilən 4 aylıq həbs-qətimkan tədbiri dəyişdirilməyib. Yada salaq ki, Binəqədidə və Xətaidə binalarda baş verən yanğınlarla bağlı işlər eyni icraatda birləşdirilərək Baş Prokurorluğun Ağır Cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsində araşdırılır.

**❑ E.MƏMMƏDƏLİYEV**

YENİ MÜSAVAT
N 133 (6161) 20 iyun 2015



# “Məni kimsəsiz görüb oğlumun qanını batırırlar”

## Gədəbəydə öldürüldüyü iddia olunan hərbçi ilə bağlı şok təfərrüatlar; mərhum hərbçinin anası “Yeni Müsavat”a tükürpədici faktlar açıqladı

**“Yeni Müsavat”ın 28 may sayında N saylı hərbi hissənin Gədəbəyin Qartal II (Alagöllər) deyilən bölüyündə müddətdən artıq xidmət keçən (MAXE) hərbi qulluqçu Miriyev Səməd Əli oğlunun müəmmalı ölümü ilə bağlı yazı getmişdi. 25 yaşlı mərhum hərbçinin yaxınları onun MAXE yoldaşları tərəfindən öldürüldüyünü iddia edirdilər.**



**Redaksiyamıza kömək üçün yenidən müraciət edən mərhumun anası Məmmədova Ərkinaz oğlunun qətlinin ört-basdır edilməsinə dair şok faktlar açıqladı. O, cinayət işinin araşdırılması ilə bağlı tutduğu vəkilə müstəntiq və Hərbi Prokurorluq tərəfindən təzyiqlər edildiyini bildirdi:** “İki balamı bədbəxt etdilər. Birini toysuz qoydular, birini də öldürdülər. Sağ qolumu kəsdilər. Ailədə işləyən kimsə yoxdur. Qazax Hərbi Prokurorluğunda 125-ci maddə ilə qondarma cinayət işi açıldı, guya istintaq aparıldı. Prokuror Şahin Zamanovun biabırçılığına görə şikayətlərim əsasında iş Ağır Cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsinin icraatına verildi. Yenə də iş qanun pozuntuları ilə aparılır. Açıq şəkildə qətli ört-basdır etmək istəyirlər. Cinayətkarlar azadlıqda gəzir, oğlum isə qara torpaq altındadır. 18 iyun tarixində məni Ağır Cinayətlərə çağırdılar. Prokuror Şəfayət müəllim məndən vəkilin ad-soyadını soruşur. Guya ki, vəkil ərizələri düzgün yazmır. Dedim ki, sənin bu ərizələr nəyinə gərəkdir? Oğlumun qatillərini cəzalandırın. İstintaqın düzgün aparılmasını tələb edirəm. Deyirəm ki, oğlumun meyiti üzərində yenidən ekspertiza aparılsın. Çünki ilk ekspertiza rəyi düzgün deyil. Yalandan mənə deyir ki, vəkil səndən çoxlu pul alır. Dəhşət məni bürüyür. Açıq şəkildə mənasız söhbətlərlə cinayəti bağlamaq istəyirlər”.

**Mərhum MAXE-nin anası oğlunun ölümü ilə bağlı yeni versiyalar səsləndirdi:** “Oğlum noyabr ayında Gədəbəy rayonunda müddətdən artıq hərbi xidmətə getdi. 5 aydan sonra aprelin 21-də MAXE yoldaşları tərəfindən öldürülmüşdü. Qətlə yetirildiyi gün saat 12-də qardaşı ilə danışaraq, bəzi ləvazimatlar istəmişdi. Axşam tərəfi saat 16:30-da isə bu hadisə törədilib. Həmin vaxtda qardaşına yazdığı mesajda bu sözləri deyib: ”Qaqam, mən ölürəm, heyfimi leytenant Cavadov, MAXE Əbilov, Qarayev və Hacıyevdən alarsınız. Ölümümə bu şəxslər səbəb oldu. O boyda Gəncədə mənə güc gələn olmadı, bunlar birləşdilər ki, məni sındırsınlar, amma alınmadı. Axırda birləşdilər mənə qarşı oldular. Dava düşdü və son cümləmdir, bağışlayın". Oğlum Nicat ona zəng edəndə telefonu Hacıyev götürüb və dərhal söndürüb. Bütün bunlar çox şeyin sübutu deyilmi? Oğlumun meyitini iki MAXE ilə evə gətirdilər. Heç bir köməklik etmədən zor gücünə dəfn etdilər. Razı deyildim dəfn olunmağına. Çünki bilirdim ki, öldürülüb. Amma zor gücünə etdilər. Oğlumun ölümünün ertəsi gün Qazax Hərbi Prokurorluğuna getdim. Prokuror Şahin Zamanov heç bir ekspert rəyi olmadan dedi ki, oğlun intihar edib. Dəhşət bürüdü. Oğlumu öldürən şəxslərdən olan Qarayevə postda meyitin şəklini çəkdiriblər. İzi itirmək üçün. Qətl olan yerə müstəntiq-filan getməyib. Çəkilən şəkillər üzərində istintaq başlayıb. Bu nə deməkdir? Cinayətdə ittiham olunan Qarayevin şəkilləri istintaq üçün keçərli oldu? Dünyada belə analoqu olmayan ədalətsizlik yoxdur. Şahin Zamanov utanmadan cinayətkarın çəkdiyi şəkillərə əsaslanır. Məni kimsəsiz görüblər. Ona görə də oğlumun qanını batırırlar. Müstəntiqlə əlbir olub ekspertiza da rəyi səhv yazdı. Burnunun qırığını iki gün öncə yazdı, belinin göyünü isə ölü ləkəsi kimi qeyd etdilər. Buna görə də təkrar ekspertiza tələb edirəm. Amma sözümə məhəl qoyan yoxdur. Çünki cinayətlərinin üstünün açılacağını yaxşı bilirlər. Məni mənasız yerə rayondan Bakıya çağırırlar. Kasıb adamam, 10 manata işləyirəm. Onu da yolpulu edirəm. Bura gələndə vəkili soruşurlar məndən. Vəkilə təzyiq göstərmək istəyirlər. Sizləri ölüm, yoxsa vəkil maraqlandırır? Oğlumun üzərindən alver edirlər. Bu insanlıq deyil. İşin düzgün aparılmasını tələb edirəm. Bunlar cinayətdə maraqlıdılar. Oğlumun günahsız tökülən qanından pul qazanırlar".

**Ə.Məmmədova ölkə rəhbərliyinə müraciət etdi:** “Cənab prezidentdən, Mehriban xanımdan, Zakir Qaralovdan və yüksək vəzifəli bütün şəxslərdən fəryadı göylərə qalxmış bir anaya kömək istəyirəm. Oğlumun qanını yerdə qoymayın. Süpürgəçiliklə, sür-sümüklə bala saxladım. Şəmkirdə şadlıq sarayında işləyirəm. Bütün şadlıq sarayının işçiləri məni və oğlumu yaxşı tanıyırlar. Onlar məndən çox oğlumun ölümünə əzab çəkirlər. Amma aidiyyəti orqanları maraqlandırmır. Oğlumu öldürən MAXE-lərdən biri həbs olunub. Rəhbərlik deyir ki, oğlunun ölümünə görə onu həbs etməmişik. Guya hərbi hissədə olan özbaşınalıqlarla bağlı saxlanılıb. Oğlumun ölümü həyatımı məhv etdi. Cənab prezident, özünüz bu işə nəzarət edin. Səsimə-səs verən yoxdur. O balanı əziyyətlə saxladım. 25 il əziyyət çəkmədim ki, sonda öldürülsün. Oğlum ölümünə səbəb olanları göstərib. Niyə cinayətkarı tapıb, ortaya çıxarmırlar? Oğlumun yerinə yazdırdıqları pulları başıma qaxırlar. İmkan edib pullarını özlərinə qaytaracam. Guya mənə mağar gətirdilər. Səhəri gün mağar sahibi 800 manat pul aldı. Bunlar rəzalətdir. Bu, hərbiyə qarşı olan hörmətsizlik deyilmi? Bunları mən götürsəm də, Allah götürməz. Bir gənci öldür üstümə göndər, sonra da de ki, özünü vurub”.

**Mərhumun anası oğlunun öldürülən zaman oğurlanan telefonundan da danışdı:** “Oğlum öldürülərkən Hacıyev Camal onun üzərindəki ”Blackberry" markalı telefonu oğurlayıb. Digər telefon isə müstəntiq Şahəddin Kələntərovdadır. Ərizə yazıram ki, oğurlanan telefon da istintaqa əlavə edilsin. Qəbul etmirlər. Belə haqsızlıq olmaz. Bu nə istintaqdır? Cinayətin araşdırılması zamanı çirkin əməllərə yol verilir. İş aparan şəxslərdən birinin övladı bu şəkildə öldürülsə, beləmi reaksiya verər? Bütün bunlar prokuror Şahin Zamanovun gözləri qarşısında baş verir. O, oğlumun istintaqını öz istədiyi şəkildə aparmağa çalışır və buna uyğun nəticə qazanmağa çalışır".




**Şikayətçi oğlunun silahının uzun olduğunu, bununla insanın özünü öldürməsinin mümkünsüz olduğunu söylədi:** “Oğlumun silahı uzun olub. Yalnız ayaq barmağı ilə tətiyi çəkməklə özünə qəsd edə bilər. Belə olduqda isə güllə aşağıdan yuxarıya getməlidir. Amma güllə övladımın ürək nayihəsindən girib, 7 santimetr aşağıdan çıxıb. Bununla oğlumun özünə qəsd etməsi faktı puça çıxır. Şahin Zamanov bunu bildiyi halda, yenə də susdu. Təzədən ekspertiza müraciətim isə rədd edildi. Oğlumu izi itirmək üçün snayperlə vurublar. Çünki o, bu növ üzrə atıcı idi. Bədənində çoxlu sayda xəsarətlər var idi. Ekspertin rəyi gələndə heç biri qeyd olunmamışdı. Əvvəlki müsahibəmdə sizə bildirmişəm, yenə də deyirəm. Oğlumun öldürülməsində leytenant Elməddin Zeynalov və qərargah rəisi Elşən Zeynalovun da əli var. MAXE-ləri onlar tutub, oğlumun ölümünü təşkil ediblər. Allah böyükdür. Bu cəza yerdə qalmayacaq. Hər kəsdən dəstək gözləyirəm”.

❑ **Cavanşir ABBASLI**

# Binəqədidə şəhid ailəsinə hörmətsizlik



**Səkkiz il əvvəl şəhid xanımı, məcburi köçkün Aidə Tağıyeva öz pulu ilə yaşamaq üçün Biləcəri qəsəbəsində, Məmiş Abbasov 16 ünvanında yarımzirzəmi bir mənzil alıb. Üstündən illər keçəndən sonra bu yarımzirzəmi uçaraq yararsız hala düşüb. Axırıncı dəfə Bakıya yağan yağışdan sonra isə mənzildə yaşamaq çox təhlükəli olub. Siçovulların məskən saldığı mənzillərini öz hesablarına təmir etdirərək zirzəmini normal bir evə çevirmək üçün ailə icra hakimiyyətinə müraciət edib. Bütün hadisələr də bundan sonra başlayıb. Ailədən böyük rüşvət tələb olunub! İstənilən rüşvəti verməyə imkanı olmadığından ailə köhnə tikintilərdən sökülən kərpiclə mənzillərinin divarını hörməyə başlayıb. Amma rüşvət tələb edənlər buna imkan vermirlər.**

Qaziler.az saytının yazdığına görə, Şəhid Ailələrinə Sosial Dəstək İctimai Birliyinin sədri Almaz Zeynalova təşkilatın üzvləri ilə hadisə yerində olublar. Şəhid ailəsi rüşvət vermədiyi üçün tikintiyə mane olan Binəqədi Rayon İcra Hakimiyyətinin Biləcəri qəsəbəsi üzrə nümayəndəsi İbad İbrahimov şəhid ailələri ilə çox kobud davranıb, hətta onları təhqir etməkdən belə çəkinməyib! “Bu adam hər kəlməsinin başında şəhid ailəsini, şəhidin balasını təhqir edirdi... Deyir ”Mən şəhid tanımıram!" Binəqədi Rayon İcra Hakimiyyətində də olduq. Eyni hörmətsizliyi orada da gördük. Deyirlər ki, İbrahim İbrahimov elə söz deməz! Öz gözümüzlə gördüyümüz, eşitdiyimiz hadisəni danırlar!"

**A.Zeynalova Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin şəhid ailələrinə, Qarabağ əlillərinə çox böyük önəm verdiyini, amma yerli məmurların şəhid adına hörmətsizliyindən giley etdi:** “Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev şəhid ailəsinin problemlərinin həlli üçün çox vacib sərəncamlar, fərmanlar imzalayıb, tapşırıqlar verir. Məmurları bu qəbildən olan insanlara qarşı diqqətli və ədalətli olmağa çağırır! Amma yerli məmurların özbaşınalığı səngimir, dayanmır. Ələlxüsus da son zamanlar şəhid ailələrinə qarşı çox böyük biganəlik, hörmətsizlik başlayıb. Şəhid ailələri ya dövlət orqanlarına yaxın düşə bilmir, düşəndə isə bürokratiya, süründürməçiliklə üzləşirlər. Hazırda Binəqədi rayonu, Biləcəri qəsəbəsində biz bunun şahidi olduq”.



YENİ MÜSAVAT
N 133 (6161) 20 iyun 2015

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**

# Rus general ermənilərin kefinə niyə soğan doğradı?

## Qarabağ münaqişəsi ilə bağlı hərəkətliliyin artdığı dönəmdə Bordyujanın İrəvana vurduğu tərs sillənin sirri



**Bakı-Moskva yaxınlaşmasını özü üçün böyük təhlükə hesab edən işğalçı Ermənistan Putinin Azərbaycana son səfərindən və burdakı görüşlərindən xeyli təşvişə düşüb. Üstəlik, Rusiyanın Azərbaycana silah-sursat, hərbi texnika satışını yüksək səviyyədə davam etdirməsi təcavüzkarlıq niyyətlərindən daşınmaq istəməyən İrəvanın yuxusunu qaçırıb.**

Bu arada məlum oldu ki, Rusiyanın "Uralvaqonzavod" Dövlət Konserni Azərbaycanın sifariş verdiyi 100 ədəd T-90S tankının hamısını təhvil verib. Tankların çatdırılması bir neçə ay əvvəl yekunlaşıbmış. Hazırda istehsalçı müəssisəyə ehtiyat hissələrin çatdırılması işi gedir. "Gördüklərimizdən çox məmnunuq. Azərbaycan tankçıları qısa müddətdə T-90-ların istismarını mənimsədilər. Bizdə olan məlumata görə, hətta təlimlərdə yeni tankları tətbiq ediblər", - deyə UVZ rəsmisi bildirib.

Qeyd edək ki, bundan əvvəl Azərbaycanın Rusiyaya sifariş verdiyi 9K123 "Xrizantema-S" tank əleyhinə özüyeriyən raket kompleksinin ilk partiyasının da artıq Bakıya təhvil verildiyi xəbəri yayılmışdı. Ermənistanın narahatlığı isə Moskva-Astana-İrəvan telekörpüsündə də özünü büruzə verib. Erməni təmsilçilərdən birinin bununla bağlı Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) sədri Nikolay Bordyujaya ünvanladığı sual İrəvandakı ovqatın inikası sayıla bilər. Erməni jurnalist Bakı ilə əməkdaşlığın İrəvan-Moskva müttəfiqliyi və dostluğuna xələl gətirdiyini desə də, cavabını alıb. Bordyuja Rusiyanın Azərbaycana silah satışında paritet prinsipinə əməl etdiyini söyləyib ki, bu da dolayısı ilə İrəvandakılara "sakit oturun" mesajı verməkdir.

Hələ Gümrüdəki qanlı hadisələrdə də ruslar anti-Rusiya çıxışları edən ermənilərə keçmişi unutmamağı və əslində qudurmamağı tövsiyə etmişdilər, Rusiyanın olmadığı halda onların Azərbaycanın qarşısında yesir günə qalacağı xəbərdarlığını vermişdilər...

*****

Bordyuja bir sıra hallarda Azərbaycana toxunan mövqedən çıxış etdiyi halda, bu dəfə fərqli davranıb, ermənilərin kefinə soğan doğrayıb. Bunun səbəbləri barədə müxtəlif təxminlər var. Düzdür, rus general "Qarabağ münaqişəsinin hərbi yolla həlli yolu yoxdur" da deyib. Lakin erməni general da yaxşı bilir ki, Azərbaycan Rusiyadan milyardların müqabilində aldığı silahı, hərbi texnikanı muzeyə qoymaq üçün almır. Üstəlik, Azərbaycanın ictimai rəyi artıq hakimiyyətdən torpaqların azadlığı ilə bağlı konkret hərəkətə keçməyi tələb edir. Hətta gələn ay Qarabağ müharibəsi veteranlarının bununla bağlı ümumrespublika müşavirəsi keçiriləcək.

Bunu zəruri edən məsələlər də var. Çünki erməni geri çəkilmək istəmir, hətta xarici ölkələrdən və təşkilatlardan "işğala son qoy" çağırışı gəlsə də. Digər tərəfdən, Azərbaycanı rüsvayçı sülhə vadar etmək cəhdləri də az deyil. Necə ki, NATO Parlament Assambleyasının İrəvanda keçirilən "Rose-Roth" 89-cu seminarının iyunun 19-da keçirilən toplantısında ATƏT-in Minsk Qrupunun Fransadan olan keçmiş həmsədri Jak For deyib ki, Dağlıq Qarabağı Azərbaycana qaytarmaq mümkün deyil. Ermənipərəst diplomatın sözlərinə görə, Qarabağın erməni əhalisi öz statuslarını dəyişmək istəmir: **"Bu mənim şəxsi fikrimdir. Ancaq aydındır ki, əldə edilən nəticələrə əsasən fikir bildirilməlidir. Mən şəxsən ümid edirəm ki, bunu etmək mümkün olacaq"(modern.az).**

*****

Belə olan təqdirdə Azərbaycan sonuncu varianta - silaha əl atmalı olacaq. Bütün bunların fonunda Bordyujanın mesajlarının hansı perspektivdən xəbər verdiyini analitiklərimizlə dəyərləndirdik.

**Milli Məclisin Təhlükəsizlik və müdafiə məsələləri komitəsinin üzvü Zahid Oruc "Yeni Müsavat"a bildirdi ki, Bordyujanın bəyənatları bir qayda olaraq regional hərbi-siyasi gərginlik dövrlərinə düşür və əksər hallarda Ermənistanın məruz qaldığı sarsıntıları bloklamağa xidmət edir:** "Azərbaycan dövlət rəhbərliyi səviyyəsində Ermənistana hücum etməyi və tarixi torpaqları güc yolu ilə qaytarmağı nəzərdə tutan bəyanatları heç vaxt verməyib. Ona görə də müharibə başlayarsa, kollektiv təhlükəsizlik məramını əsas tutub rəsmi İrəvan tərəfindən əməliyyatlarda iştirak edəcəyini bildirmək əslində təhdid və hədələmə xəttidir. Çünki Qarabağ Ermənistanın tərkib hissəsi deyil və sonuncu Avrasiya İqtisadi Birliyi formatı da məlum hüquqi reallığı növbəti dəfə təsdiqləyib. Belə olanda Bordyujanın açıqlamalarındakı gizli hədəfin təkcə Azərbaycan olmadığı üzə çıxır".

**Z.Orucun fikrincə, təəssüf ki, onlar bu açıqlamalarında Türkiyəni nəzərdə tuturlar:** ""Rusiya NATO-su"nda Azərbaycanın 2-ci Qarabağ savaşına əl atacağı təqdirdə rəsmi Ankaranın fəal bir şəkildə ona hərbi yardım edəcəyi və özünün sərhədlərindən ermənilərə zərbələr vuracağı haqqında ehtimallar mövcuddur. Ona görə də Bordyuja mütəmadi qaydada regional təhlükəsizliyi nəzarət altında saxladıqlarını nümayiş etdirmək üçün belə ikibaşlı siyasi demarşlar edir. Digər tərəfdən, münaqişənin yenidən qızışması Ukraynadakı qanlı toqquşmaların inkişaf etdiyi ssenarinin təkrarlayacağı bəyanatını da birmənalı qarşılamaq olmaz. Doğrudur, 90-cı illərdən fərqli olaraq Ermənistan və Azərbaycan arasında yeni konfrontasiya insan itkilərinin və iqtisadi dağıntıların miqyasına görə qat-qat artıq olar. Ölkəmizin elə Rusiyadan aldığı silahların hədəfi vurma məsafəsi və texniki xarakteristikası 25 il əvvəlki dövrlə müqayisə olunmayacaq dərəcədə güclüdür və Azərbaycan öz hərbi arsenalını artırmaqda davam edir. Lakin görünür, Bordyuja kimi professional çekistin diliylə cəmiyyətlərə mesaj verilir ki, silahlar müharibədə istifadə üçün deyil, sadəcə, iki ölkənin arasında inkişaf edən münasibətlərin bir hissədir. Bununla da Ermənistan xalqına Rusiya ilə Azərbaycanın arasında formalaşan yeni münasibətlərdən qorxmamasını təlqin edirlər, üstəlik, qərbpərəst erməni qüvvələri neytrallaşdırmağa çalışırlar".

**Z.Oruc əlavə etdi ki, indi regionda fərqli vəziyyət formalaşıb:** "Ənənəvi müttəfiqlər siyasəti keçmişdəki kimi effektli işləmir. Türkiyə Cənubi Qafqazda fəal bir oyunçuya çevrilib. Ona görə ermənilər Ankara-Moskva və Bakı arasındakı tarixi qarşıdurmalardan faydalana bilmirlər. Məhz buna görə də Bordyuja əslində yeni geoplotik konfiqurasiyanın başa çatmadığını görür və hələ ki əvvəlki ritorikasına düzəliş etmir.



**Zahid Oruc:**
"Sabah Kremldən əmr gəlsə, birinci KTMT torpaqların boşaldılması üçün İrəvana təzyiqlər göstərəcək"

Lakin sabah Kremldən əmr gəlsə, birinci KTMT Qarabağda torpaqların boşaldılması üçün İrəvana təzyiqlər göstərəcək. Amma bu perspektivin yetişdiyini deyənlər nəzərə almırlar ki, Ukraynada qələbə qazanmadan Rusiya Qafqazlarda dəyişiklik etməyəcək".

**Siyasi şərhçi Arzu Nağıyev düşünür ki, Bordyujanın bəyanatı və Rusiya ilə sonuncu silah satışı ilə bağlı müqavilələr, necə deyərlər, medalın görünən tərəfidir:** "Rusiya tək Azərbaycana silah satmır, onun bütün dünyada tərəfdaşları var və bunu açıq şəkildə bəyan edir. Görünməyəni odur ki, paralel olaraq Ermənistanda yerləşən 102 saylı bazaya da silah göndərir və sonradan bu silahın aqibətinin necə olduğu bəlli deyil".

**A.Nağıyev qeyd etdi ki, statistikaya baxanda Ermənistanın bizdən də çox silah-sursat aldığı bəlli olur:** "Həm də öz ərazisində tərəfdaşı olan bir dövlətin silahlı qüvvələri var. Yəni bu narahatçılıq erməni riyakarlığı kimi qiymətləndirilə bilər. Ermənilər ondan narahat ola bilər ki, Qərb və Rusiya Azərbaycanı karbohidrat və digər iqtisadi layihələrdə tərəfdaş kimi qəbul edir və bu proses getdikcə reallaşır. Bu gün nə Rusiyaya, nə də Qərbə iqtisadiyyatı tənəzzülə uğramış və gündən-günə siyasi və sosial narazılıqlara və iğtişaşlara gətirib çıxara biləcək Ermənistan gərək deyil. Sadəcə olaraq, Türkiyənin NATO üzvü olması və ümumu sərhədi Ermənistanla Rusiyanın tərəfdaşlığının mövcudluğuna gətirib. Rusiyanın çəkindiyi məqamlardan biri də Orta Asiyada baş qaldıra biləcək dini qüvvələrdir. Yəni Şərqdən də sığortalı deyil. Bütün bu amillərə görə Ermənistan narahatdır".



**Arzu Nağıyev:**
"Bu gün nə Rusiyaya, nə də Qərbə tənəzzülə uğramış Ermənistan gərək deyil, sadəcə..."

*****

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlunun sözlərinə görə, Ermənistan hakimiyyəti və siyasi dairələri Rusiya prezidentinin Azərbaycanla yaxınlaşacağından ehtiyat edir:** "Rusiya prezidenti Vladimir Putinin Avropa Oyunlarının açılışına qatılmaq üçün Bakıya səfəri və burada Azərbaycan və Türkiyə prezidentləri ilə apardığı ikitərəfli danışıqlar da Ermənistanda narahatlıqla izlənib. Ermənistanda düşünürlər ki, Rusiya Azərbaycanı Avrasiya İqtisadi Birliyinə üzv etdirmək üçün Dağlıq Qarabağ ətrafındakı rayonların boşaldılması məsələsində İrəvana təzyiq edəcək. Ermənistanda Rusiyanın Azərbaycana silah satmasından da narahatdırlar. Təsadüfi deyil ki, KTMT baş katibi Nikolay Bordyuja erməni jurnalistlərinin hər dəfə eyni "Rusiya Azərbaycana niyə silah satır" sualına cavab verir. Bordyuja bir başqa fikrini də təkrarlayıb ki, Ermənistan ərazisinə təhlükə olacağı təqdirdə KTMT bütün hüquqlarından istifadə edəcək".

**E.Şahinoğlu Bordyujanın digər bir fikrinə də diqqətlə yanaşmağın tərəfdarıdır:** "O, daha sonra Azərbaycana mesaj xarakterli belə bir fikir söyləyib: "Qarabağ münaqişəsinin hərbi yolla həll yolu mövcud deyil. Regionda müharibə başlasa, uzun müddət davam edəcək, çoxlu qan töküləcək. Bunu Rusiya yaxın qonşusu olan Ukraynanın simasında gördü". Başqa sözlə, rusiyalı diplomat rəsmi Bakını xəbərdar edir ki, Azərbaycan güc yoluyla torpaqlarını azad etmək istəsə, Rusiya Azərbaycana Ukraynadakı problemləri yaşadacaq. Ancaq Krım, Donbas, Abxaziya və Cənubi Osetiyadan fərqli olaraq Rusiyanın Dağlıq Qarabağla sərhədi yoxdur. Rusiya nə etsə, Ermənistan üzərindən edəcək. Azərbaycanın Dağlıq Qarabağa qoşun yetirmək fikri yoxdur, bizim indiki mərhələdə əsas hədəfimiz Dağlıq Qarabağ ətrafındakı torpaqların boşaldılmasına nail olmaqdır. Ona görə də Bordyujanın dediklərinin bizə aidiyyəti yoxdur".



**Elxan Şahinoğlu:**
"Müharibə başlasa, Azərbaycan Rusiyadan aldığı silahlardan istifadə edəcək, Ermənistanın isə həmin silahlardan istifadə hüququ yoxdur"

**Digər tərəfdən, politoloq qeyd etdi ki, Kreml bir məqama da diqqət yetirməlidir:** "Rusiya bilməlidir ki, biz Dağlıq Qarabağ ətrafındakı torpaqları boşaltmağa başlasaq və bu zaman Rusiya müharibəyə müdaxilə etsə, qarşısında təkcə bizi yox, bizim strateji müttəfiqlərimizi də görəcək. Ukraynanın Qərbdəki müttəfiqləri sözdə Kiyevə dəstək verirlər. Azərbaycana şimaldan və ya Ermənistan sərhədi üzərindən təhlükə yaranarsa, Rusiya şərqdən də çəmbərə alınacaq. Əslində Bordyujanın cavabları Ermənistan siyasi dairələrini və ictimaiyyətini qane etməməlidir. Çünki onun sözlərindən fərqli olaraq Rusiya Azərbaycana istənilən növ müasir silahlar satır. Azərbaycan Rusiyadan elə müasir silahlar ala bilər ki, onlar Ermənistanda yoxdur. Rusiya Azərbaycana silahı pulla satır və gəlir əldə edir, Ermənistandakı silahlarını isə öz hərbi bazalarında yerləşdirir. Məsələ burasındadır ki, Dağlıq Qarabağda müharibə başlasa, Azərbaycan Rusiyadan aldığı silahlardan istifadə edəcək, Ermənistanın isə həmin silahlardan istifadə etmək hüququ yoxdur. Çünki həmin silahlar Dağlıq Qarabağda müharibə aparmaq üçün yox, Ermənistanın təhlükəsizliyini qorumaq üçündür. Azərbaycanın isə Ermənistana hücum etmək kimi planı mövcud deyil".

Azərbaycan Respublìkasının Prezìdentì yanında Kütləvì İnformasìya Vasìtələrìnìn İnkìşafına Dövlət Dəstəyì Fondunun malìyyəsì əsasında. Səhìfənì hazırladı: Elşad PAŞASOY

YENİ MÜSAVAT
N 133 (6161) 20 iyun 2015

# Bakıda bu binanın sakinləri şüalanmaya məruz qalır

## 9 mərtəbəli binanın damına internet provayderlərdən biri yüksək gərginlikli ötürücü qurğu yerləşdirib












**Səbayel rayonu, Badamdar qəsəbəsi, Tofiq Məmmədov küçəsinin sakinləri yaşadıqları doqquzmərtəbəli yaşayış binasının lift problemindən əziyyət çəkirlər. Bununla bağlı şikayətlərini "Yeni Müsavat"a danışan sakinlər deyir ki, sovet dövründə, ötən əsrin 60-cı illərdə tikilən binanın liftləri demək olar ki, istismar müddətini başa vurub və qəzalı vəziyyətdədir: "Elə ay olmur ki, bir ya iki nəfər, qadınlar, azyaşlı uşaqlar liftdə köməksiz vəziyyətdə qalmasın". Sakinlərin sözlərinə görə, hətta burada dünyasını dəyişənlər də olub.**

Binada yaşayanlar vaxtaşırı pul yığaraq liftləri təmir etdirsələr də istismar müddəti bitdiyindən bunun da bir faydası olmur. Nəticədə yuxarı mərtəbələrdə yaşayanlar aylarla piyada qalxıb-enməli olurlar.

Qeyd edək ki, sözügedən bina qəsəbədə hərbi bina adı ilə tanınır. Sovet dövründə bu binanın hərbçi ailələri üçün tikildiyi iddia edilir.

Sakinlərin problemi ilə daha yaxından tanış olmaq üçün sözügedən binanın yerləşdiyi əraziyə baş çəkdik. Sakinlərin dediyi kimi, liftlər istismar müddətini başa vurmuşdu. Liftin əksər düymələri demək olar ki, işləmirdi, qapının açılıb-bağlanması zamanı da problem yaşanırdı. Liftin təmirsiz olması bir yana, içərisinin siqaret kötükləri ilə dolu olması sakinlərin də binaya laqeyd münasibətindən xəbər verirdi.

Binanın girişindəki təmizlik problemi də diqqətimizdən qaçmadı. Blokların qarşısı, sadə dillə desək, zibilxananı xatırladır. Sakinlər deyir ki, bina hərbi bina olduğundan heç bir mənzil istismar sahəsi bu binaya cavabdehliyi öz üzərinə götürmür. Hər ay sakinlərdən əmlak pulu adı ilə 20-25 manat pul yığılır, lakin binanın nə kommunal problemlərinə, nə də təmizliyinə heç kim cavabdehliyi üzərinə götürmür. Sakinlər ildə bir neçə dəfə özləri kommunal xətləri təmir edirlər.

Sakinləri liftin işləməməsindən daha çox narahat edən problem isə binanın 9-cu mərtəbəsinə internet provayderlərdən birinin yüksək gərginlikli ötürücü qurğusunun qanunsuz olaraq quraşdırılmasıdır. Binada yaşayanların sözlərinə görə, böyük bir qəsəbənin internet ötürücüsünün onların binası üzərinə yerləşdirilməsi sağlamlıqlarını ciddi təhlükəyə məruz qoyub. Sakinlər arasında baş ağrılarından əziyyət çəkənlərin sayı artıb. Dəfələrlə toplaşıb aidiyyəti qurumlara müraciət etsələr də, hər hansı nəticə verməyib. Hətta bu qanunsuz işin müəllifləri binanın 9-cu mərtəbəsində yaşayan ailələrə 150 min manat pul təklif ediblər. Bəziləri bunu qəbul etməkdən imtina etsə də razılaşanlar da olub, nəticədə ötürücülər yerləşdirilib.

**Bakıdakı əksər yaşayış binalarında yaşanan problemləri dəyərləndirən əmlak məsələləri üzrə ekspert Ramil Osmanlı "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, köhnə yaşayış binalarındakı problemlərin kompleks şəkildə həlli üçün dövlət proqramına ehtiyac var:** "Liftlərin işlək vəziyyətdə olmasına Bakı Şəhər İcra Hakimiyyəti nəzarət edir. Son illərdə yüzdən artıq binanın liftlərində yenilənmə işləri aparılıb. Sadəcə, sovet dövründən qalma binalarda lift üçün vurulan infrastruktur müasir tələblərə cavab vermir, vaxtaşırı sıradan çıxır. Binalarda yenidənqurma işləri apararkən bu infrastruktur müasir tələblərə cavab verməlidir. Lakin binaların texniki göstəriciləri, şaxtaların ölçüləri bu işi aparmağa imkan vermir. Bu səbəbdən belə problemlər ortaya çıxır, zaman-zaman insan tələfatı ilə, insanların psixoloji gərginlik yaşaması ilə nəticələnən qəzalar baş verir. Bu məsələ proqram şəklində hazırlanmalı və həyata keçirilməlidir".

**Ekspert vurğuladı ki, son zamanlar köhnə binaların sökülməsi ilə bağlı mətbuatda xəbərlər gedir:** "Yəqin ki, bu məsələlər də yaxın 3-5 il ərzində dövlət proqramına salınacaq və bütövlükdə həmin binalarda tikinti-quraşdırma, infrastrukturun bərpası işləri aparılarkən minimum yaşayış tələblərinə cavab verməsi də yoxlanılacaq".

**Ramil Osmanlı liftlərin istismar tələblərinə cavab verməsi məsələsinə bir çox dövlət qurumlarının da nəzarət etməli olduğunu bildirdi:** "Fövqəladə Hallar Nazirliyinin səlahiyyətindədir ki, liftlərlə bağlı vəziyyəti yoxlasın. FHN əsasən ilkin mərhələdə, yeni quraşdırılan liftlərin istismara verilməzdən öncə yoxlanılmasını həyata keçirir və istismar tələblərinə cavab verib verməməsi ilə bağlı rəy verir. Təbii ki, bu prosesə daxil olan qurum kimi FHN-in də məsuliyyəti var, ancaq liftlərin alınması, gətirilməsi, quraşdırılması məsələlərini birbaşa olaraq Bakı Şəhər İcra Hakimiyyəti həyata keçirir".

**Yaşayış binası üzərinə internet ötürücüsünün quraşdırılması məsələsinə isə Azərbaycan İnternet Forumunun prezidenti Osman Gündüz aydınlıq gətirdi:** "Mobil ötürücülərin baza stansiyalarının ötürücüləri şüalanmaya səbəb olur. Bu ötürücülərin müəyyən bir radiusda insan səhhəti üçün ziyanı var. Bu ötürücülər ya çox hündürdə, ya da yaşayış yerlərindən uzaqda quraşdırılmalıdır. Əgər hər hansı provayder yaşayış binası yaxınlığında şüalanmaya səbəb olan qurğu quraşdırıbsa, o, məsuliyyət daşıyır. Bu ötürücülər o zaman yaşayış binasının üzərinə yerləşdirilə bilər ki, xüsusi qurğu ilə bir neçə metr yüksəyə qaldırılsın. Ancaq daha çox yaşayış olmayan yerlərdə qoyulmalıdır. Yaşayış binasının damında internet ötürücüsünün quraşdırılması doğru deyil. Bu ötürücülərin quraşdırılması zamanı da müxtəlif qurumlardan razılıq alınmalıdır. Buraya Gigiyena və Epidemiologiya Mərkəzi, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Milli Təhlükəsizlik Nazirliyi və digərləri daxildir. Ötürücülərin yerləşdirilməsi üçün bu qurumların icazəsi lazımdır. Siz dediyiniz ərazidə isə bu icazənin alınıb-alınmadığı məlum deyil".

❑ **Nərgiz LİFTİYEVA**
**Fotolar: Məğrur SALMANOV**

## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

---

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclarının dərmansız müalicəsi

---

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

## Elan

**Təcili sərfəli qiymətə 4 otaqlı mənzil satılır.**

**Nərimanov Məhkəməsinin həyətində, Stalin layihəli daş binada 4 otaqlı əla təmirli mənzil satılır. 4/2, ümumi sahəsi 120 kv.m, kupe şkaf, geniş, işıqlı otaqları, döşəmə mozaika parket, mətbəx və digər bütün mebellər, böyük vanna otağı, cakkuzi, sakit, təmiz həyəti, parkovka yeri var. Qiyməti 190 min manat. Bundan əlavə 2 maşınlıq daş qaraj da satışdadır. (36 kv.m. qiyməti-50.000 AZN.) Mənzilin bütün sənədləri qaydasındadır, mebelləri ilə bir yerdə satılır.**

**Tel: (051) 984-90-63**

**Qəbələdə çox mənzərəli yerdə 60 sot sahəsi olan bir bağ satılır. Bağda 75 ədəd meyvə ağacı var. Hündür dağın düz ətəyindədir. Kvadrat şəklindədir. Qazı, suyu, işığı var. Bakı-Qəbələ yolundan 800 metr məsafədədir. Qiyməti razılaşma yolu ilə. Hissə-hissə ödəniş mümkündür.**

**Əlaqə telefonu: (055) 206-14-61**

**Qəbələ rayonunda tam işlək vəziyyətdə olan parket fabriki bütün avadanlıqları ilə birlikdə satılır. Qiyməti razılaşma yolu ilə. Hissə-hissə ödəniş mümkündür.**

**Əlaqə telefonu: (055) 206-14-61**

**Özəl tibb müəssisəsinə 3-5 saata gündə işləmək üçün təqaüddə olan, damara iynə vura bilən tibb bacısı tələb olunur.**

**Tel: (012) 437-88-05 (13:00-dan sonra)**
**(050) 312-72-92 (13:00-dan sonra 17:00-dək)**

**Sabunçu rayonu Şəhər Şossesi, Elşən Mehdiyev küçəsində 3,7 sot torpağın içində 4 otaqlı ev satılır. Ev Koroğlu metrosundan 5 dəqiqəlik yolda, Sabunçu körpüsünün yanında, Bakı Olimpiya stadionunun yaxınlığında yerləşir. Hər şəraiti (qaz-işıq), telefonu, interneti, xüsusi xətlə çəkilmiş daimi şirin suyu, həyətində 10 tonluq su hovuzu var. Evin ümumi sahəsi 120 kv.metrdir. Hamam-tualet evə bitişikdir. Evdən əlavə, həyətdə iki otaqlı yardımçı tikili var. Bir balaca əl gəzdirməklə tikilidən yaşayış məqsədilə də istifadə etmək mümkündür. Həyətdə həmçinin meyvə ağacları var. Qiyməti razılaşma ilə.**

**Telefon: 055 260 69 84.**

**Hyundai Sonata 2007, 10300 usd, probeq 98000 km originaldi, 2400 motor, 172 a.g. , qara, lyuk, kondisioner, ABS, merkezi qapanma, tekerleri tezedi, oz mashinimdi.Tecili satiram.Servis mashinidi. Mashinda problem yoxdu, udar gormeyib.**

**(050)-535-56-25 Eltay.**

## Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

**SƏLİMOV FƏRMAN**

Tel: (055) 776-70-34

YENİ MÜSAVAT
N 133 (6161) 20 iyun 2015

**Mübarək Ramazan ayının gəlişi ilə müsəlman ölkələrində inanclı insanların həyat tərzində dəyişiklik yaranıb, bəzi vərdişləri aradan qalxıb. Toyların olmaması isə bir çox sahələri tamamən iflic vəziyyətə salıb. Bu haqda bir qədər sonra...**

# Orucluq başladı, onlar da "ağlamağa" başladı...

## Ramazan ayında "ölü günlərini" yaşayan biznes sahələri hansılardır? Vüqar Bayramov: "Bu ay imkanlılara imkansızların vəziyyətini daha yaxından hiss etməyə imkan verir..."

**Hələliksə iqtisadçı Vüqar Bayramovun** Ramazan ayı ilə bağlı maraqlı iqtisadi təhlili barədə. Bu barədə sosial şəbəkədəki statusunda yazan iqtisadçı bildirir ki, Ramazan ayı imkanlı insanlara məhz maliyyə baxımdan imkansızların vəziyyətini daha yaxından hiss etməyə və yaşamağa imkan verir: "ABŞ-da il ərzində qadınlar 27,6, kişilər isə 11,1 milyard dollar vəsaiti kosmetik məhsulların alınması üçün xərcləyirlər. Bu rəqəm uyğun olaraq Fransada 10,2 və 4.2, Yaponiyada 19,8 və 5,9, Almaniyada isə 9,3 və 3.9 milyard dollardır. Dünyada qadınlar yalnız üz kremlərinə il ərzində 25 milyard dollardan çox vəsait xərcləyirlər. Bununla yanaşı, dünyada gündəlik gəliri 1.25 dollardan az olan 1 milyard insan kəskin yoxsulluq həddində yaşayır. 783 milyon insan isə hətta içməli su tapa bilmirlər. İnkişaf etmiş ölkələrdə bir xanım həyatı boyunca, sadəcə, kosmetik məhsulların alınması üçün 30 min dollardan çox pul xərclədiyi halda, Afrikanın və Asiyanın bəzi ölkələrində uşaqlar qida çatışmazlığından dünyalarını dəyişirlər. Qiymətləndirmələr göstərir ki, qənaət yolu ilə kosmetikaya xərclənən vəsaiti iki dəfə azaltmaqla dünyada yoxsulluq səviyyəsində yaşayan insanların sayını ən azı 30 faiz azaltmaq mümkündür. Deməli, dünyada bir tərəfdə 100 milyardlarla vəsaiti kosmetikaya xərcləyən imkanlı şəxslər, başqa tərəfdə isə gündəlik adi su və çörək tapa bilməyən və sayı milyarddan az olmayan insanlar var. Ramazan ayı məhz dünyadakı bu qeyri-bərabərliyi hiss etməyə, kasıbların yanında olmağa təşviq edir".




### Gözəllik salonları... Ağlamalı vəziyyətdə: "qadınlar toydan-toya bəzənirlər..."

Amma bunlarla yanaşı, yazının girişində dediyimiz kimi, bəzi sahələr Ramazan ayı boyunca ciddi kriz yaşayır. Bu da birbaşa toy sektoru ilə bağlıdır. Gözəllik salonları, kirayə maşın, kirayə paltar sahəsi, taksi xidməti, eləcə də ziyafət geyimləri mağazaları... bir ay boyunca "ölü günləri"ni yaşayacaq. Əməkdaşımız "Neftçilər" metrosu həndəvərindəki bir neçə gözəllik salonunda olub. Onlardan bəziləri artıq "illik təmir" adı altında ustalarını məzuniyyətə buraxıb, bəzilərində isə müştəri yoxluğundan ciddi əziyyət çəkdikləri müşahidə olunub.

**Salonlardan birində çalışan Hicran Zeynalova bildirdi ki, bir neçə ildir ki, orucluq ayı başlanan kimi işçilər bir aylıq məzuniyyətə çıxır. Müsahibimizin sözlərinə görə, bir neçə il öncəyə qədər hər orucluq ayında gözəllik salonu fəaliyyət göstərirmiş. Belə ki, həmin vaxt müştərilər az da olsa, salona müraciət edirdi:** "Gündəlik saç düzümü, saç kəsimi, manikür, pedikür üçün gələnlər vardı. Amma ildən-ilə ölkədə oruc tutanların sayı artdığından, hətta qadınlar da bu ayda özlərinə qulluq etməyə ərinirlər. Həm də bu il orucluq ayı iyuna düşdü. İnsanların çoxu istirahətdə, digər tərəfdən də toylar, şənliklər olmur. Bizim qadınlar da ancaq toydan-toya özlərinə bəzək verirlər".

**Müsahibimizin sözlərinə görə, ümumən son vaxtlar insanlar maddi çətinliyə görə gözəllik salonuna getməyi izafi xərc hesab edirlər. Belə ki, çox vaxt toy-şənliyə getməyə hazırlaşan qadın evindəcə, bacardığı formada özünü qaydaya salıb gedir:** "Fikirləşir ki, gedib salona 20 manat verməkdənsə, fenlə saçımı burum, makiyajı da sadə edim. Amma salonda bəzənmiş qadın evdə özünü bəzəmiş qadından dərhal fərqlənir. İndi hər varlı kişi öz həyat yoldaşına, sevgilisinə bir salon açıb, onu orda oturdur. Bizim bir çox ustalarımız da təzə salondu deyə bir də görürsən, axışıb ora gedir. Tezliklə də geri qayıdırlar. Çünki salon rəhbərinin bu sahədən başı çıxmayanda tezliklə ustanı da bezdirir, oradakı işçiləri də. Salon rəhbəri ya gündəlik normanı çox qoyur, ya da ustaya başları çıxmadığı halda göstərişlər verir. Bir-iki ay salonu işlədirlər, müştəri yığa bilməyəndə də qapını bağlayıb gedirlər".

### "Şalvar ayağı kəsmək, yubka beli düzəltməklə ailə dolandırmaq olmaz..."

Bu mövsümdə dərzilərin də işi zəif gedir. Dediklərinə görə, toy mövsümü zamanı qadınlar daha çox paltar tikdirir, ya da düzəltdirir. "Gənclik" metrosu həndəvərində, üzərində "Qadın atelyesi" yazılmış məkana daxil olub, onların da problemlərini öyrənməyə çalışıram. Gözlədiyim kimi, dərzi müsahiblərim bu aralar daha az gərginliklə çalışır.

**Usta Adilə xanım 30 ildir ki, dərzidir. Zarafatla deyir ki, nə yaxşı, indi keyfiyyətsiz paltar tikən tekstil firmaları var. Yoxsa dərzilər ac qalardı:** "Elə gün olmaz ki, əlində mağazadan aldığı paltarla içəri girməyə qadın olsun. Paltara baxırsan, materialı yaxşıdır, pis də tikilməyib. Amma çiyin ölçüsü belə, bel isə yanlara uyğun gəlmir. Ona görə də bəzən paltarı söküb əvəzinə yenisini tikməli oluruq. Vaxtilə ancaq varlılar sifarişlə paltar tikdirərdilər. Camaat "Volodarski" fabrikinin mallarını keçirirdi əyninə. Amma indi fabrik yox, yaxşı paltarın da qiyməti bahadır. Ona görə adamlar ucuz və ürəkləri istəyən kimi olsun deyə, dərziyə gəlirlər".

**Adilə xanım daha çox bir neçə uşaq bağçası ilə əməkdaşlıq etdiklərini dedi. Onun sözlərinə görə, həmin bağçalar şənliklər, bayramlar üçün ildə bir neçə dəfə mərasim keçirir ki, bu zaman da xüsusi qiyafələrə ehtiyac duyurlar:** "Onların sifarişini qəbul edirik. Ancaq həmin vaxt yaxşı pul qazana bilirik. Amma yubka ayağı kəsməklə, şalvar qısaltmaqla dolanmaq mümkün deyil".

### "Camaat toydan çıxır, əhvalı xoşdur, evə taksi ilə getmək istəyir"

**Taksi sürücüsü Nizaməddin də deyir ki, bu ay onlar üçün də sıxıntılı keçəcək. 3-cü mikrorayon dairəsində qərar tutan müsahibim toy mövsümündə müştərilərin aşıb-daşdığını söyləyir:** "Toydan xoş əhvalda çıxan adam evinə avtobusla, metro ilə qayıtmaq istəmir. Çox vaxt da qiymət söhbəti eləmir. Bizim dayandığımız həndəvərdə isə şadlıq sarayları az deyil. Elə gün olur ki, 100 manat qazancımız olur. Amma indi yay bir tərəfdən, orucluq o biri tərəfdən, şəhərdə də adamlar azalıb".

**Nizaməddin bəyin sözlərinə görə, qış ayları yayla müqayisədə daha az gəlirli sayılır. Çünki qışda qaranlıq düşən kimi insanlar evinə çəkilməyə üstünlük verir:** "Yayda isə adam elə hey gəzmək istəyir. Maşınsız gəzmək də xoş deyil. Amma bu ay işlər yaxşı getmir. Heç bilmirəm, maşının aylıq kreditini necə verəcəyəm".

**Sevinc TELMANQIZI**

# Cəmiyyətin sağalmaz yarası - yaltaqlıq...

## Psixoloq: "Bu, irsən keçən bir xəstəlikdir və arxasında da qorxu dayanır"

**Bu gün istər dövlət işlərində, istər özəl sektorlarda, istərsə də siyasət alanında, bir sözlə, istənilən sahədə yaltaq insanlara rast gəlmək mümkündür. Son vaxtlar yaltaqlığın gənclər arasında da geniş vüsət alması bunu sanki bir yoluxucu xəstəlik adlandırmağımıza əsas verir.**

Ümumiyyətlə, yaltaqlığın olmasının ən əsas səbəblərindən biri məhz mənfəət əldə etmək duyğusudur. Yaltaq adamın əsas xüsusiyyəti əslində zəngin olmadığı halda zəngin kimi yaşaması, imkanları olmadığı halda bahalı paltarlar geyməsi, lüks evlərdə ömür sürməsi və ailəsi maddi cəhətdən çətin vəziyyətdə olduğu halda özünün zəngin mühitdə yaşamasıdır.

Yaltaqlar bu imkanlara özlərinə hədəf seçdikləri şəxslərin dalınca gəzməklə sahib olmaq istəyirlər. Özlərinə dost seçdikləri bu insanın pulundan, çevrəsindən, evindən, avtomobilindən və sahib olduğu hər cür imkandan faydalanaraq yaşayırlar. Bunun qarşılığında isə yaltaqlandığı insanın hər işini görmək, onu tərifləmək, nəfsini razı salmaq, özünə olan etibarını möhkəmlətmək kimi vəzifələri olur.

Maraqlıdır, cəmiyyətimizin sağalmaz yarasına çevrilən bu yaltaqlığın qarşısını necə almaq olar, yoxsa söhbət əbədi problemdən gedir?

**Psixoloq Dəyanət Rzayev yaltaqlığın bir xəstəlik olduğunu və irsən keçdiyini dedi:** "Bəzən facebook sosial şəbəkəsində də görürük ki, hansısa bir şəxs dəyərsiz, heç bir əhəmiyyət daşımayan insana yaltaqlanmağa başlayır. Quranda yazılıb ki, heç kimi tərifləməyin, çünki Allahdan başqa heç kim tərifə layiq deyil. Əgər Quranda Allah-Təala bunu deyibsə, biz kimik ki, buna riayət etməyək?! Yaltaqlığın arxasında qorxu dayanır. Bu həyatda qorxudan pis heç nə yoxdur. Bəzən də görürük ki, insanlar mənasız yerə başlayırlar yaltaqlanmağa və tərifləməyə. Yaltaqlıq daha çox şərq insanına, müsəlman ölkələrinə xas olan bir şeydir. Biz təndə təhqir kimi yanaşırıq. İnsan bilə-bilə ki, yaltaqlandığı adam ona heç nə etməyəcək, amma yenə də məhz daxilində olan qorxuya görə yaltaqlanır. Yaltaqlıq bizim insanlarda alkoqolizm, narkomaniya kimi zərərli bir vərdişə çevrilib".



**Psixoloq yaltaqlığın daha çox savadsız insanlara xas olduğunu bildirdi:** "Bunun da arxasında primitiv qorxu, primitiv düşüncə dayanır. Savadsız insanlar özlərinə belə hesabat verə bilmirlər ki, mən bunu niyə etdim. Hansısa savadlı insan da kimisə tərifləyib yaltaqlanırsa, bilin ki, onunda arxasında mütləq nəsə durur və həmin şəxsdən umacağı nələrsə var. Bəzən televiziyada da görürük ki, verilişə hansısa rayondan, kənddən zəng edib aparıcını və ya müğənnini tərifləməyə, ona yaltaqlanmağa başlayırlar. Mən hərdən müşahidə edib görürəm ki, bizdə hər şey yaltaqlığın üzərində qurulub. Bəzən simic olan hansısa biznesmenə belə elə yaltaqlanırlar ki, adam məəttəl qalır. Bu insandan sənə bir xeyir gəlməyəcəyini bilə-bilə niyə boş yerə yaltaqlanırsan? Yaltaqlanmaq həm də boş-boş danışmaqdır. Yaltaqlıq rəsmi də olmasa mən onu bir xəstəlik adlandırardım. Yaltaq insanları heç vaxt heç kim sevməyib. Qədimdə padşahların, kralların da yanında həmişə yaltaqlar olub. Amma padşahlar onlardan yalnız özlərinə xarizma yaratmaq üçün istifadə ediblər. Amma onları heç vaxt adam yerinə qoymayıblar. Ona görə də deyirəm ki, yaltaqlıq bir xəstəlik, "infeksiya"dır. Bu "infeksiya" də atadan övlada, nəvəyə və s. keçir. Buna görə də çalışmaq lazımdır ki, yaltaqlıqdan uzaq olaq".

**Günel MANAFLI**

# YENİ MÜSAVAT

## Son səhifə

N 133 (6161) 20 iyun 2015


# Boşandı, maşınını iki hissəyə böldü



Almaniyada sevgilisindən ayrıldıqdan sonra depressiyaya düşən adam qeyri-adi hərəkətlər edib. Adı açıqlanmayan alman kişi sevgilisindən ayrıldıqdan sonra onunla ortaq istifadə etdiyi hər şeyi ortadan iki hissəyə ayırıb. Ayrıldıqdan sonra malları bərabər bölmək fikrini tamamən yanlış anlayan kişi ortadan iki böldüyü hər şeyi "Ebay" internet satış mağazasında satışa çıxarıb. Elektrikli maşınla maşınını, yatağını, İpone5 markalı telefonunu və televizorunu iki hissəyə bölən kişi sosial mediada hər kəsin diqqət mərkəzindədir.

"Der.juli" istifadəçi adı ilə malları iki hissəyə bölərkən çəkdiyi videonu youtube sosial şəbəkəsinə yerləşdirib. Alman kişi "Laura üçün" adı verdiyi videonu sevgilisinə ithaf etdiyini yazıb.



## "Möhtəşəm Yüz il"in davamı çəkilir

Azərbaycanda da maraqla izlənən Türkiyənin məşhur serialının davamı gəlir. Bu dəfə rejissorlar Osmanlı tarixinin ən önəmli dövrlərindən bəhs edən "Möhtəşəm Yüz il"ın davamı olan "Kösəm sultan" serialının çəkilişlərinə başlayıblar. Serialın bu ilin sentyabr ayından efirə çıxacağı gözlənilir.

Filmdə rolların seçimi ilə bağlı kastinqlər isə ötən ildən start götürüb. Daha çox maraq mövzusu olan isə Osmanlı tarixinin ən qəddar qadınlarından hesab edilən Kösəm sultanı kimin ifa edəcəyi olub. Belə ki, serialda adıçəkilən sultanın müxtəlif yaş dövrləri canlandırılacaq. Onlardan ən əsasını gənc aktrisa Beren Saat ifa edəcək.

Filmdə rol alacaq məşhurlardan biri də aktrisa və müğənni Hülya Avşardır. O, gözəlliyi, zəkası ilə məşhur Safiye sultan xarakterini canlandıracaq. Artıq aktrisa özəl kostyumlarında kameralar qarşısına keçib. İngiltərə kraliçasına yaxınlığı ilə seçilən sultan kraliçanın ona hədiyyə etdiyi ağ pişiyinə də Yelizaveta adını verməşdi. Yeni fotosessiyasında da o məhz ağ pişiyi ilə iştirak edib.

# Ölü qoxusundan ətir

**Fransız iş adamlarından biri ölü qoxusundan ətir düzəldərək hər kəsi heyrətləndirib. Alman kanalı "N-tv"nin xəbərinə görə, Katia Apalategu yaxınlarını itirən və onların ölümünü qəbul edə bilməyənlər üçün ölmüş insan kimi qoxuyan xüsusi ətir hazırlayıb. 52 yaşlı iş adamı atasını itirdikdən sonra ondan qalan şəkillərdən və videolardan təsəlli tapa bilməyib. Atasını daha yaxşı xatırlamaq üçün onun paltarlarında qalan qoxudan istifadə edərək xüsusi ətir hazırlayıb.**

Ətrin hazırlanması üçün ölən şəxsin əşyalarındakı molekullar toplanır, təmizlənir, xüsusi məhlulun içərisində istifadə edilməyə başlayır. "Kalain" adlı firmanın sahibi bu yolla olduqca böyük bir sərvətin sahibi olub. İnsanlar sevdikləri heyvanların qoxusunu da ətir kimi istifadə edə biləcəklər. Hər bir şəxs üçün xüsusi olaraq hazırlanan və insanları özəl hiss etdirən ətrin şüşəsi 560 avrodur.

Ölən insanların qoxularını bir şüşədə toplamaq Partik Süskindin "Tir" romanını xatırladır.





## Ata-anası tərk etdi

**Hindistanda dünyaya gələn körpə görənləri şoka salıb. Nadir xəstəlikdən əziyyət çəkən körpəni eybəcər görünüşünə görə ata-anası belə atıb. Belə ki, körpə qırışıq dəri ilə dünyaya gəlib. Bunun genetik və ya hamiləlik zamanı ananın keçirdiyi xəstəliklə bağlı olub-olmadığı isə hələ bəlli deyil.**

Mamata Dode və Ajay Dode adlı cütlük iki həftəlik körpəni xəstəxanada qoyaraq evlərinə gediblər. Lakin baba uşaqdan imtinanı qəbul etməyib və ona özünün baxacağını deyib. O, çağanı keçi südü ilə bəsləməyə başlayıb. Onun sözlərinə görə, hamiləlik zamanı qızı müntəzəm olaraq həkim nəzarətində olub. Lakin ona uşağın xəstəliyi barədə heç nə deyilməyib. "Doğulandan sonra hamı onu görməyə gəlirdi. Lakin bu görüntüyə görə qorxu içərisində evlərinə dönürdülər. Heç kim ona toxunmaq belə istəmirdi".

Həkimlər uşağın müalicəyə müsbət cavab verdiyini deyiblər. İndi aparılacaq testlər və analizlərdən sonra xəstəliyin səbəbi müəyyən ediləcək.




**QOÇ** - Yeni işlərə başlamaq, perspektivli sövdələşmələr aparmaq üçün ideal ərəfədir. Çalışın ki, bu fürsətdən maksimum yararlanasınız. Aldığınız hər bir dəvətə razılıq verin.

**BUĞA** - O qədər də səmərəli vaxt deyil. Yaxşı olar ki, riskli işlərinizi, xüsusən də işgüzar görüşlərinizi təxirə salasınız. İş günü olsa da, vaxtınızı daha çox istirahətə həsr edin.

**ƏKİZLƏR** - Bürcünüz üçün ən uğurlu vaxt günün birinci yarısıdır. Göstərdiyimiz ərəfədə ağıllı şəkildə risk etmək sizə uğur gətirə bilər. Gün ərzində şəxsi büdcənizi artırmaq imkanınız da olacaq.

**XƏRÇƏNG** - Bütün sağlam sahələrdə mövqelərinizi qorumaq və möhkəmləndirmək başlıca vəzifəniz olmalıdı. Amma bütün vacib işlərinizi saat 18-ə qədər yekunlaşdırın ki, sonrakı ərəfənin düşərliliyini hiss edəsiniz.

**ŞİR** - Bəri başdan nəzərinizə çatdıraq ki, bu təqvimdə əsəblərinizi maksimum qorumalısınız. Ünsiyyətdə olduğunuz hər kəslə mehriban davranın. Yalnız gündəlik işlərinizlə məşğul olun.

**QIZ** - Əgər səhhətinizdə problem yoxdursa, qorxmağa dəyməz. Ən azı ona görə ki, gün ərzində rastlaşdığınız olaylar fərəh hissinizi artıracaq. Axşam öz evinizdə gecələməyiniz tövsiyə olunur.

**TƏRƏZİ** - Yaxşı olar ki, bu gün özünüzü çox yormayasınız. Ən azı ona görə ki, əyləncə və gəzintilər üçün ayda-ildə bir dəfə əlinizə fürsət düşəcək. Buna baxmayaraq, uzaq yola çıxmaq məsləhət deyil.

**ƏQRƏB** - Adi bir təqvim yaşayacaqsınız. Hansısa qeyri-adilik gözləməyə dəyməz. Yalnız nahar ərəfəsində xırda mübahisələriniz mümkündür. Böyüklərin məsləhətini qulaqardına vurmayın.

**OXATAN** - Planetlərin bürcünüzdəki neqativ düzülüşü ümumi ovqatınızda gərginlik yaratsa da, bu, yalnız saat 15-ə qədər davam edəcək. Sonrakı müddətdə isə maraqlı hadisələrin şahidi olacaqsınız.

**OĞLAQ** - Yeni əlaqə və tanışlıq üçün səmərəli vaxtdır. Atacağınız addımları dönə-dönə ölçüb-biçin. Yorulmaqdan qorxmayın. Çünki zəhmətinizin bəhrəsini yaxın vaxtlarda görəcəksiniz.

**SUTÖKƏN** - Əsas vaxtınızı fəaliyyət amilinə həsr edin. Çünki ulduzlar bu təqvimdə daha çox məlum sahədə sizə enerji bəxş edəcək. Saat 18-21 aralığında isə qonaq getmək sizə rahatlıq gətirəcək.

**BALIQLAR** - Daha çox fəaliyyətlə məşğul olmağınız məsləhət görülür. İndi sizin ən məhsuldar dövrünüz olduğu üçün boş dayanmağa lüzum yoxdur. Doğmalarınızla münasibətlərə obyektiv yanaşın.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Diş çəkdirdi, öldü




**Tayvan sakini Pree Namthip qeyr-adi səbəbdən həyatını itirib. Məlumatlara görə, 64 yaşlı kişi evində ölmüş halda tapılıb. Namthipin yanında çoxlu sayda ağrıkəsici dərman tapan həkimlər onun bədənində yara ya da travma izi tapmadıqları üçün şübhələniblər. Araşdırma nəticəsində məlum olub ki, 64 yaşlı kişi uzun müddət imiş ki, diş ağrısından əziyyət çəkirmiş. Yaxınlıqda yaşayan qəssabdan onun dişini çəkməsini xahiş edib. Qəssab onun dişinə ağır daş bağlayıb və uzağa atıb. Daş uzağa düşdüyü zaman Namthipin də dişi çıxmış olub. Lakin dişindəki qanaxmanı dayandırmaq mümkün olmayıb. Namthip içki düşkünü olduğundan ağrıkəsicilər ona təsir etməyib və nəticədə həyatını itirib.**

**Səhifəni hazırladı: ŞAHNAZ**


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.300